بسم الله الرحمن الرحيم

# VƏHY VƏ QURAN

**Müəllif:Əllamə Seyid Məhəmmədhüseyn Təbatəbai**

**Çevirən: Nurəddin Əliyev**

Azərbaycan Respublİkasinin Dini Qurumlarla İş üzrə dövlət komitəsinin 29 iyul 2009-ci il Dk-215/Q saylı məktubu əsasında «Zərdabi LTD» MMC-nin mətbəəsində çap olunmuşdur.

Kitabın adı:.................................................Vəhy və Quran
Müəllif :...Əllamə Seyid Məhəmmədhüseyn Təbatəbai
Çevirən:.........................................Nurəddin Əliyev
Çap növ.......................................Birinci, 2009

## I fəsil

## *Qurani-kərim*

Həzrət Məhəmmədin (s) peyğəmbərliyini təsdiqləyən sənəd və səmavi kitab olan Qurani-kərim dini təlimlərin və İslam həqiqətlərinin qaynağıdır. Allah kəlamı olan Qurani-kərim əzəmətli, ülvi bir məqamdan Peyğəmbərə (s) nazil olan və insanlara səadət yolunu göstərən təlimlərdir. Qurani-kərim bəşəriyyət aləminə həm dünyanın, həm də axirətin səadətini təmin edən bir sıra elmi və əməli proqramlar verir. Qurani-kərim Peyğəmbərin (s) 23 illik dəvəti müddətində tədricən nazil olmuş və bəşəriyyət aləminin ehtiyaclarını ödəmişdir.

Qurani-kərim insanları səadət yoluna yönəltməkdən başqa hədəfi olmayan bir kitabdır. Fərdi və ictimai səadətin əsası olan düzgün əqidəni, gözəl əxlaqı və layiqli əməlləri səlis bir bəyanla insanlara öyrədir:

و نزّلنا عَلَيكَ الكِتابَ تِبيانًا لِكُلِّ شَيءٍ

***"Biz Quranı sənə hər şeyi izah etmək üçün bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik!"[1]***

Qurani-kərim İslam təlimlərini qısa şəkildə bəyan etmişdir. Onların təfərrüatı üçün isə Peyğəmbərə (s) və onun ailəsinə müraciət etməyi bildirmişdir:

وَأَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ يَتَفَكَّرُونَ

***"Sənə Quranı nazil etdik ki, insanlara göndərdiyimizi onlara izah edəsən. Bəlkə onlar da düşünüb dərk edələr!"[2]***

وَمَا أَنزَلْنَا عَلَيْكَ الْكِتَابَ إِلاَّ لِتُبَيِّنَ لَهُمُ الَّذِي اخْتَلَفُواْ فِيهِ

***"Biz Kitabı sənə yalnız ixtilafda olduqları məsələləri izah etmək üçün nazil etdik!"[3]***

---

[1] "Nəhl" 89

[2] "Nəhl" 44

Qurani-kərim insanları kor-koranə təqlidə çağırmadan onlarla sadə dillə, Allahın hər kəsə bəxş etdiyi məntiqlə danışır və insanların istər-istəməz öz fitrəti ilə dərk etdiyi məlumatları xatırladaraq bildirir ki, insan heç vaxt onları qəbul etməkdən və onların düzgünlüyünü etiraf etməkdən boyun qaçıra bilməz.

Allah taala buyurur:

إِنَّهُ لَقَوْلٌ فَصْلٌ وَمَا هُوَ بِالْهَزْلِ

***"Quran haqla batili ayırd edən kəlamdır! O, zarafat və əyləncə deyildir"!***[4]

Quranın buyurduğu sözlər öz məzmunun əhatə dairəsinə görə bütün zamanlara və bütün diri insanlara aiddir. O, məsələnin bəzi cəhətlərini dərk edən, bəzi cəhətlərindən isə qafil olan adi insan sözü yox, gizlində, aşkarda olan bütün şeylərdən və hər bir işin xeyrindən, ziyanından xəbərdar olan Allahın kəlamıdır. Buna görə də hər bir müsəlmana vacibdir ki, həmişə real baxışla bu ayəyə diqqət etsin, Allahın kəlamının diri və əbədi olduğunu anlasın, başqalarının bu barədə düşünüb danışdıqlarına kifayətlənməsin, Quranda çoxlu təkid olunan və insanın səciyyəvi xüsusiyyətlərindən olan azad düşüncənin qapısını öz üzünə bağlamasın. Çünki Allahın kitabı həmişə, hər kəs üçün haqla nahaqqı ayırd edən kəlam və canlı höccətdir və belə bir kitabı dərk etmək müəyyən bir qrupa məxsus deyildir.

Allah taala buyurur:

وَلَا يَكُونُوا كَالَّذِينَ أُوتُوا الْكِتَابَ مِن قَبْلُ فَطَالَ عَلَيْهِمُ الْأَمَدُ فَقَسَتْ قُلُوبُهُمْ

***"Müsəlmanlar özlərindən əvvəl kitab verilən yəhudilər və xaçpərəstlər kimi olmasınlar. Onlarla öz peyğəmbərləri arasında uzun bir müddət keçmiş və qəlbləri daşlaşmışdır".***[5]

Qurani-kərim bütün insanlardan istəyir ki, öz fitrətlərinə müraciət edib haqqı qəbul etsinlər. Belə ki, hər şeydən əvvəl

---

[3] "Nəhl" 64

[4] "Tariq" 14

[5] "Hədid" 16

haqqı qeydsiz-şərtsiz qəbul etmək üçün özlərində hazırlıq yaratsınlar, hansısa bir əqidənin haqq olduğunu, dünya və axirətin səadətini təmin etdiyini gördükdə şeytanın vəsvəsələrinə və nəfsin çağırışına qulaq asmadan onu qəbul etsinlər. Bundan sonra isə İslam təlimlərini öz ağılları ilə ölçsünlər. Əgər İslam təlimlərinin haqq olduğunu və insanların həqiqi məsləhətinin onların həyata keçirilməsində olduğunu görsələr, təslim olub onları qəbul etsinlər. Bu halda insanın həyat tərzi və cəmiyyətdə icra olunan normalar insanların öz fitri istəkləri ilə uyğun olan qanunlardan ibarət olacaqdır. Elə harmoniyalı bir yaşayış tərzi olacaqdır ki, onun bütün komponentləri insanın quruluşu ilə tam şəkildə uyğun olacaq və hər cür ziddiyyətdən uzaq olacaq. Bəzən mənəviyyatdan, bəzən isə maddiyyatdan qaynaqlanan və bəzən əqllə, bəzən isə nəfsani istəklərlə uyğun olan ziddiyyətli bir yaşayış tərzi olmayacaqdır.

Uca Allah Quranın vəsfində buyurur:

يَهْدِي إِلَى الْحَقِّ وَإِلَى طَرِيقٍ مُّسْتَقِيمٍ

***"Hər cür ziddiyyətdən uzaq olan haqqa və doğru yola hidayət edir".*** [6]

Həmçinin buyurur:

إِنَّ هَذَا الْقُرْآنَ يِهْدِي لِلَّتِي هِيَ أَقْوَمُ

***"Həqiqətən, bu Quran (bütün bəşəriyyəti) ən doğru yola yönəldir".*** [7]

Başqa bir ayədə bildirilir ki, İslamın ən doğru yol olmasının səbəbi onun insanın yaradılışı ilə uyğun olmasıdır. Çünki aydındır ki, insanın həqiqi ehtiyaclarına və fitri istəklərinə cavab verən bir əqidə ən gözəl şəkildə insanı xoşbəxt edəcəkdir.

---

[6] "Əhqaf" 30

[7] "Isra" 9

فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا فِطْرَةَ اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا لَا تَبْدِيلَ لِخَلْقِ اللَّهِ ذَلِكَ الدِّينُ الْقَيِّمُ

***"Batildən haqqa tapınaraq üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə tərəf tut. O din ki, dəyişdirilməsi mümkün olmayan insanın quruluşu ilə tam şəkildə uyğundur və cəmiyyəti idarə edib səadətə çatdırmaq qüdrətinə malikdir".[8]***

Həmçinin buyurur:

كِتَابٌ أَنزَلْنَاهُ إِلَيْكَ لِتُخْرِجَ النَّاسَ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ

***"Quran elə bir Kitabdır ki, insanları zülmətlərdən nura çıxartmaq üçün sənə nazil etmişik".[9]***

Qurani-kərim, insanları hədəfi aşkar şəkildə göstərən aydın bir yola dəvət edir, deməli bu, elə bir yol olmalıdır ki, insanların real ehtiyaclarına düzgün cavab versin və eləcə də ağılla uyğun olsun. Bu isə İslam adlanan fitri dindən başqa bir şey deyildir.

Nəfsani istəklərə və cəmiyyətin nüfuzlu şəxslərinin qəzəb və şəhvətini doyurmağa əsaslanan, ata-babadan kor-koranə təqlidi şəkildə götürülən, eləcə də zəif və geridə qalmış xalqların məntiqlə uyğun olub olmamasını araşdırmadan güclü xalqlardan əxz etdikləri həyat tərzi isə qaranlığa girməkdən başqa bir şey deyildir və heç vaxt insanların hədəfə çatmasına zəmanət verə bilməz. Allah taala buyurur:

أَوَ مَن كَانَ مَيْتًا فَأَحْيَيْنَاهُ وَجَعَلْنَا لَهُ نُورًا يَمْشِي بِهِ فِي النَّاسِ كَمَن مَثَلُهُ فِي الظُّلُمَاتِ لَيْسَ بِخَارِجٍ مِّنْهَا

***"Ölü olub dinlə diriltdiyimiz, sonra insanlar arasında gəzmək üçün nur (İslam dini) verdiyimiz kəs zülmət içində qalıb oradan çıxa bilməyən bir kəs kimi ola bilərmi?"[10]***

---

[8] "Rum" 30
[9] "İbrahim" 1
[10] "Ənam" 122

Beləliklə buradan İslam və müsəlmanların baxışından Qurani-kərimin əzəmət və əhəmiyyətini dərk etmək olar. Bundan əlavə, nazil olmasından 14 əsr keçən bu müqəddəs kitab müxtəlif cəmiyyətlərdə müxtəlif cəhətlərdən dəyərli məqama malik olmuş və dünya xalqlarının diqqətini özünə cəlb etmişdir.

Həqiqətən, Qurani-kərim səmavi kitabdır və İslamın qlobal və əbədi bir din olmasının zəmanətçisidir. İslam dininin başlıca təlimləri onda cazibədar bir bəyanla deyilib və bu cəhətdən onun dəyəri Allahın dininin dəyəri ilə bərabərdir. Bundan əlavə, Qurani-kərim Allah kəlamı və Peyğəmbərin (s) əbədi möcüzəsidir.

## II fəsil

## *Quran möcüzədir*

Şübhəsiz ki, ərəb dili elə zəngin, əhatəli bir dildir ki, insanın bütün düşüncələrini və daxili duyğularını ən aydın və dolğun şəkildə çatdıra bilir, bu cəhətdən heç bir dil ərəb dilinə çata bilməz. Tarix göstərir ki, əksəriyyəti köçəri, mədəniyyətdən və yaşayışın bir çox imkanlarından məhrum olan Islamdan öncəki cahiliyyət dövrünün ərəbləri söz sənəti və ritorika sahəsində böyük məqam sahibi idilər. Belə ki, tarixin səhifələrində onlara rəqib tapmaq mümkün deyildir. Ərəb ədəbiyyatında bəlağətli söz ən yüksək dəyərə malik idi və gözəl bədii sözlərə çox ehtiramla yanaşılırdı. Öz allahlarını və bütlərini Kəbə evinə qoyduqları kimi ən güclü şair və natiqlərin könül oxşayan şerlərini də Kəbənin divarından asırdılar. Ərəb dilinin geniş və çoxqaydalı olmasına baxmayaraq ərəblər onun bütün qaydalarına düzgün və heç bir səhvə yol vermədən riayət edirdilər. Onlar söz sənətində misilsiz məharətə malik idilər.

Bir neçə ayənin Peyğəmbərə (s) nazil olduğu və camaat üçün oxunduğu ilk günlərdən Quran ərəb natiqləri arasında

böyük bir əks-səda doğurdu. Quranın mənalı, cazibəli və şirin bəyanı qəlblərdə elə dərin bir təsir buraxdı ki, bütün bəlağətli sözlər unuduldu və "Müəlləqat" adlı Kəbədən asılan o gözəl şerlər aşağı endirildi. Bu ilahi sözlər sonsuz gözəlliyi və cazibədarlığı ilə bütün qəlbləri özünə məftun edir və öz şirin nəzmi ilə bütün söz sahiblərini susmağa məcbur edirdi.

Digər tərəfdən isə bu, müşrik və bütpərəst qövmlər üçün çox acınacaqlı və dözülməz idi. Çünki Quran öz güclü məntiqi və aydın bəyanı ilə təkallahlılığı sübut edir, şirki və bütpərəstliyi pisləyir, insanların allah adlandırıb ehtiyac əllərini uzatdıqları, qarşılarında qurban kəsdikləri və Allah əvəzinə sitayiş etdikləri bütləri təhqir edir, onları insanın həyatında heç bir təsiri olmayan daş heykəllər və cansız taxtalar adlandırırdı. Başdan ayağa eqoist və təkəbbürlü olan, bütün həyatlarını yol kəsməklə, qan tökməklə keçirən vəhşi ərəbləri həqiqətpərəstliyə, ədalətsevərliyə və insanlığa çağırırdı. Buna görə də bütpərəst ərəblər məsələni müharibə yolu ilə həll etməyi qərara aldılar və bu hidayət çırağını söndürmək üçün hər bir vasitəyə əl atdılar. Lakin onların bütün səyləri boşa çıxırdı.

Besətin əvvələrində Peyğəmbəri (s) ərəblərin poetika və ritorika sahəsində tanınmış mütəxəssisi Vəlid adlı bir şəxsin yanına apardılar. Peyğəmbər (s) "Fussilət" surəsinin əvvəlindən bir neçə ayə oxudu. Vəlid isə qururlu halda diqqətlə qulaq asırdı. Peyğəmbər (s)

فَإِنْ أَعْرَضُوا فَقُلْ أَنذَرْتُكُمْ صَاعِقَةً مِّثْلَ صَاعِقَةِ عَادٍ وَ ثَمُودَ [11]

ayəsinə çatdıqda Vəlidin əhvalı dəyişdi, bədəni lərzəyə düşdü və huşunu itirdi. Məclis dağıldı və camaat çıxıb getdi. Bu hadisədən sonra bir qrup Vəlidin yanına gələrək gileyləndilər ki, sən bizi Məhəmmədin yanında rüsvay etdin. Vəlid dedi: "Xeyr. Allah and olsun, bilirsiniz ki, mən heç kimdən

[11] "Ya Peyğəmbər. Əgər haqdan üz döndərsələr, de: "Mən sizi Ad və Səmud qövmlərinin ildırımı kimi bir ildırımla qorxuduram!"

qorxmuram, heç nədə də tamahım yoxdur. Bilirsiniz ki, mən bu sahədə mütəxəssisəm. Məhəmməddən eşitdiyim sözlər adi insan sözünə bənzəmir. Cazibəli və məlahətli sözlərdir. Ona nə şer demək olar, nə də nəsr. Dolğun və dərin məzmunludur. Əgər bu barədə mənim qəti fikrimi bilmək istəyirsinizsə, üç gün mənə möhlət verin, fikirləşim." Onlar üç gündən sonra Vəlidin yanına gələrkən Vəlid dedi: "Məhəmmədin sözləri ürəkləri ovsunlayan sehrdir." Müşriklər Vəlidin sözü ilə Quranı sehr və cadu adlandıraraq həm özləri onu dinləməkdən çəkinirdilər, həm də başqalarını bu işdən çəkindirirdilər. Bəzən Peyğəmbər (s) Kəbədə Quran oxuyarkən səslərini ucaldıb əl çalırdılar ki, camaat onun səsini eşitməsinlər.

Lakin bununla belə, Quranın cazibəli və məlahətli bəyanına vurulduqları üçün çox vaxt gecənin qaranlığından istifadə edərək Peyğəmbərin (s) evinin arxasına yığışıb Quranın səsinə qulaq asırdılar. O zaman bir-birlərinə deyirdilər: Bu sözləri məxluq sözü adlandırmaq mümkün deyildir. Allah Quranda bu hadisəyə işarə edərək buyurur:

نَحْنُ أَعْلَمُ بِمَا يَسْتَمِعُونَ بِهِ إِذْ يَسْتَمِعُونَ إِلَيْكَ وَإِذْ هُمْ نَجْوَى إِذْ يَقُولُ الظَّالِمُونَ إِن تَتَّبِعُونَ إِلاَّ رَجُلاً مَسْحُورًا

"(Sən Quran oxuyanda) onlar sənə qulaq asdıqları zaman səni necə dinlədiklərini və zalımların öz aralarında gizli-gizli danışıb: "Siz ancaq ovsunlanmış bir adama uyursunuz!" - dediklərini də bilirik."[12]

Bəzən Peyğəmbər (s) Kəbədə Quran oxuyaraq insanları dinə dəvət edərkən Peyğəmbərin (s) qarşısından keçib getmək istəyən natiq ərəblər əyilirdilər ki, camaat onları görüb tanımasınlar. Allah bu barədə Quranda buyurur:

أَلا إِنَّهُمْ يَثْنُونَ صُدُورَهُمْ لِيَسْتَخْفُواْ مِنْهُ

***"Bilin ki, gizlənmək məqsədilə ikiqat olarlar."[13]***

---

[12] "İsra" 49

[13] "Hud" 5

## *Peyğəmbəri (s) ittihamlandırmaq*

Müşriklər və kafirlər təkcə Quranı deyil, ümumiyyətlə peyğəmbərin çağırışını bütövlükdə sehr adlandırırdılar. Peyğəmbər (s) insanları Allahın dininə dəvət edib həqiqətləri onlara açıqlayarkən, yaxud onlara öyüd-nəsihət verərkən deyirdilər ki, Peyğəmbər (s) camaatı sehrləyir. Halbuki, həmişə Peyğəmbər (s) onlara insanın ağlı və fitrəti uyğun olan sözlər deyir və cəmiyyətin səadətini öz üzərinə götürən düzgün bir yol göstərirdi. Odur ki, müşriklərin, Peyğəmbərin (s) sözlərini qəbul etməməyə heç bir bəhanələri və onları sehr adlandırmağa heç bir dəlilləri yox idi. Peyğəmbərin (s): "Öz əllərinizlə yonduğunuz daşlara və taxtalara ibadət etməyin, öz övladlarınızı onların qarşısında qurbanlıq olaraq kəsməyin, xurafatlara inanmayın"- deməsi cadu idimi? Doğruluq, xeyrxahlıq, insansevərlik, sülh, ədalət və insan hüquqlarına hörmətlə yanaşmaq kimi əxlaqi xüsusiyyətləri sehr adlandırmaq olarmı? Allah Quranda bu məsələyə işarə edərək buyurur:

وَلَئِن قُلْتَ إِنَّكُم مَّبْعُوثُونَ مِن بَعْدِ الْمَوْتِ لَيَقُولَنَّ الَّذِينَ كَفَرُواْ إِنْ هَذَا إِلاَّ سِحْرٌ مُّبِينٌ

***"Sən onlara: "Siz öləndən sonra, həqiqətən, dirildiləcəksiniz!"-deyəndə kafirlər: "Bu, açıq-aşkar sehrdən başqa bir şey deyildir!" - deyə cavab verərlər."[14]***

**Quran müşrikləri mübarizəyə çağırır**

Ürəklərində bütpərəstliyin kök salmış olduğu müşriklər və kafirlər heç vaxt İslamı qəbul edib həqiqət qarşısında təslim olmağa hazır deyildilər. Buna görə də Peyğəmbəri (s) təkzib

[14] "Hud" 7

edərək: "Yalnçıdır, Allah tərəfindən gəldiyini iddia etdiyi Quran da onun öz sözüdür."- deyirdilər.

Bu böhtana cavab vermək üçün Quran ən güclü söz sənətkarlarını mübarizəyə dəvət etdi və onlardan istədi ki, əgər iddialarında doğdudurlarsa, Quranın bənzəri olan bir kəlam gətirsinlər və bu yolla İslamın əsassız olduğunu sübut etsinlər. Allah taala Quranda buyurur:

أَمْ يَقُولُونَ تَقَوَّلَهُ بَل لَّا يُؤْمِنُونَ فَلْيَأْتُوا بِحَدِيثٍ مِّثْلِهِ إِن كَانُوا صَادِقِين

***"Yoxsa onlar: "Quranı özündən uydurdun!"- deyirlər. Xeyr, onlar iman gətirən deyillər. Əgər doğru deyirlərsə, qoy onlar Quran kimi bir kəlam gətirsinlər!"[15]***

Başqa ayədə buyurur:

أَمْ يَقُولُونَ افْتَرَاهُ قُلْ فَأْتُواْ بِسُورَةٍ مِّثْلِهِ وَادْعُواْ مَنِ اسْتَطَعْتُم مِّن دُونِ اللّهِ إِن كُنتُمْ صَادِقِينَ

***"Yoxsa: "(Peyğəmbər) onu özündən uydurdu!" - Deyirlər. De: "Əgər doğru deyirsinizsə, Qurana bənzər bir surə gətirin və Allahdan başqa, kimə gücünüz çatırsa, onu da köməyə çağırın!"[16]***

Söz ustaları və ritorika aləminin sultanı hesab olunan, bu sahədə özlərinə qürrələnən ərəb müşrikləri və kafirləri Quranla ədəbi yarışa girişməkdən imtina etdilər, buna görə də çarəsiz qalıb Islamla qanlı mübarizəyə başladılar. Çünki Quranla ədəbi mübarizədə məğlub olub rüsvay olmaqdansa, ölüm onlar üçün daha asan idi. Ərəb natiqləri Quranla mübarizə aparmaqdan aciz qaldılar. Təkcə Quranın nazil olduğu əsrdə yaşayanlar yox, hətta ondan sonra dünyaya gələnlər də bu işi görə bilmədilər və öz güclərini sınayandan sonra məcbur olub geriyə çəkildilər.

Ümumiyyətlə insan rəqabətsevər bir varlıq olduğu üçün hər hansı bir şəxsin yaratdığı və başqalarının diqqətini özünə cəlb edən sənət əsəri gördükdə, hətta o əsərin insanların həyatında

---

[15] "Tur" 33-34

[16] "Yunus" 38

birbaşa təsiri olmasa belə həmişə bir qrup insanlar ona bənzər və ondan daha yaxşı bir əsər yaratmağa can ataraq onunla yarışmaq fikrinə düşürlər. Buradan məlum olur ki, həmişə bir qrup insanlar Quranın bənzərini gətirmək üçün fürsət axtarmışlar və belə bir fürsət ələ düşən kimi bu işə addım atmaqdan çəkinməzdilər. Lakin onlar Quranla mübarizə aparmaqdan aciz qaldılar. Deməli, Quranı sehr və cadu adlandırmaq bəhanə imiş. Çünki sehr elə bir elmdir ki, haqqı batil, batili isə haqq şəklində cilvələndirir. Yəni doğrunu yalan, yalanı isə doğru göstərir. Quran isə öz gözəl nəzmi və şirin bəyanı ilə qəlbləri ovlayırsa, bu onun təbii gözəlliyindən irəli gəlir və sehr ilə heç bir əlaqəsi yoxdur. Əgər Quran söz vasitəsilə insanları bir sıra ülvi hədəflərə çağırırsa, insanların öz şüur və fitrətləri ilə düzgünlüyünü dərk etdikləri bir sıra təlimləri onlara öyrədirsə və onları haqqı tanıma, xeyrxahlıq, ədalət və insansevərlik kimi sağlam əqlin qəbul etdiyi bir sıra davranışlara sövq edirsə, bu, həqiqəti çatdırmaqdan başqa bir şey deyildir. Lakin bəşərin yaratdığı hər bir işdə rəqabət mümkün olduğu üçün onlar aciz qaldıqları zaman deyə bilmədilər ki, "Quran bəşər kəlamlarının ən üstünüdür, düzdür ki, gözəllikdə, məlahətdə, fəsahət və bəlağətdə tayı- bərabəri yoxdur, lakin bu o demək deyildir ki, Allah kəlamıdır."

Başqa sözlə desək, cürət, şücaət və s. kimi kamilləşə bilən hər bir xüsusiyyətin, oxumaq yazmaq və s. kimi inkişaf edə bilən hər bir sənətin bəşər tarixində müsabiqənin ilk qalibi sayılan bir dahisi vardır. Ərəb müşrikləri də həzrət Məhəmmədin (s) ərəb dilinin ritorikasında hamıdan üstün bir dahi olduğunu deyə bilərdilər. Lakin bu surətdə onun gətirdiyi Quran bəşər kəlamı sayılacaqdı və onunla rəqabətə girişmək mümkün olacaqdı. Odur ki, Peyğəmbərlə (s) müasir olan ərəb natiqləri bunu demədilər... Çünki dahi insanların əli ilə zirvəyə ucalan hər bir xüsusiyyət və sənət nə qədər üstün olsa da, insan istedadından qaynaqlandığı və bəşər gücünün məhsulu olduğu üçün başqaları da həmin dahi insanın üzünə açılan yolla

hərəkət edib öz çalışqanlığı sayəsində həmin dahinin yaratdığı işin bənzərini və ya hətta hər bir cəhətdən olmasa belə bəzi cəhətlərdən ondan daha yaxşısını yerinə yetirə bilər. Bu surətdə o yolda ilk dəfə cığır açan həmin dahi üçün yalnız “o yolun ilk yolçusu” adı qalacaq. Məsələn səxavətdə Hatəm Taini ötüb keçmək mümükün olmasa da, onun gördüyü işlərin oxşarını görmək mümkündür. Xəttatlıq sənətində Mirdən və rəssamlıqda Manidən qabağa keçmək mümükün olmasa da, çoxlu səy və çalışqanlıq sayəsində Mirin üslubu ilə bir söz yazmaq və Maninin səbki ilə kiçik bir tablo çəkmək olar.

Odur ki, deyilən bu qanuna əsasən əgər Quran Allah kəlamı yox, ən səlis bir bəşər kəlamı olsaydı, başqa insanlar, xüsusilə dünyanın tanınmış söz sənətkarları çalışıb həmin üslubda bir kitab, ya ən azı Quran surələrinə bənzəyən bir surə gətirərdilər. Qurani kərim insanları mübarizəyə çağırarkən onlardan özündən daha yaxşısını yox, özünə oxşar bir kəlam gətirməyi istəmişdir.[17]

Sonda xatırlatmaq lazımdır ki, Quranın başqalarını aciz qoyması təkcə onun ədəbi cəhətdən cazibədar bir üsluba və nəzmə malik olmasına görə deyildir. Əksinə o, bəşərin bütün etiyaclarına verdiyi düzgün cavablara, qeybdən verdiyi xəbərlərə, bəyan etdiyi bir sıra həqiqətlərə və bu kitabda olan digər cəhətlərə görə də möcüzə sayılır və bütün bəşəriyyəti mübarizəyə çağırıb bildirir ki, heç zaman onun bənzərini gətirə bilməyəcəklər.

---

[17] “Əgər doğru deyirlərsə, qoy onlar bunun (bu Qur’an) kimi bir kəlam gətirsinlər!” (Tur 34), "Əgər doğru deyirsinizsə, Qur’ana bənzər bir surə gətirin” (Yunus 38), "Əgər doğru deyirsinizsə, onun kimi özünüzdən on surə uydurub gətirin” (Hud13), "Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qur’ana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər" (Isra 88).

# III fəsil

## *Ecazkarlıq və möcüzə*

1. Hər bir möcüzə növündən və formasından asılı olmayaraq xariqüladə bir işdir və gündəlik olaraq rastlaşdığımız adi səbəblər yolu ilə yaranmır.

Deməli əgər hər hansı bir hadisə bizim tanıdığımız və həqiqətinə vara biləcəyimiz adi səbəblər yolu ilə baş verərsə, yaxud məsələnin həqiqətinə vara bilməsək belə bir sıra nişanələrə əsasən həmin hadisənin adi səbəblərdən yarandığını bilsək, bu cür hadisələrə möcüzə deyilmir. Möcüzə elə hadisələrə deyilir ki, onun baş verməsini adi səbəblərlə izah etmək mümkün deyildir və adi səbəblərin həmin hadisənin baş verməsində heç bir rolu ola bilməz.

Lakin bununla belə bütün xariqüladə işlərə möcüzə deyilmir. Çünki kəramət, duanın müstəcab olması, sehr və s. bu kimi işlər də xariqüladə işlərdir və bu cəhətdən möcüzə ilə birdir, lakin möcüzə ilə fərqli cəhətləri də vardır.

Adından məlum olduğu[18] və Qurani-kərimin Saleh, Musa, İsa (s) və digər peyğəmbərlərdən nəql etdiyi kimi möcüzə elə xariqüladə işlərə deyilir ki, haqqı sübut etmək üçün baş verir və insanları mübarizəyə çağırır. Bildiyimiz kimi Qurani-kərim də özünün haqq və Allah kəlamı olduğunu sübut üçün etmək insanları mübarizəyə çağırır. Peyğəmbərlər möcüzə gətirdikləri zaman bildirirdilər ki, "Allahdan başqa heç kəs ona qadir deyildir və möcüzə bizim Allah tərəfindən göndərilməyimiz barəsindəki iddiamızın doğruluğunun dəlilidir."

**Kəramət:** Elə xariqüladə işdir ki, ruhi paklıq, batini saflıq və Allaha yaxınlıq sayəsində baş verir. Kəramət bəzi hallarda haqqın sübut olunması üçün də baş verə bilər, lakin bununla

---

[18] "Möcüzə" sözü ərəbcə (başqalarını) aciz qoyan mənasınadır. (tərçüməçi)

belə haqqı sübut etmək və insanları mübarizəyə çağırmaq kəramətdə şərt deyildir.

Duların müstəcab olması aydın bir məsələdir.

**Sehr:** Elə xariqüladə işlərə deyilir ki, sehr olunan insanların idrak duyğularında təsir qoymaq vasitəsilə yaranır. Odur ki, sehr yalnız ruha aid olan bir işdir və obyektiv aləmdə heç bir təsiri yoxdur. Buna misal olaraq gözbağlayıcılığın müxtəlif növlərini, insanların ruhuna təsir göstərərək bir-birinə qarşı məhəbbət və ya nifrət yaratmaq, ərlə arvad arasında ayrılıq salmaq və s. göstərmək olar ki, bütün bunlar idrak hisslərində təsir göstərməklə baş verir. Buna görə də bütün növ kahinliklər, ruh çağırmaq və digər ruhi təsirlər sehrdən fərqli şeylərdir, lakin bütün bunlar xariqüladə işlər olmaq və batil işlərdə istifadə olunmaq cəhətindən birdir.

2. Möcüzə haqqındakı araşdırmaların çox qədim olmasına və nə zamandan başlaması barədə əlimizdə dəqiq məlumat olmamasına baxmayaraq, bu araşdırmaların başlanğıc nöqtəsinin aşağıdakı suallarndan yaranmasına şübhə yoxdur:

Təbiətin adi qanunlardan kənara çıxmaq mümkündürmü?

Maddi aləmdə müşahidə etdiyimiz səbəbiyyət qanununun pozulması mümkündürmü?

Təbiətdə baş verən hər bir hadisənin özünəməxsus səbəbi olduğu və həmin hadisənin baş verməsi üçün onun özündən öncə səbəblərinin yaranması lazım olduğu halda səbəblər reallaşmadan o hadisənin baş verməsi mümkündürmü?

Səbəbiyyət qanununda istisna ola bilərmi?

Göründüyü kimi bu əqli bir bəhsdir və yalnız əqli dəlillər yolu ilə sübut oluna bilər. Yəni ayə və hədislərdən istifadə edərək möcüzənin varlığını sübut etmək doğru deyildir. Çünki əgər hər hansı bir peyğəmbər (və ya məsum imam) möcüzənin varlığını aşkar şəkildə bildirirsə, onun sözünün doğruluğu sübut etmək üçün əvvəlcə peyğəmbərlərin məsum olmasını və peyğəmbərlərin məsum olmasını sübut etmək üçün isə əvvəlcə möcüzənin doğruluğunu sübut etmək lazımdır. Deməli

möcüzənin varlığını təqlid yolu ilə və dini bir doqma kimi qəbul etmək mümkün deyil.

3. Deyildiyi kimi möcüzənin varlığını ayə və hədis vasitəsilə deyil, yalnız əqli yolla sübut etmək mümkündür. Bu barədə gətirilə bilən əqli dəlillər iki cürdür:

1. Möcüzənin mümkünlüyünü sübut edən dəlillər;
2. Möcüzənin reallığını sübut edən dəlillər.

Başqa sözlə desək ya möcüzənin xüsusiyyətlərinə malik olan bir hadisə tapmalı və möcüzənin xüsusiyyətlərini ona tətbiq etməklə həmin hadisənin möcüzə olduğunu nəticə almalıyıq. Bu yol ən aydın yoldur, çünki bir şeyin reallığını sübut etməklə onun mümkünlüyünü də sübut etmiş oluruq. Qurani-kərim bu üslubdan istifadə etmişdir. Yaxud elə bir hadisə tapmalıyıq ki, xariqüladə olmaq və adi təbii qanunlardan kənara çıxmaq baxımından möcüzə ilə bir olsun və o zaman biz həmin hadisənin mümkün olmasından onun oxşarının, yəni möcüzənin də mümkün olmasını sübut edə bilərik. əl-Mizan təfsirinin 1-si cildində işarə olunduğu kimi Qurani-kərimin nəql etdiyinə əsasən keçmiş peyğəmbərlərin ümmətləri onlardan öz peyğəmbərliklərini sübut etmək üçün möcüzə istəyən zaman həqiqətdə bu yoldan istifadə etmişlər. Yəni elə bir xariqüladə iş istəmişlər ki, peyğəmbərlər o işi görməsi ilə öz iddialarının düzgünlüyünü sübut etsinlər. Başqa sözlə, vəhy və nübuvət xariqüladə bir məsələ olduğuna görə onu sübut etmək üçün xariqüladə bir iş istəyirdilər. Çünki vəhy və nübuvvətin doğruluğunu hissi və təcrübi yolla sübut etmək mümkün deyildir.

4. Möcüzənin varlığını inkar edənlərin yeganə dəlili budur ki, möcüzəni qəbul etmək səbəbiyyət qanununun ümumiliyidən kənara çıxmaqdır. Halbuki əql təbiətdə heç bir hadisənin təbii səbəblər olmadan baş verə bilməməsinə hökm edir. Hər yeni bir varlığın özünəməxsus səbəbləri vardır ki, həmin varlıq o səbəblərin nəticəsidir.

Lakin burada diqqət olunması lazım olan bir neçə məsələ vardır:

A) Səbəbiyyət qanununun ümumiliyi dedikdə nə nəzərdə tutulur? Görəsən əqlimiz “Hər bir hadisənin müəyyən bir səbəbi vardır”- deyərək hökm edərkən həmin səbəbin hökmən maddi olmasını lazım bilir, yoxsa bu səbəb qeyri-maddi də ola bilər?

B) Möcüzə səbəbiyyət qanunundan müstəsna və ondan kənara çıxmaqdırmı?

V) Bu iki məsələ barəsində Qurani-kərimin fikri necədir? Ümumi səbəbiyyət qanununu təsdiq edirmi və biz fitrətimizlə hər bir hadisənin hansısa səbəbdən yaranmasına hökm etdiyimiz kimi Quran da hökm edirmi?

5. Şübhəsiz ki, insan öz fitrətilə hər bir hadisənin müəyyən bir səbəbdən yaranmasına hökm edir və baş verən hər bir hadisə barəsində “Nə üçün baş verdi?” deməkdə, gördüyü və eşitdiyi hər bir şeyin səbəbini araşdırmaqda özünü haqlı bilir. Insanın öz məqsədlərinə çatmaq üçün göstərdiyi bütün səyləri, öz tələbatını ödəmək, həyati mübarizələrdə təbiətə qalib gəlmək yolundakı bütün ümidləri, bütün təlim-tərbiyə proqramları, bütün proqnozlar və elmi araşdırmalar ümumi səbəbiyyət qanununa əsaslanır.

İnsanın fitrəti heç vaxt hər hansı bir hadisənin baş verməsinə şərait yaradan proses həyata keçmədən həmin hadisənin reallaşa bilməsini mümkün bilmir. İnsanın ağlı heç vaxt aləmdəki hadisələr və əşyalar arasındakı əlaqələrin aradan gedə bilməsini qəbul etmir. Təkcə insanlar yox, hətta heyvanlar da doymaq üçün ota tərəf, susuzluğunu yatırmaq üçün suya tərəf hərəkət edərkən aləmin ayrı-ayrı komponentləri və hadisələri arasındakı əlaqə olduğunu və bu hadisələrin təsadüfi olmadığını nəzərə alaraq hərəkət edirlər.

Hər bir şeyin yaranmasından əvvəl onun səbəblərinin olması lazımdır ki, həmin səbəblərin bir-biri ilə müxtəlif şəkildə əlaqəyə girməsi ilə hər bir əlaqənin formasından asılı olaraq

müxtəlif növ hadisələr yaransın. Misal olaraq, öz aclığını aradan qaldırmaq istəyən şəxs yemək yeməlidir. Yəni toxluq insanın iradəsinə, yemək yeyən zaman bədən üzvlərinin hərəkətinə, çörəyə, zamana, məkana və s. bu kimi digər bir sıra hadisələrə və əşyalara bağlı olan bir nəticə kimi yaranır. Şübhəsiz ki, əgər bütün bu səbəblər olmasa nəticə də yaranmayacaq.

Heç vaxt dünyada zaman, məkan və aləmin digər komponentləri ilə bağlı olmayan bir hadisə təsəvvür etmək mümkün deyildir. İşlərini iradə ilə görən heç bir şüurlu varlıq hadisələr arasındakı səbəbiyyət əlaqəsini rədd edə bilməz. Hər birimiz fitri şəkildə bu əlaqəyə inanır, gündəlik işlərdə, elmi tədqiqatlarda ona uyğun əməl edir və hər bir məqsədə çatmaq üçün adətən onun reallaşmasında rolu olan səbəblərə əl atırıq. Lakin bununla belə bəzən adi hadisələr arasında bizim tanıdığımız təbii səbəblərlə izah oluna bilməyən nadir hadisələrə də rast gəlirik. Bildiyimiz kimi asketlər təbii vasitələrdən istifadə etmədən xəstələrə şəfa vermək, cisimləri bir yerdən başqa yerə hərəkət etdirmək kimi bir sıra qeyri-adi işlər görə bilirlər. Bu qeyri-adi hadisələr dünyadakı sonsuz adi hadisələrlə müqayisədə çox az olsa da, özü-özlüyündə çoxdur və bu barədə o qədər kitablar yazılmış, qəzet, jurnal və digər kütləvi informasiya vasitələrində avropalı, afrikalı və hindistanlı asketlərin xariqüladə işlərindən o qədər danışılmışdır ki, insanda bu işlərin gerçəkliyinə şəkk-şübhə qalmır. Şübhəsiz ki, bütün bu hadisələr asketlərin iradəsinin təsiri altında baş verdir, lakin eyni zamanda maddi aləm ilə də əlaqəlidir. Yəni əvvəla bu hadisələrin hər biri (məs. cisimləri bir yerdən başqa yerə hərəkət etdirmək) asketlərin iradəsi ilə baş verir, belə ki, iradə nə qədər güclü olarsa, onun təsiri və maneələr qarşısındakı müqaviməti daha çox olar. İkincisi, bu hadisələr müəyyən bir mühitdə meydana gəlir və zaman, məkan, üzərində hadisə baş verən cisim, işin icraçısı və tamaşaçılarla bağlılığı vardır ki, bu bağlılıq da səbəbiyyət

əlaqəsindən ibarətdir. Bu cür hallarda adi səbəblər fəaliyyət göstərmir, çünki adətən bir cismi hərəkət etdirən zaman onunla bədənimiz arasında rabitə yaratmalı, yaxud hər hansı bir heyvan, maşın və s. kimi digər əşyalardan istifadə etməliyik. Çünki cisimlərin bizim iradəmizlə və ürəyimiz istədiyi şəkildə hərəkət etməsi və ya bir formadan başqa formaya düşməsi heç vaxt görünməmişdir. Bu cür hadisələrin elmi fərziyyələrlə izah olunmadığını görən təbiət alimləri yeni bir fərziyyə irəli sürərək bu təsirlərin asketlərin çətin və ağır ruhi məşqləri sayəsində öz iradələrinə tabe etdikləri naməlum dalğalar vasitəsilə həyata kediyini söyləməyə məcbur olmuşlar. Bu fərziyyənin hələ ki, tam şəkilədə isbat olunmamasına baxmayaraq müəyyən qədər demək olar ki, onlar haqlıdırlar. Çünki adi səbəblərin rolu olmadığı və elmi fərziyyələrin izah edə bilmədiyi bu cür hallarda məsələni izah etmək üçün bu hadisələrin naməlum səbəblər tərəfindən yarandığını söyləməkdən başqa yol yoxdur. Çünki əvvəlcə dediyimiz kimi bütün bu xariqülADə hadisələrin maddi mühitlə əlaqəsi vardır və buna görə də onların maddi cəhətdən bütün ehtiyacları səbəblər vasitəsilə təmin olunmalıdır.

Nəticə olaraq deməliyik ki, maddi aləmdə hər bir maddi hadisənin özünün maddi səbəbləri vardır ki, həmin hadisənin reallaşması onlara bağlıdır və bizim bilib bilməməyimizdən asılı olmayaraq bu qanunun pozulması mümkün deyil. Lakin bu səbəblərin həmişə adi və məlum olması lazım deyildir. Çünki metafiziki səbəblərin təsirini inkar etməyə heç bir dəlil yoxdur. Bundan əlavə, bəzən həyatda elə hadisələrlə rastlaşırıq ki, onların yaranmasında adi təbii səbəblərin rolu olmur. Bütün bu deyilənlərdən aydın olur ki, asketlərin qəribə işləri, möcüzə, kəramət və sehr kimi xariqüladə işlərin baş verməsi mümkündür. İndi isə iki məsələni nəzərə almaq lazımdır:

1. Fəlsəfi kitablarda sübut etdiyimiz kimi maddi aləm başdan başa hərəkətdən ibarətdir. Məsələnin təsvirində və bu hərəkətin həqiqətində bizimlə materalistlər arasında fikir

ayrılığı olmasına baxmayaraq, demək olar ki, onlar da bu fikri təsdiqləyir və aləmin hərəkətdən ibarət olduğunu deyirlər. Şübhəsiz ki, hər bir hərəkətin isə səbəbi olmalıdır, çünki hərəkət işdir və icraçıya ehtiyacı vardır: icraçı təsir göstərərkən yaranır, əlini işdən çəkərkən isə hərəkət də yox olur. Deməli bu hesablama əsasında bu nəticəyə gəlirik ki, maddi və təbii səbəblərin fövqündə metafiziki səbəb də vardır. Aləmin heç bir zaman yox ola bilməməsini nəzərə aldıqda isə, deyə bilərik ki, o metafiziki səbəb ya özü vacib varlıq olmalı, ya da sonda vacib varlığa bağlanmalıdır. Nəticə etibarı ilə demək olar ki, maddi hadisələrin hökmən maddi səbəbləri vardır və bu maddi səbəblərin fövqündə varlıq aləminin başlanğıcı olan sabit və vacib bir varlıq vardır.

Lakin elmi araşdırmılar göstərir ki, maddi səbəblərlə vacib varlıq arasında bir sıra başqa səbəblər də vardır. Bu məsələnin fəlsəfi kitablarda çox çətin və dəqiq dəlillərlə sübut olunmasına baxmayaraq burada sadə şəkildə onu ifadə etmək olar:

Yuxarıda deyildiyi kimi bu cür hadisələrin iradə ilə sıx bağlılığı vardır və iradə bu hadisələrdə müəyyən təsirə malikdir. İradə özü isə şüur kateqoriyasından olan bir varlıqdır. Digər tərəfdən isə şüur və iradə zaman, məkan, bölünmək, işarə olunmaq və s. kimi maddənin ümumi xüsusiyyətlərinə malik olmadığı üçün heç bir vəchlə onları maddi varlıq hesab etmək olmaz. Nəticə etibarilə demək olar ki, bütün bu xariqüladə hadisələrin maddi səbəblərdən əlavə şüur və iradə adlı qeyri-maddi səbəbləri də vardır: lakin onlarla bir sırada yox, onların fövqündə. Bütün səbəblərin fövqündə isə uca Allahdır. Digər maddi hadisələrdə fövqəltəbii səbəblərin təsirinə gəldikdə isə məsələ aydındır. Vacib varlıqla maddi varlıqlar arasında yerləşən digər varlıqların maddi hadisələrdəki rolu barədə lazımi kitablara müraciət edə bilərsiniz.

Deməli bütün xariqüladə hadisələr şüur və iradə adlı metafiziki səbəblərdən qaynaqlanır. Təbii ki, iradə həm güclü, həm də zəif ola bilər. İradənin mənbəyi olan şüur və idrak nə

qədər güclü olarsa, iradə də bir o qədər güclü olar və maneələr qarşısında daha çox müqavimət göstərə bilər. Şübhəsiz ki, öz hədəfinə dərin inamı olan bir şəxsin iradəsi işləri əyləncə xarakteri daşıyan və hədəfinə inamı olmayan rəqibinin iradəsi ilə bir ola bilməz.

Buradan aydın olur ki, sehr, kahinlik, qəribə asketik hərəkətlər və s. kimi nəfsani məqsədlərlə və dünyəvi hədəflərə yetişmək üçün həyata keçirilən xariqüladə işlər heç zaman möcüzə, kəramət, müstəcab dualar kimi haqq yolunda olan və Allahın sonsuz qüdrətinə arxalanan işlər qədər güclü iradədən qaynaqlana bilməz. Deməli sehrin və kahinliyin əksinə olaraq möcüzə, kəramət, müstəcab dualar məğlubedilməz bir səbəbə arxalanır. Sehr və kahinlik isə şərlə və maddi səbəblərlə bağlıdır və maddi səbəblər nə qədər güclü olsa da, onlardan daha güclü və üstün səbəblər mövcud olduğu üçün məğlub ediləndir.

Ümumi səbəbiyyət qanununu inkar etmədən və ya onu istisna etmədən möcüzə haqqında bunları demək olar. Çünki insanın bütün həyatına hakim olan və hətta dini təlimlərin özündə belə istifadə olunan bu qanunu heç zaman puç saymaq və onu qeyri-real bir fərziyyəyə qurban vermək olmaz.

## *İrad və cavab*

Möcüzəni inkar edənlər istehza ilə bizə deyirlər: “Görəsən bizim əsrimizin çatışmazlığı nədir ki, artıq bu cür “bərəkətli” hadisələr baş vermir. Bu zamanın insanları nə günah etmişlər ki, artıq qeybi qüvvələr çalışmır ki, bütün bu sonsuz zehni istedadlar və heyrətləndirici elmi tərəqqi ilə əsanı əjdahaya çevirsin, yaxud qayanın içərisindən dəvə çıxarsın, bununla da dinin əleyhinə olan təmayüllərə son qoysun. Odur ki, dindarlar bu elm əsrində öz əqidələrini sübut etmək üçün keçmiş əsrlərin əfsanələrinə istinad edərək elmi yolla sübut olunası mümkün

olmayan dörd-beş min il bundan öncəki Nəmrudun atəşindən və Musanın əjdahasından söz açırlar.”

Onlara, milyon illərlə gedən təkamül nəticəsində insanın yaranması, yaxud yer kürəsinin birinci və ikinci dövrləri haqqındakı kimi bu günkü elmi fərziyyələrdə daha uzaq tarixə istinad edildiyini dedikdə “Bizdə bu barədə elmi faktlar vardır”- deyirlər. Əslində bu alimlər həqiqəti qəbul etmək istəmirlər. Halbuki onlar bilməlidirlər ki, bizim də möcüzəyə əbədi və bariz nümunə olan Quranımız vardır və bu kitab 14 əsrdir ki, aydın şəkildə bütün insanları mübarizəyə çağırırdığı halda indiyədək heç kəs onunla mübarizə apara bilməmiş, bundan sonra da apara bilməyəcəkdir. Bundan əlavə, İslam peyğəmbəri tərəfindən qoyulmuş və hər bir imanlı müsəlman üçün mümkün ola bilən “mübahilə” adlı başqa bir xariqüladə iş də vardır ki, İslam dininin rəhbəri olan həzrət Məhəmmədin (S) əbədi möcüzəsi və onun ümmətinin kəramətidir. Mübahilə odur ki, hər bir imanlı müsəlman Peyğəmbəri örnək götürərək Islam dininin təlimlərinin haqq olduğunu sübut etmək üçün düşmənlə mübarizəyə girişib Qadir Allahdan onun məhv olmasını istəyə bilər. Bu alimlər istədikləri zaman imanlı bir müsəlmanla mübahilə edib bu pak dinin və onun təlimlərinin haqq olduğunu, eləcə də möcüzənin həqiqətini öz gözləri ilə görə bilərlər. (Bu meydan, bu şeytan)

## *İrad və cavab*

Onlar deyirlər: “Əgər möcüzə heç bir səbəb olmadan və səbəbiyyət qanunundan müstəsna şəkildə baş verirsə, belə bir şey mümkün deyil. Əgər digər adi hadisələr kimi səbəblər vasitələ həyata keçirsə, bu halda artıq onun təbii səbəblərindən xəbərdar olan şəxs üçün yox, bu səbəblər barəsində məlumatı olmayan şəxs üçün möcüzə sayıla bilər. Deməli əgər bir gün bütün təbii səbəbləri elmi yolla kəşf edə bilsək, artıq möcüzə deyilən şey qalmayacaq. Nəticə etibarı ilə demək olar ki,

möcüzə həqiqi yox, nisbi bir dəlildir. Bu iradın cavabında demək lazımdır ki, öncə qeyd olunduğu kimi ümumi səbəbiyyət qanunu istisnasız bir qanundur və möcüzənin də hətta bizim üçün məchul olsa belə başqa hadisələr kimi təbii səbəbləri vardır. Şübhəsiz ki, insanların bütün səbəbləri heç zaman kəşf edə bilməyəcəyini qəti şəkildə iddia etmək çətindir. Lakin diqqət etmək lazımdır ki, möcüzə təkcə bu deyil ki, qeyri-adi maddi səbəblərdən yaransın, əksinə möcüzənin əsl həqiqəti onun məğlubedilməz bir qüdrətə söykənməsidir. Odur ki, möcüzənin məchul səbəbini tanımağın insana heç bir xeyri yoxdur, çünki sonsuz bir qüdrətdən qaynaqlanan belə bir hadisəni yaratmaq heç zaman ona müyəssər olmayacaq.

Buradan aydın olur ki, bəzi alimlərin bu iradın cavabında dedikləri: “Hər əsrin möcüzəsi sonrakı əsrlərdə başqaları üçün də mümkün ola bilər. Lakin öz baş verdiyi əsrdə peyğəmbərlərdən başqaları üçün həmin işi görməyin qeyri-mümkün olması onun möcüzə olması üçün kifayətdir” sözü doğru deyildir. Çünki qeyd olunduğu kimi möcüzənin əsasını təşkil edən onun sonsuz və məğlubedilməz bir qüvvə ilə əlaqədə olub haqqı sübut etmək üçün insanları mübarizəyə çağırmasıdır. Bu isə həmişə peyğəmbərlərdən başqaları üçün qeyri-mümkündür.

## Başqa bir irad və cavab

Bəziləri demişlər: “Peyğəmbərlərin möcüzə gətirməsi ilə onların tövhid, məad və s. kimi iddiaları arasında heç bir məntiqi əlaqə olmadığı üçün möcüzə savadlı insanlar üçün yox, adi savasız insanlar üçün dəlil sayıla bilər. Avam insanlar sadəlövh və qəlbi təmiz olduqları xariqüladə bir işi görən kimi tez peyğəmbərlik iddiasının doğruluğuna inanırlar. Halbuki xariqüladə bir işlə peyğəmbərlərin dəvətinin məzmununun doğruluğu arasında heç bir məntiqi əlaqə yoxdur. Savadlı insanlar isə bu cür şeylərə etina etməyir və qəti dəlillər yolu ilə

peyğəmbərlərin dəvətinin məzmununun doğruluğunu isbat edərək onu qəbul edirlər.”

Bu iradı söyləyənlər həqiqətdə bu məsələyə diqqət etməmişlər ki, əslində möcüzənin bir sıra ağılla uyğun olan aydın təlimlərdən ibarət olan ilahi dinlər və şəriətlərlə heç bir əlaqəsi yoxdur. Heç vaxt heç bir peyğəmbər tövhid, nübuvvət, məad və s. kimi məsələləri sübut etmək üçün möcüzəyə əl atmamış, peyğəmbərlərin ümmətlərindən də heç kəs onlardan dəvətlərinin məzmununun doğruluğunu qəbul etmək üçün möcüzə tələb etməmişdir. Belə fikirləşən bir şəxs nadandır və ona cavab vermək də düzgün deyildir. Möcüzə ola-ola möcüzə istəmək də mənasız işdir, necə ki, bəziləri Quran ola-ola Islam peyğəmbərindən başqa bir möcüzə istəyirdilər.

Bu məsələ Quranın sözlərindən aydın olur. Qurani-kərim İslam təlimlərinin əsasını və öz haqq dəvətinin digər məsələlərini qəti dəlillərlə, bəzən isə yerindən asılı olaraq öyüd-nəsihət şəklində, yaxud polemik kəlamlalarla ifadə etmiş, əvvəlki peyğəmbərlərin də həmin üslubdan istifadə etdiklərini bildirmişdir.

Əslində bu iradı irəli sürənlərin dediyi kimi möcüzə ilə tövhid, məad və s. kimi dini təlimlərinin haqq olması arasında heç bir məntiqi əlaqə yoxdur, lakin onlar bilməlidirlər ki, biz burada məntiqi əlaqədən danışarkən möcüzə ilə tövhid, məad və s. kimi dini təlimlərinin haqq olması arasındakı əlaqədən yox, möcüzə ilə peyğəmbərlik iddiasının doğruluğu arasındakı məntiqi əlaqədən danışırıq.

Məsələnin izahı: Peyğəmbərlik iddiası edən şəxs həqiqətdə qeyb aləmi və ilahi qüvvə ilə əlaqədə olduğunu, eləcə də Allahla söhbət və vəhy vasitəsilə insanlar üçün bir sıra göstərişlər gətirdiyini iddia edir. Peyğəmbərlik iddiası edən şəxs həqiqətdə xariqüladə bir iş iddia edir. Çünki başqaları da peyğəmbərlik iddiası edən şəxslər kimi mahiyyətcə insan olsalar da, vəhy adlı belə bir idrakdan xəbərsizdirlər. Digər tərəfdən isə bu, elə bir iddia deyildir ki, hiss yolu ilə dərk

olunsun və hər bir kəs onu görərək peyğəmbərlik iddia edənlərin sözünü təsdiqləyə bilsin.

Aydındır ki, peyğəmbərlik iddia edən şəxs iki yoldan biri ilə bu problemi həll etməlidirlər: ya özünün görüb öyrəndiklərini başqalarına da göstərməlidir ki, insanlar onun sözünün haqq olmasına əmin olsunlar. Yaxud da başqa bir xariqüladə iş görməlidir ki, onun bizim bu aləmə tam hökmranlıq edən qeyb aləmi ilə əlaqəli olduğu aydınlaşsın.

Əslində hər iki yol xariqüladədir və adi maddi səbəblər bu işi görməyə acizdir. Həmçinin məlum olduğu kimi hər iki yol bu möhkəm əqli əsasa söykənir: ***hər bir xüsusi hadisə müşahidə ilə sübut olunur. Mənəvi və mücərrəd hadisələr isə müşahidə oluna bilmədiyi üçün onlara oxşayan başqa şeyləri müşahidə etmək lazımdır ki, analogiya və oxşarlıq əsasında iddia olunan məsələnin də mümkünlüyünə, yaxud reallığına hökm olunsun.***

Bu məsələ peyğəmbərlərin təbliğləri barəsində Quranın nəql etdiyi əhvalatlardan aydın olur. Belə ki, peyğəmbərlərin ümmətləri onlardan tələb edirdilər ki, Allahla danışığı, ya Allahın özünü, yaxud da vəhy gətirən mələyi onlara göstərsinlər. Bəzən isə öz iddialarının düzlüyünü sübut etmək üçün möcüzə gətirməyi tələb edirdilər. Aşağıdakı ayələri birinci dəstədən hesab etmək olar:

وَقَالُواْ يَا أَيُّهَا الَّذِي نُزِّلَ عَلَيْهِ الذِّكْرُ إِنَّكَ لَمَجْنُونٌ(6) لَوْ مَا تَأْتِينَا بِالْمَلائِكَةِ إِن كُنتَ مِنَ الصَّادِقِينَ(7) مَا نُنَزِّلُ الْمَلائِكَةَ إِلاَّ بِالحَقِّ وَمَا كَانُواْ إِذًا مُّنظَرِينَ(8)

***6. (Müşriklər Peyğəmbərə) belə dedilər: "Ey Kitab nazil edilən kəs! Axı sən divanəsən!***

***7. Əgər sən doğru danışanlardansansa, mələkləri bizə gətirsənə!"***

***8. "Biz mələkləri yalnız haqq olaraq endiririk. O zaman kafirlərə heç bir möhlət verilməz![19]***

قَالَ الَّذِينَ لَا يَرْجُونَ لِقَاءَنَا لَوْلَا أُنزِلَ عَلَيْنَا الْمَلَائِكَةُ أَوْ نَرَى رَبَّنَا لَقَدِ اسْتَكْبَرُوا فِي أَنفُسِهِمْ وَعَتَوْ عُتُوًّا كَبِيرًا يَوْمَ يَرَوْنَ الْمَلَائِكَةَ لَا بُشْرَى يَوْمَئِذٍ لِّلْمُجْرِمِينَ

***21. Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər (qiyamət günü dirilib hüzurumuzda duracaqlarında qorxmayanlar): "Bizə (Muhəmmədin həqiqi peyğəmbər olduğunu təsdiq edən) mələklər endirilməli, yaxud biz (onun doğru danışıb-danışmadığını bilmək üçün) Rəbbimizi görməli idik!" - dedilər. Həqiqətən, onlar özləri barəsində təkəbbürə qapıldılar və (Allahı bilavasitə görmək, onunla danışmaq istəməyə cür'ət etməklə) azğınlaşıb həddi çox aşdılar. 22. Mələkləri görəcəkləri gün - həmin gün günahkarlara cənnətlə heç bir müjdə olmaz. Mələklər onlara: "Sizə şad xəbər eşitmək haramdır!" - deyərlər[20].***

قَالَ الَّذِينَ لاَ يَعْلَمُونَ لَوْلاَ يُكَلِّمُنَا الله

***118. Cahillər dedilər: "Nə olaydı ki, Allah bizimlə də danışaydı, bizə də bir ayə gələydi!"[21]***

İkinci dəstəyə misal olaraq aşağıdakı ayələri göstərmək olar:

أَلَمْ يَأْتِكُمْ نَبَأُ الَّذِينَ مِن قَبْلِكُمْ قَوْمِ نُوحٍ وَعَادٍ وَثَمُودَ وَالَّذِينَ مِن بَعْدِهِمْ لاَ يَعْلَمُهُمْ إِلاَّ الله جَاءَتْهُمْ رُسُلُهُم بِالْبَيِّنَاتِ فَرَدُّواْ أَيْدِيَهُمْ فِي أَفْوَاهِهِمْ وَقَالُواْ إِنَّا كَفَرْنَا بِمَا أُرْسِلْتُم بِهِ وَإِنَّا لَفِي شَكٍّ مِّمَّا تَدْعُونَنَا إِلَيْهِ مُرِيبٍ (9)قَالَتْ رُسُلُهُمْ أَفِي اللّهِ شَكٌّ فَاطِرِ السَّمَاوَاتِ وَالأَرْضِ يَدْعُوكُمْ لِيَغْفِرَ لَكُم مِّن ذُنُوبِكُمْ وَيُؤَخِّرَكُمْ إِلَى أَجَلٍ مُّسَمًّى قَالُواْ إِنْ أَنتُمْ إِلاَّ بَشَرٌ مِّثْلُنَا تُرِيدُونَ أَن تَصُدُّونَا عَمَّا كَانَ يَعْبُدُ آبَآؤُنَا فَأْتُونَا بِسُلْطَانٍ مُّبِينٍ(10) قَالَتْ

---

[19] Hicr 6-8
[20] Furqan 21-22
[21] Bəqərə 118

لَهُمْ رُسُلُهُمْ إِن نَّحْنُ إِلاَّ بَشَرٌ مِّثْلُكُمْ وَلَكِنَّ اللّهَ يَمُنُّ عَلَى مَن يَشَاءُ مِنْ عِبَادِهِ وَمَا كَانَ لَنَا أَن نَّأْتِيَكُم بِسُلْطَانٍ إِلاَّ بِإِذْنِ اللّهِ وَعلَى اللّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ (11)

***9. Məgər sizdən əvvəlki Nuh, Ad, Səmud tayfalarının və onlardan sonra gəlib getmiş, ancaq Allahın bildiyi ümmətlərin xəbərləri sizə gəlib çatmadımı? Peyğəmbərləri onlara açıq-aşkar mö'cüzələrlə gəlmişdilər. Onlar əllərini ağızlarına qoyub: "Biz sizinlə göndərilənlərə inanmırıq və bizi də'vət etdiyiniz din barəsində də möhkəm bir şəkk-şübhə içindəyik!" - demişdilər. 10. Peyğəmbərləri də (onlara) belə cavab vermişdilər: "Məgər göyləri və yeri yaradan Allaha da şübhə etmək olarmı?! Allah günahlarınızı bağışlamaq və sizə müəyyən bir vaxta qədər möhlət vermək üçün imana də'vət edir". Onlar demişdilər: "Siz də bizim kimi adi bir insansınız. Bizi atalarımızın ibadət etdiklərindən döndərmək istəyirsiniz. Əgər bacarırsınızsa, açıq-aşkar bir dəlil gətirin!" 11. Peyğəmbərləri onlara cavab verərək demişdilər: "Biz də sizin kimi adi bir insanıq. Lakin Allah Öz bəndələrindən dilədiyinə ne'mət bəxş edər. Allahın izni olmadan biz sizə heç bir mö'cüzə gətirə bilmərik. Mö'minlər yalnız Allaha təvəkkül etsinlər!***[22]

Kafirlərin mənasız sözlərlə möcüzə tələb etmələri və onların istəklərinin rədd olunmaları ilə bağlı ayələrə misal olaraq bu ayələri göstərmək olar:

وَقَالُوا لَوْلَا أُنزِلَ عَلَيْهِ آيَاتٌ مِّن رَّبِّهِ قُلْ إِنَّمَا الْآيَاتُ عِندَ اللهِ وَإِنَّمَا أَنَا نَذِيرٌ مُّبِينٌ(50) أَوَلَمْ يَكْفِهِمْ أَنَّا أَنزَلْنَا عَلَيْكَ الْكِتَابَ يُتْلَى عَلَيْهِمْ(51)

***50. Müşriklər: "Bəs nə üçün Rəbbindən ona mö'cüzə nazil olmadı?" - dedilər. Ya Rəsulum! De: "Mö'cüzələr ancaq Allahın əlindədir. Mən isə sadəcə olaraq insanları Allahın əzabı ilə açıq-aşkar şəkildə qorxudan bir peyğəmbərəm!"***

---

[22] İbrahim 9-11

***51. Məgər oxunmaqda olan Kitabı sənə nazil etməyimiz onlara kifayət etmədimi.***[23]

وَإِذَا تُتْلَى عَلَيْهِمْ آيَاتُنَا بَيِّنَاتٍ قَالَ الَّذِينَ لاَ يَرْجُونَ لِقَاءنَا ائْتِ بِقُرْآنٍ غَيْرِ هَذَا أَوْ بَدِّلْهُ(15)

***15. (Müşriklərə) ayələrimiz açıq-aydın oxunduğu zaman (qiyamət günü haqq-hesab üçün) Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər: "Bundan ayrı bir Quran gətir və ya onu dəyişdir!" - deyərlər***[24]***.***

يَسْأَلُكَ أَهْلُ الْكِتَابِ أَن تُنَزِّلَ عَلَيْهِمْ كِتَابًا مِّنَ السَّمَاء فَقَدْ سَأَلُواْ مُوسَى أَكْبَرَ مِن ذَلِكَ فَقَالُواْ أَرِنَا اللّهِ جَهْرَةً(153)

***153 (Ya Rəsulum!) Kitab əhli (yəhudilər) sənin onlara göydən (birdəfəlik) bir kitab endirməyini istəyirlər. Halbuki onlar vaxtilə Musadan bundan daha böyüyünü istəmiş və: "Bizə Allahı aşkar göstər!" - demişdilər.***[25]

Bütün bu deyilənlərdən aydın olur ki, peyğəmbərlik iddia edən şəxsin öz sözünün doğruluğunu sübut etmək üçün möcüzədən başqa yolu yoxdur. Həmçinin aydın olur ki, savadsız insanlar möcüzədən istifadə edə bildiyi kimi ziyalı təbəqə də bu yoldan istifadə edə bilər. Əgər möcüzə yalnız sadəlövh insanlar üçün dəlil sayılsaydı, həqiqətdə puç və mənasız bir dəlil olardı və bu surətdə hikmətli Allah insanların möcüzə tələblərinə cavab verməzdi.

6. Keçən bəhslərdən möcüzənin əsasını təşkil üç prinsip sübuta yetirildi:

---

[23] Ənkəbut 50-51

[24] Yunus 15

[25] Nisa 153

1) Adi və ya qeyri-adi olmasından asılı olmayaraq dünyada baş verən bütün hadisələrə istisnasız olaraq ümumi səbəbiyyət qanunu hakimdir.

2) Xariqüladə işlərin bir növü olan möcüzədə peyğəmbərlərin iradələrinin təsiri vardır.

3) Möcüzə gətirənin iradəsi Allahın məğlubedilməz iradəsinə söykənir.

Indi isə görək Quranın möcüzə barəsində fikri nədir. Görəsən bu üç prinsipi Quran da təsdiq edir ya yox.

A) Ümumi səbəbiyyət qanununa gəldikdə, Quran ayələrinə diqqətlə nəzər salarkən qəti şəkildə aydın olur ki, Quran səbəbiyyət qanununu istinasız bir qanun olaraq qəbul edir. Çünki Quran bulud, külək, yağış, yerin yaşıllaşması, heyvanların onlardan qidalanması, heyvanların artımı, canlıların iş, fəaliyyət, hərəkət və sükunəti kimi adi hadisələr barəsində, yaxud təlim-tərbiyə haqqında danışarkən, həmçinin yəqin, qorxu, ümid, xəbərdarlıq, təşviqə aid sözlər işlədərkən, eləcə də məntiqi dəlillərdən istifadə edərkən səbəbiyyət qanununu qəbul edən bir şəxs kimi çıxış edir.

B) Xariqüladə işlərdən danışaraq peyğəmbərlərin möcüzələrindən, eləcə də duanın müstəcab olması, sehrin və gözdəymənin[26] təsiri barədə söz açır.

Bütün bunlardan sonra isə ümumi şəkildə bildirir ki, Allah hər şey üçün bir ölçü və miqdar təyin etmişdir. Aydındır ki, hər bir hadisənin ölçüsü onun səbəblər və şərait vasitəsilə müəyyənləşən vücudi miqdarıdır. Necə ki, insan görmə, eşitmə, hərəkət, iş, çalışma, qidalanma, həzm və s. kimi işlərində bir sıra hüdud və miqdarlarla məhdudlanmışdır və onlardan kənara çıxa bilmir. Məsələn, əşyaları yalnız gözü ilə, o da işığın olması, cismin müəyyən bir məsafədə yerləşməsi və s. kimi xüsusi bir münasib şəraitdə görə bilir. Eləcə də qidalanma prosesi qidanın və sağlam qida mexanizminin

---

[26] Qələm 51

olması və s. kimi münasib şəraitdə baş verir. Bütün bu şərait insanın işinin səbəbləridir və qəlib öz içərisinə salınan cismə xüsusi forma verdiyi kimi bu şərait də həmin işə xüsusi bir hədd və ölçü verir.

Bizim aləmdəki bütün varlıqlara bu qanun hakimdir, odur ki, hər bir varlıq öz fiziki fəaliyyətində xüsusi bir ölçü ilə məhdudlanmışdır, onun məhdudlanması isə daxili və xarici məhdudiyyətlər nəticəsində, başqa sözlə onun təsirlərinin yaranmasında rolu olan səbəblər nəticəsində əmələ gəlir. Varlıqların miqdarı və ölçüsü haqqındakı bütün ayələr bu həqiqəti aydın şəkildə sübut edir. Bu ayələrdən biri "Hicr" surəsinin 21-ci ayəsidir:

***"Elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Lakin Biz ondan ancaq müəyyən miqdarda endiririk."***[27]

Həmçinin buyurur:

***"Elə bir canlı yoxdur ki, onun ixtiyarı Allahın əlində olmasın. Çünki Rəbbimin işləri yeknəsəqdir."***[28]

Ayə bildirir ki, səbəbin təsiri olan miqdar adi və ya qeyri-adi olmasından asılı olmayaraq bütün hadisələrə yeknəsəq şəkildə hakimdir.

Bu ayə başqa yolla da bizim fikrimizi ifadə edə bilər. Çünki Quran başqa bir yerdə buyurur: "Hər bir şeyi yaradan, Allahdır." Yuxarıdakı ayəyə əsasən isə Allahın bütün işləri yeknəsəqdir. Deməli maddi aləmdə baş verən hadisələrdən bəzilərin səbəblər vasitəsi ilə, bəzilərin isə heç bir vasitəçi səbəb olmadan birbaşa Allahdan vücuda gəlməsi mümkün deyildir.

Peyğəmbərlərin iradəsənin möcüzədə təsirinə gəldikdə isə, uca Allah başqa bir yerdə buyurur: "Heç bir peyğəmbər Allahın izni olmadan möcüzə gətirə bilməz." Peyğəmbərlərin iradəsənin möcüzədə təsiri ayədən aşkar şəkildə məlum olur.

---

[27] Hicr 21

[28] Hud 56

Çünki ayə bildirir ki, möcüzənin gətirilməsi Allahın izninə bağlıdır. Izn isə o yerdədir ki, işin görülməsi üçün şərait hazırdır və sadəcə olaraq bütün şəraitin tamamlanması üçün sonda icazəyə ehtiyac vardır. Əgər peyğəmbərlərin iradələrinin möcüzənin baş verməsində təsiri olmasaydı, Allahın onlara icazə verməsi də mənasız olardı.

V) Möcüzə gətirən şəxslərin iradələrinin uca Allahın məğlubedilməz iradəsinə arxalandığına gəldikdə isə, möcüzə haqqında keçən ayə və eləcə də başqa bir çox ayələr bütün hadisələrin və varlıqların yaranmasında hər bir şeyin ixtiyarını bütün cəhətlərdən Allahın əlində bilir və onun tam mülkü adlandırır. Lakin eyni zamanda möcüzənin məğlubedilməzliyini bildirən bir çox ayələr də vardır. Onlardan bir neçəsinə burada işarə edirik:

كَتَبَ اللَّهُ لَأَغْلِبَنَّ أَنَا وَرُسُلِي

***Allah (lövhi-məhfuzda): "And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik!" - deyə yazmışdır.*** [29]

وَلَقَدْ سَبَقَتْ كَلِمَتُنَا لِعِبَادِنَا الْمُرْسَلِينَ(171) إِنَّهُمْ لَهُمُ الْمَنصُورُونَ(172) وَإِنَّ جُندَنَا لَهُمُ الْغَالِبُونَ (173)

***"171-173. And olsun ki, peyğəmbər bəndələrimiz haqqında əvvəlcədən bu sözü demişdik: "Onlar mütləq qalib gələcəklər. Bizim əsgərlərimiz labüd olaraq zəfər çalacaqlar!"*** [30]

إِنَّا لَنَنصُرُ رُسُلَنَا وَالَّذِينَ آمَنُوا فِي الْحَيَاةِ الدُّنْيَا وَيَوْمَ يَقُومُ الْأَشْهَادُ (51)

***"51. Şübhəsiz ki, Biz öz peyğəmbərlərimizə və iman gətirənlərə həm dünyada, həm də şahidlərin şəhadət verəcəyi qiyamət günündə yardım edəcəyik!"*** [31]

ادْعُونِي أَسْتَجِبْ لَكُمْ

[29] Mücadilə 21

[30] Saffat 171-173

[31] Mumin 51

***“Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim!”*[32]**

Möcüzənin sehri məğlub etməsi barədə buyurur:

مَا جِئْتُم بِهِ السِّحْرُ إِنَّ اللّهَ سَيُبْطِلُهُ

***“Sizin etdiyiniz şey sehrdir. Allah, sözsüz ki, onu batil edəcəkdir.”*[33]**

Bütün bu deyilənlərdən aydın olur ki, möcüzə haqqında Quranın nəzəri əqlin nəzəri ilə üst-üstə düşür. Daha yaxşısını bilən Allahdır.

## IV fəsil

## *Möcüzə*

Quran bir çox yerlərdə özünün möcüzə olduğunu iddia etmişdir. Bu iddianı təhlil edərkən isə onun iki iddiadan təşkil olunduğunu görürük:

1) Ümumiyyətlə aləmdə möcüzə və xariqüadə işlər vardır.

2) Quran özü də möcüzənin nümunələrindən biridir.

Aydındır ki, əgər ikinci iddia sübut olunarsa, birinci iddia da öz-özünə sübut olunmuş olar.

Burada müzakirə obyekti olan əsas məsələ budur ki, ümumiyyətlə aləmdə möcüzənin baş verməsi mümkündürmü? Halbuki möcüzə təbiətə hakim olan qanunlarla uyğun gəlmir. Təbiətdəki dəyişməz qanunlara əsasən hər nəticənin bir səbəbi olmalıdır. Bu, heç zaman pozulması mümkün olmayan bir qanundur. Səbəbiyyət qanununun ümumiliyinə xələl gəlmədən və onda heç bir istisna olmadan möcüzənin baş verməsi necə ola bilər. Odur ki, Quran iki məsələni aydınlaşdırmalıdır:

1) Möcüzənin mahiyyəti nədən ibarətdir və təbiətdə onun ümumi qanunlarını pozan xariqüladə bir işin baş verməsi mümkündürmü?

---

[32] Mumin 60

[33] Yunus 81

2) Möcüzə real bir həqiqətdir və Quran özü də möcüzədir.

## *Quran prizmasından möcüzə*

Quranın, təbiət aləmində baş verən möcüzələri təsdiq etməsinə heç bir şübhə yoxdur. Quranın möcüzə adlandırdığı xariqüladə işlər qeyri-mümkün olan işlər deyildir ki, onların baş verməsini qəbul etmək məntiq və ağılla uyğun olmasın.

Özünü alim adlandıran bir çoxları möcüzə ilə bağlı ayələri elə təfsir etməyə çalışırlar ki, bu günkü elmlərlə uyğun gəlsin. Lakin bütün bu zəhmətlər əbəs yerədir və bu fikir qətiyyən düzgün deyildir. Biz burada Quranın möcüzə barəsindəki nəzərini iki fəsildə qeyd edəcəyik.

**1) Quran ümumi səbəbiyyət qanununu təsdiq edir.**

Əqli və elmi dəlillər hər bir təbii hadisənin səbəbinin olduğunu sübut etdiyi kimi Quran da ümumi səbəbiyyət qanununu təsdiq edir və hər bir təbii hadisənin səbəbinin olduğunu qəbul edir.

Məsələnin izahı: insan fitrətən inanır ki, hər bir maddi hadisənin bir səbəbi vardır. Təbii elmlər və digər elmi araşdırmalar da bir-biri ilə bağlı hadisələrin və işlərin onlarla uyğunluğu olan səbəbini axtarır.

Səbəb nə deməkdir? Səbəb dedikdə bu nəzərdə tutulur ki, hər hansı bir yerdə bir hadisə baş verərkən ondan öncə bir və ya bir neçə şeyin var olması lazımdır. Bundan əlavə, həmin şeylər elə vəziyyətdə olmalıdır ki, nəticə adlanan başqa bir şeyin onlardan yaranması qaçınılmaz olsun. Bu məsələ təcrübə yolu ilə əldə olunur. Məsələn, təcrübə göstərir ki, yanğın baş verməzdən əvvəl atəş, cisimlərin bir-biri ilə toqquşması və s. kimi şeylər olmalıdır ki, yanğına səbəb olsun. "Səbəb" sözünün mənasına diqqət edərkən aydın olur ki, səbəb və nəticəyə aid qəti məsələlərdən biri də ümumilik və qaçınılmazlıqdır.

Quranın həyat, ölüm, ruzi və s. kimi istər yer hadisələri, istərsə də göy hadisələri haqqındakı sözlərindən aydın surətdə başa düşülür ki, Quran da bu qanunu təsdiq edir. Şübhəsiz, bir şeyi unutmaq olmaz ki, Quran sonda hər bir şeyin səbəbini Allahla bağlayır. Çünki sonda bütün səbəblər ilk səbəb olan Allaha bağlanır.

Sözün qısası, Quran ümumi səbəbiyyət qanununun düzgünlüyünü təsdiq edir: bu mənada ki, hər hansı səbəb bütün şəraiti ilə birlikdə var olarsa, nəticə də yaranmalıdır. Şübhəsiz, Allahın icazəsi ilə. Həmçinin, hər hansı bir nəticənin varlığı bizə məlum olarsa, onun səbəbinin varlığını da qəti surətdə kəşf etmiş olarıq.

**2) Quran xariqüladə hadisələrin varlığını isbat edir.**

Quran bir sıra elə hadisələrdən xəbər verir ki, səbəb-nəticə sistemi əsasında baş verən adi təbiət hadisələri ilə uyğun gəlmir. Bunlar Quranın Nuh, Hud, Saleh, Ibrahim, Lut, Davud, Süleyman, Musa, Isa və Məhəmməd (ə) kimi böyük peyğəmbərlərə nisbət verdiyi möcüzələrdir.

Bu möcüzələr təbiət aləminin sürəkli adətini parçalayıb ondan kənara çıxmışdır. Lakin bir məsələyə diqqət etmək lazımdır ki, bütün bu işlər təbiətə hökm sürən adət baxımından inanılmaz nəzərə çarpsa da, özü-özlüyündə qeyri-mümkün olan və əqlin qəti şəkildə rədd etdiyi işlər deyildir. Məsələn əql qəti şəkildə hökm edir ki, eyni bir hökmün həm təsdiqi, həm də inkarı (varlıq və yoxluq kimi) mümkün deyildir. Həmçinin əql bir şeyin özünü özündən inkar etməyin (insan insan deyildir cümləsi kimi), eləcə də bir ədədinin ikinin yarısı olmamasının qeyri-mümkünlüyünə qəti şəkildə hökm edir. Bütün bunlar əqlin qeyri-mümkün bildiyi işlərdir. Əgər möcüzə də qeyri-mümkün olsaydı heç kəsin ağlı onu qəbul etməzdi. Halbuki dinə etiqad bəsləyən milyonlarla insan bu möcüzələri tam şəkildə qəbul edir.

**Əlavə.** Yaxşı diqqət etmək lazımdır ki, aləmə hakim olan adətə görə möcüzələrin mənşəyi qeyri-məntiqi görünmür. Çünki maddi aləm hər an dirini ölüyə, ölünü isə diriyə çevirir, hadisələri bir-biri ilə əvəz edir, formaları dəyişdirir. Bütün bu dəyişikliklər maddi aləmin qanunları əsasında həyata keçirilir. Gündəlik baş verən adi hadisələrlə möcüzənin fərqi təkcə bundadır ki, müşahidə olunan adi səbəblər yalnız xüsusi bir əlaqələrlə və müəyyən bir zaman-məkan şəraitində öz təsirini göstərir. Bu şərait və əlaqələr təsirlərin tədrici şəkildə həyata keçməsini tələb edir. Məsələn, əsanın əjdaha olması, yaxud ölü bir cəsədin diri insana çevrilməsi mümkündür. Lakin müşahidə və təcrübələr göstərir ki, bu dəyişikliklər adətən xüsusi səbəblər vasitəsilə və müəyyən bir zaman-məkan şəraitində həyata keçir. Həmin şərait və səbəblər nəticəsində maddə bir haldan başqa hala, bir formadan başqa formaya keçirək nəhayət bizim fərz etdiyimiz son formaya gəlib çıxır (məsələn, əsa əjdahaya, cansız cəsəd diri insana çevrilir). Odur ki, müşahidə etdiyimiz adi maddi sistem nəticənin xüsusi bir əlaqələrlə və müəyyən bir şəraitdə tədrici şəkildə yaranması əsasında qurulmuşdur.

Quranın nəql etdiyi möcüzələr isə xüsusi bir əlaqələrlə və müəyyən bir zaman-məkan şəraitində olmamış, əksinə, yaranan hər bir şəraitdə, ya hətta səbəbsiz, yaxud yalnız iradə edənin iradəsi ilə baş vermişdir.

Diqqət etmək lazımdır ki, təkcə adi müşahidə və təcrübələr deyil, hətta təbiət haqqındakı elmlər də öz nəzərləri əsasında möcüzələrin reallığını təsdiq edə bilmir. Çünki təbiət elmlərinin əsasında duran səbəb-nəticə sisteminin müşahidə oluna bilən tərəfi, yəni maddi hadisələrin səbəbini araşdıran elmi təcrübələrin və fərziyyələrin əsaslandığı tərəfidir. Nə adi hiss və təcrübə, nə də dəqiq təbiət elmləri möcüzə və xariqüladə işlərin varlığını təsdiq edə bilməz. Lakin eyni zamanda bütün bunları inkar da edə bilməz.

Elm ruhi paklıq və ya asketizm sayəsində görülən bu qədər qəribə işlərin üzərinə pərdə çəkə bilməz. Qəzetlərdə, jurnallarda və kitablarda bu haqda yazıldıqca məsələ gündən-günə daha çox aşkar olur. Bu işlər o qədər çox baş verir ki, heç bir ağıllı insanda şübhə yeri qalmır. Bütün bunlar əsrimizin alimlərini (ruhun təsirlərini araşdıran alimlər nəzərdə tutlulur) bu proseslərin naməlum elektrik və maqnit dalğalarından yarandığını söyləməyə vadar etmişdir.

Elektrik dalğaları fərziyyəsi haqqında qısaca olaraq demək olar ki, insan çətin ruhi məşqlər nəticəsində elə bir qüdrət əldə edir ki, böyük gücə malik olan bir sıra gizli dalğaları öz iradəsinə tabe edir. Bu gizli dalğalar elədir ki, insanın şüur və iradəsi onlara yiyələnə bilir və bu yolla da asketlər qəribə xariqüladə işlər görmək qüdrətinə malik olurlar.

Əgər bu fərziyyə düzgün şəkildə hər yerdə özünü doğrultsa və onda heç bir naqislik olmasa, yeni və geniş bir fərziyyənin yaranmasına səbəb olacaq. Müxtəlif və pərakəndə hadisələrin hər birinin ayrı-ayrılıqda səbəblərini tapıb göstərməyə çalışan əvvəlki fərziyyələrin əksinə olaraq, hər bir hadisəni hərəkət və qüvvə adlı ümumi və daimi bir meyar əsasında izah edən bu yeni nəzəriyyə bütün maddi hadisələri ən sonda qüvvə adlanan vahid bir təbii səbəblə əlaqələndirir.

Bütün əsrlərin alimləri bu sözü demişlər və demək olar ki, müəyyən qədər haqlıdırlar. Çünki səbəblə nəticə arasındakı genetik əlaqəyə əsasən maddi nəticənin maddi səbəbi olmalıdır.

Başqa sözlə, maddi səbəb dedikdə bir sıra maddi varlıqların bir yerə yığışaraq xüsusi bir əlaqə ilə yeni bir varlığı yaratması nəzərdə tutulur, belə ki, əgər həmin varlıqlar və onlar arasındakı həmin xüsusi əlaqə olmasaydı nəticə adlandırdığımız sonrakı varlıq da vücuda gəlməzdi.

Nəticə olaraq demək olar ki, hər maddi nəticənin maddi səbəbi olmalıdır. Lakin maddi səbəblərin yalnız bizim maddi səbəb olaraq tanıdıqlarımızdan ibarət olduğunu demək olmaz. Çünki bu yeni fərziyyədə irəli sürüldüyü kimi bütün maddi

səbəblərin arxasında başqa vahid bir səbəbin olması da mümkündür.

## *Ayın parçalanması hadisəsi.*

Sual: Ayın parçalanması möcüzəsi haqqında Quran ayəsi və yaxud hədis vardırmı? Ayın böyük həcmi ilə Peyğəmbərin (s) paltarının qolu arasındakı uyğunsuzluğu nəzərə alsaq, bu işin reallığına necə hökm etmək olar. Halbuki əqli və məntiqi qanunlara əsasən hər hansı bir cismin həcmcə özündən kiçik olan cismin içərisində yerləşməsi mümkün deyildir.

Cavab: Ayın parçalanması hadisəsi elmi əsası olan bir reallıqdır. Bu məsələnin düzgünlüyü bizə Quran və hədislər vasitəsilə gəlib çatmışdır. Lakin bu hadisə haqqında gələn hədislər bir-birindən fərqlidir. Bu hədislərdən hər birinin ***"xəbəri vahid"*** olduğunu və heç birinin təklikdə elmi cəhətdən mötəbər sayılmadığını nəzərə alaraq demək olar ki, bu hadisənin təfərrüatı haqqında hədislərdə qeyd olunan məsələlərə etina etmək və onların haqqında müzakirə etmək doğru deyildir. Bu hədislərdən bütövlükdə anlaşılan budur ki, ay Peyğəmbərin (s) göstərişi ilə möcüzəli şəkildə iki yerə bölünüb. Bu hadisəyə Quranda da işarə olunmuşdur.

Qurani kərim məhz həmin hadisə ilə bağlı olaraq "Qəmər" (Ay) adlandırılan surənin ilk ayəsində buyurur:

اقْتَرَبَتِ السَّاعَةُ وَانشَقَّ الْقَمَرُ

***"Qiyamət yaxınlaşdı və Ay parçalandı."***

Bu, həzrət Məhəmmədin (s) onun peyğəmbərliyini inkar edən şəxslərin möcüzə tələbinə cavab olaraq gördüyü iş idi. Aydındır ki, möcüzənin mümkünlüyünü və peyğəmbərlərdən onun baş verə bilməsini qəbul etdikdən sonra Quranın xəbər verdiyi hansısa xüsusi bir möcüzəni qəbul etməkdən başqa bir yol yoxdur.

Ümumiyyətlə möcüzəni rədd etməyə heç bir əqli dəlil yoxdur və yalnız məsələnin insana qəribə görünməsi heç də

onun yalan olması deməmək deyildir. Çünki baş verən hadisələrin bizə məlum olan adi səbəbləri arxasında qeyri-adi hadisələr yarada bilən bir sıra tanımadığımız və xəbərsiz olduğumuz səbəblərin olması da mümkündür.

## *Ayın parçalanmasına etiraz edənlərin cavabı.*

Bu işə etiraz edənlərin bəziləri deyirlər: "Quranın xəbər verdiyi Ayın parçalanması hadisəsi qiyamət baş verərkən dünya dağılan zaman olacaq."

Halbuki sonrakı ayə bu ehtimalı aradan qaldırır. Çünki uca Allah həmin ayənin ardınca buyurur:

وَ إِن يَرَوْا آيَةً يُعْرِضُوا وَ يَقُولُوا سِحْرٌ مُّسْتَمِرٌّ

***"Əgər müşriklər bir möcüzə görsələr, üz döndərib bu "davamlı bir sehrdir"- deyərlər."*[34]**

Deməli əgər birinci ayədə qiyamət baş verərkən dünyanın dağılmasından söhbət getsəydi, artıq müşriklərin üz çevirərək bu hadisəni sehr adlandırmaları mənasız olardı.

Etiraz edənlərin bəziləri isə deyirlər: "Ayədə digər planetlər kimi ayın da günəşdən ayrılması nəzərdə tutulur. Bu günkü elmlər də bu məsələni təsdiq edir. Lakin bu nəzəriyyənin yaranmasından əsrlərlə öncə Quranda bu hadisənin gəlməsi həqiqətdə Quranın möcüzələrindən biridir."

Lakin ərəb dilinin leksikologiyası baxımından bu nəzəriyyə yanlış hesab olunur. Çünki ərəb dilində bir cismin digər cisimdən ayrılmasına "iştiqaq" və "infiċal" deyilir. Ayədə işlənən "inşiqaq" sözü isə iki yerə bölünmək və parçalanmaq mənasınadır.

---

[34] Qəmər 2

Başqa bir sıra etiraz edənlər demişlər: "Əgər tarixdə belə bir hadisə olsaydı, qeyri-müsəlman tarixçiləri də bu barədə yazardılar."

Lakin bilmək lazımdır ki, yazılı tarix həmişə dövrün siyasi qüvvələrinin mənafeyinə xidmət etmişdir. Onların maraqları ilə üst-üstə düşməyən hər bir hadisənin isə üzərindən sükutla keçilmiş, beləliklə həmin hadisə tarixdə qaranlıq qalmış və unudulmuşdur. Gördüyümüz kimi qədim tarixlərdə Musa, İbrahim (ə) və s. kimi böyük peyğəmbərlərin möcüzələri haqqında heç nə yoxdur, halbuki dini baxımdan onların etdikləri bir sıra möcüzələr barəsində heç bir şübhə ola bilməz. İbrahim peyğəmbərin (ə) Nəmrudun atəşində yanmayıb salamat qurtarması, Musa peyğəmbərin (ə) əsa, parlaq əl və s. kimi möcüzələri, Isa peyğəmbərin (ə) ölüləri diriltməsi, Məhəmməd peyğəmbərin (ə) öz çağırışına başlayarkən dünyada bütün qüvvələrin Islama qarşı mübarizə aparmasına baxmayaraq bu dinin düşmənlər üzərində zəfər çalması və s. bu kimi möcüzələrin reallığı inkarolunmazdır.

Bundan əlavə, ayın parçalanması hadisəsinin baş verdiyi Məkkə şəhəri ilə tarixyazarların yaşadığı Avropa arasında saat fərqi çoxdur, odur ki, Məkkədə qısa müddətdə baş verib oranın əhalisi tərəfindən müşahidə olunan bu hadisə Roma, Afina və s. kimi uzaq Avropa üfüqlərində müşahidə oluna ola bilməzdi. Əksinə, Avropada baş verən qısamüddətli bir hadisənin Məkkə əhalisi tərəfindən müşahidə olunması da mümkün deyildir.

## Venera ulduzu həzrət Əlinin (ə) evinin damına qonubmu?

Venera ulduzunun yerə enib həzrət Əlinin (ə) evinin damına qonması barədə düzgün tarixi sənəd vardırmı?

Venera ulduzunun yerə enib həzrət Əlinin (ə) evinin damına qonması barədə bir neçə hədis vardır, lakin bu hədislər mütəvatir[35] və qəti olmadığı üçün elmi cəhətdən etibarı yoxdur.

## V fəsil

### *Yuxunun həqiqəti vardırmı?*

Avropa təbiətşünaslarının fikrincə yuxu həqiqət deyildir və onun xarici hadisələr ilə olan əlaqəsinindən bəhs etməyin heç bir elmi dəyər yoxdur. Amma bə`zi psixoloqlar yuxu haqqında tədqiqat aparıb təbiətşünasların əksinə olaraq, gizli işlərdən, ya gələcək hadisələrdən xəbər verən yuxulara istinad edərək onları təsadüfi bir iş bilməyiblər.

### *Quranın yuxu haqqında fikri nədir?*

Qurani-kərimdə peyğəmbərlərin və digər insanların yuxuları nəql və təsdiq olunub. Həzrət Ibrahimin Ismaili qurban etməsi barəsində gördüyü yuxu, həzrət Yusifin yuxusu və o həzrətin zindanda yoldaşlarının gördüyü yuxu, Misir padşahının yuxusu və Rəsuli-Əkrəmin (s) Məkkənin fəthi haqqında gördüyü yuxuları misal vurmaq olar. Peyğəmbəri-Əkrəm (s) və imamlardan nəql olunan rəvayətlərdə buna şahid tapmaq olar.

Biz hamımız gizli işə sübut olan, ya elmi problemləri həll edən, ya gələcək hadisələri agah edən yuxuları ya özümüz görmüşük, yaxud da başqalarından eşitmişik. Bu yuxuları, xüsusilə, yozmağa ehtiyacı olmayan aşkar yuxuları təsadüfi hesab etmək və real hadisələrlə heç bir əlaqəsi olmadığını söyləmək mümkün deyildir.

---

[35] Hər nəsildə çoxlu şəxslər tərəfindən nəql olunduğuna görə insanda doğruluğuna yəqinlik yaranan hədislərə mütəvatir hədis deyilir. Bunun əksinə olaraq, hər nəsildə bir nəfər tərəfindən nəql olunan və doğruluğu yalnız ehtimal olunan hədislərə xəbəri-vahid deyilir. (tərcüməçi)

Əlbəttə, inkar olunası deyil ki, orqanizm pozğunluğu, xəstəliklər, yorğunluq, dolu qarınla yatmaq və digər bu kimi subyektiv səbəblərin və eləcə də, istilik, soyuqluq və bu kimi obyektiv səbəblərin xəyal qüvvəsində tə`siri var və bu qüvvə də yuxuda tə`sir edir. Məsələn, əgər biri güclü hərarət, ya kəskin soyuq şəratindədirsə, yuxuda od şö`ləsi yaxud qar və buz görür. Əgər bir adamın orqanizm pozğunluğu olsa, qarışıq və mənasız yuxular görür. Eləcə də əxlaqi və ruhi sifətlər yuxuda öz tə`sirini qoyur. Bu səbəbə görə yuxuların çoxu daxili və xarici səbəblər üzündən yaranan xəyalların nəticəsidir və həqiqətdə o səbəblərin tə`sirinin keyfiyyətini göstərir. Təbiətşünaslar təkcə bu səbəbləri araşdırıb yuxunun həqiqət olmaması nəticəsinə gəliblər. Bu səbəblərin tə`siri inkar edilmədiyi kimi, bə`zi yuxuların da həqiqət olmasını və xarici işlər ilə əlaqəsini inkar etmək olmaz.

## *Ruh ilə yuxu arasında rabitə yaranırmı?*

Əgər bir şəxs filan gün filan hadisənin baş verəcəyini qabaqcadan yuxuda görürsə və həmin hadisə həmin zamanda baş verirsə, demək olmaz ki, onun ruhu hadisə baş verməzdən öncə onunla əlaqə tapdı, çünki, varlıq və yoxluq arasında vücud əlaqəsi qeyri-mümkündür. Eləcə də bir nəfər yuxuda filan yerdə müəyyən bir nişanəsi olan küp və o küpdə müəyyən miqdarda qızıl olmasını görürsə və yuxudan ayıldıqdan sonra oraya gedib o yeri qazaraq küpü çıxarırsa demək olmaz ki, yuxu gördüyü zaman onun ruhu o küplə birləşir, çünki, ruhun maddi əşyalarla birləşməsi yalnız hiss üzvləri ilə mümkündür və uzaq məsafədə yerin altında olan bu qab hiss üzvləri ilə dərk olunmur. Buna görə də alimlər demişlər ki, ruhun bu növ hadisələr və əşyalarla əlaqəsi onları yaradan səbəblərlə birləşmə yolu ilədir.

**İzah**: Varlıq dünyası üç aləmə şamildir: 1.Təbiət aləmi; onunla tam tanışlığımız var. 2. Misal aləmi; o, vücud

mərtəbəsinə görə təbiət aləmindən yuxarıdadır, onun varlıqları maddəsiz surətlərdir (formalardır). Misal aləmi maddi varlıqların yaradılış səbəbdir. 3. Əql aləmi; misal aləmindən yuxarıdadır və ondakı varlıqlar surətsiz (formasız) və maddəsizdir. Əql aləmi də öz növbəsində misal aləmini yaradılış səbəbdir.

İnsanın ruhu mücərrəd olduğu üçün metafiziki aləmlər ilə ünsiyyətdə olur. Yuxuda olarkən hissi idraklarla məşğul olmadığı üçün ünsiyyətdə olduğu metafiziki aləmlərə qayıdır və öz iste`dadına görə o aləmdə bir sıra həqiqətləri müşahidə edir. Mücərrəd əqli varlıqları (əql aləmini) dərk etmək qüvvəsinə malik olan kamil ruh səbəbləri "ümumi"[36] şəkildə dərk edir, onun səviyyəsinə çatmayan ruh isə, həqiqətləri "xüsusi" surətdə dərk edir. Necə ki, biz ümumi sür`əti çox sür`ətli cismin təsəvvürü ilə və əzəmətin mənasını dağın təsviri ilə ifadə edirik. Əqli mücərrədlik mərhələsinə çatmayan ruh misal aləmində dayanır və bə`zən əşyaların yaranma səbəbini misal aləmində həqiqi surətdə müşahidə edir. Bu elə aşkar yuxulardır ki, çox vaxt düzgün və pak insanlar görürlər. Bə`zi vaxt misal varlığını onlar ilə ünsiyyətdə olan surətdə dərk edir. Necə ki, elmi nur və cəhaləti zülmət surətində görür, hətta, zehnin bir mənadan başqa mənanın ziddinə dəyişməsi mümkündür.

Bu yuxulardan biri çox məşhur yuxudur ki, belə nəql edirlər: Bir kişi tanınmış yuxu yozan Ibn Sirinin yanına gəlib belə deyir: Yuxuda görürəm ki, əlimdə bir möhür var və camaatın ağzını, övrətini onunla möhürləyirəm. Ibni Sirin deyir: Sən azan deyən olacaqsan, azan dediyin zaman camaat oruc tutacaqlar və yeməkdən, cinsi əlaqədən çəkinəcəklər.

---

[36] Məntiqdə çoxlu əşyalara aid olan anlayışlara "ümumi", yalnız bir əşyaya aid ola bilən anlayışlara isə "xüsusi" deyilir. Məsələn, "şəhər" ümumi, "Məkkə" isə xüsusi anlayışdır.

Deyilənlərdən belə nəticə çıxır ki, yuxu iki növdür: 1. Aşkar yuxu; yuxu görənin ruhu öz gördüklərindən narahat olmur və onu yozmağa ehtiyac görmür. 2. Aydın olmayan yuxu; bu yuxuda ruh gördüklərindən narahat olur. Bu cəhətə görə onu yozmağa və onun zehni surətini həqiqi və ilk surətə qaytarmağa ehtiyac var, məsələn, nuru elmə, zülməti cəhlə yozmaq kimi.

Aydın olmayan yuxular da iki yerə bölünür: 1. O yuxulardır ki, onlarda nəql olma aydındır və asanlıqla onları əslinə qaytarmaq olur. (keçmiş misallar kimi) 2. Ruhun tə`siri nəticəsində dolaşıq vəziyyətə gələn və yozulması qeyri-mümkün olan yuxular. Bu cür yuxuları "Əzğasi əhlam" adlandırırlar. Onlar puç və yozumsuz qalır. Bu, qədim psixoloqların yuxu haqda bəhslərinin xülasəsidir və Qur`an kərimdə onların sözlərinə qüvvət tapmaq olar. Məsələn, ruhun yuxu halında metafiziki aləmə qayıtması mövzusunda bu iki ayədən istifadə etmək olar:

هُوَ الّذِي يَتَوَفّاكُم بِاللّيَلِ

***"Gecələr sizin ruhlarınızı alan Odur."***[37]

الله يَتَوَفَّى الْأَنفُسَ حِينَ مَوْتِهَا وَالَّتِي لَمْ تَمُتْ فِي مَنَامِهَا فَيُمْسِكُ الَّتِي قَضَى عَلَيْهَا الْمَوْتَ وَيُرْسِلُ الْأُخْرَى

***"Allah, insanlar öldüyü zaman və yuxuda olan zaman onların ruhlarını alar. Ölümə hökm olunmuş kəslərin ruhlarını saxlayar. Qalanların ruhunu isə (yuxudan oyandıqda) qaytarar."***[38]

Bu mübarək ayələrdən belə çıxır ki, ruh yuxu halında bədəndən götürülür və zahiri hisslər ilə əlaqəsi kəsilib Allaha tərəf qayıdır. Bu, ölüm halında qayıtmağa oxşar olan bir qayıdışdır.

---

[37] "Ən`am" surəsi, ayə: 60.

[38] "Zumər" 42

Eləcə də yuxunun üç növ olmasına işarə olunub. Məsələn, həzrət Ibrahim (ə) və Rəsuli-Əkrəmin (s) yuxuları birinci növ yuxu sayılır. Həzrət Yusifin zindan yoldaşlarının yuxusu ikinci növ yuxulardandır. Aydın olmayan və qarışıq yuxular da vardır ki, Misrin yuxu yozanları padşahın yuxusunu "Əzğasi əhlam"dan bildilər.

## VI fəsil

## *Vəhy və ya gizli idrak*

**1- Yaradılış sistemi növləri kamala doğru sövq etdirir:**

Yerə düşmüş, əlverişli şəraitlə yarılıb cücərməyə başlayan buğda dənəsi şübhəsiz ki, öz inkişafını kamilliyə çatdırıb sünbülə çevrilməyə və çoxsaylı dənələr bəhrə verməyə doğru hərəkət edir.

Həmçinin yerin bətnində gizlənmiş, sonra isə öz qabığını soyub yaşıl gövdəsini çölə çıxaran meyvə tumu həmin andan yaşıl və məhsuldar ağac olmağa, yəni kamilliyinin son dərəcəsinə doğru üz tutur.

Yumurta içərisində olan cücə və ya ana bətnində formalaşan insan rüşeymi də həmin vaxtdan varlığın imtiyazlarından bəhrələnən və öz vücudi təsirini bağışlayan bir toyuq və ya insan olmağa doğru hərəkət edir.

Bu kimi yüzlərlə, minlərlə nümunələrdən aydın olur ki, yaranış sistemi təkvini[39] tərbiyə ilə xaricdə olan növlərin hər birini özünə uyğun kamilliyə doğru sövq etdirir və bu növlər arasındakı fərdlərin öz təkvini trayektoriyasında bir sıra ziyanlarla qarşılaşmasına və yoldan qalıb yoxluğa yuvarlanmasına baxmayaraq yaranış sistemi öz yolundan əl

---

[39] Yaranışa aid olan. Azərbaycan dilində, xüsusilə fəlsəfi ədəbiyyatda bu mənanı ifadə etmək üçün çox vaxt yunan mənşəli “genetik” sözündən istifadə olunur. (tərcüməçi)

çəkməyib işini davam etdirir və varlıq karvanını özlərinə məxsus hədəflərə yönəldir.

**2- İnsan başqalarını istixdam[40] (istismar) etməklə mədəniyyət yaradır.**

Şübhəsiz ki, insan yaşayışın bütün sahələrində mədəni və ictimai bir varlıqdır. Insanın başdan-başa ehtiyac içində olan vücudunun quruluşu, keçmişdəkilərdən gəlib çatan tarix, həmçinin insanların təcrübəsi və indiki nəslin sinif və fərdləri bu həqiqəti təsdiqləyir.

Lakin diqqət etmək lazımdır ki, insan növü yaranış baxımından elə qurulmuşdur ki, hər şeyi özü üçün istəyir. Insan təbiətin enerjisindən, bütün elementlərin fiziki və kimyəvi faydalarından öz mənfəəti üçün istifadə edir.

İnsan bütün bitki və ağaclardan onların meyvə, gövdə, yarpaq, kök, budaq və tumundan öz yaşayışının ehtiyaclarını ödəyib onları uzaq məqsədlər yolunda vasitə edir. Insan heyvanın müxtəlif növlərinin ət, dəri, yun, qan, süd və buynuzundan, hətta ifrazatlarından belə faydalanıb, onları bəsləyərək öz yaşayşının məqsədləri yolunda işlədir. Görəsən insan hər şeydə tətbiq etdiyi bu istismarçılıq instinktini öz həmnövlərində, yəni insanlar üzərində tətbiq etməyib onları istisna edirmi?

---

[40] Əllamə Təbatəbai "istixdam" nəzəriyyəsini "əl-Mizan" adlı kitabında Bəqərə surəsinin 213-cü ayəsinin təfsirində, eləcə də "Fəlsəfənin əsasları və realizm metodu" kitabında ortalığa atıb elmi şəkildə əsaslandırmışdır. Bu nəzəriyyədə deyilir ki, insan ətrafındakı hər bir şeyə, hətta başqa insanlara belə, alət gözü ilə baxaraq öz mənafeyi üçün onlardan istifadə etməyə və faydalanmağa çalışır, bu da öz növbəsində bir sıra ictimai proseslərə səbəb olur. Leksik baxımdan "xidmət" sözündən olan və "başqalarını özü üçün işlətmək", "başqalarından xitmət tələb etmək" mənasını daşıyan "istixdam" sözü "istismar" sözünə yaxın olduğu üçün tərcümədə "istismar" sözündən istifadə etməyi münasib bildik. (tərcüməçi).

İnsan ailə cəmiyyətini (evliliyi) öz həyat yoldaşından ləzzət və fayda almaq üçünmü istəyir, yoxsa öz ləzzətini ailə üçün istəyir? Insan mədəni toplumu öz yaşayışının ehtiyaclarını təmin etmək üçün ən gözəl vasitə olduğuna görəmi istəyir, yoxsa özünü mədəniyyətdən ötrü istəyir? İnsan özü üçün ailə cəmiyyətində və ya mədəni toplumda heç bir xoşbəxtlik görməsə, yenə də bu cəmiyyəti istəyəcəkmi? (Şübhəsiz, bu suallar fərdin mənafeyi ilə toplumun mənafeyinin üst-üstə düşdüyü yerlərə aid deyil)[41]*. Aydındır ki, insan bütün varlıqlarda tətbiq etdiyi bu istismarçılıq instinktini öz həmnövlərində də tətbiq edəcəkdir. Deməli, insan istismarçı bir varlıq olub cəmiyyəti özünə xidmət üçün seçmişdir.[42, 43]*

---

[41]* Əllamə Təbatəbai bildirmək istəyir ki, fərd cəmiyyətdən ayrı olmadığı üçün onun mənafeyi cəmiyyətin mənafeyi ilə üst-üstə düşdüyü cəhətdən öz mənafeyini cəmiyyətin mənafeyində də görə bilər. Lakin bununla belə, insan cəmiyyət və mədəniyyətin özünü istəmir. Bütün bunları yalnız öz mənafeyinə xatir istəyir. ***(Ulduz işarəsi ilə göstərilən izahlar ayətullah Məkarim Şirazidəndir)***

[42]* Sosiologiya və hüquq kitablarında müzakirə obyekti olan fərdin və ya cəmiyyətin əsas götürülməsi, başqa sözlə, individualizm və kollektivizm adlı məsələ gözə çarpır. Individualistlər inanırlar ki, hər bir fərd ixtiyar sahibidir, öz mənafeyini hamıdan yaxşı bilir və başqalarına maneəçilik törətməyəcəyi təqdirdə bu mənafeləri müəyyənləşdirib əldə etməkdə tam azaddır. Bunun əksinə olaraq, cəmiyyəti əsas götürən kollektivistlərin fikrincə fərdin mənafeləri cəmiyyətin mənafelərinə tabedir, hökumət fərdlərin bütün işlədinə müdaxilə edib onlar üçün qanunlar qoya bilər.

Burada deyilənlərdən aydın olur ki, ümumiyyətlə bu müzakirə yersizdir. Çünki cəmiyyət, fərdlər tərəfindən onların xeyrinə olan qarşılıqlı müqavilə və müahidədən başqa bir şey deyildir. Şübhəsiz ki, hər bir fərdin ictimai qanunlara tabe olması onun öz xeyrinədir. Heç kəs onun istəyinin əksinə hərəkət edən cəmiyyətin tərəfdarı deyildir. Cəmiyyət sözün tam mənasında bundan başqa şəkildə ola bilməz. Bundan başqa şəkildə olan köləlik və əsarətdir.

[43]* Burada kimsə “istismar” (başqalarından faydalanma) işinin bir instinkt yox, “özünüsevmə”  instinktini təmin etmək üçün əqli bir yol olduğunu qəbul edə bilər. Çünki insan hər şeydən əvvəl özünü sevir və öz həyatı, öz səadəti onun üçün maraqlıdır. Bu instinkt onu başqa

**3- İnsanların qarşılıqlı əməkdaşlıq cəmiyyəti**

Elə buradan da əməkdaşlıq cəmiyyəti qurulur. Çünki aydın olduğu kimi insan əməkdaşlıq cəmiyyətini buna görə qəbul edir ki, təklikdə və başqalarının səylərindən istifadə etmədən öz çalışmaları nəticəsində yaşayışının ehtiyaclarını təmin edə bilmədiyini görür. Digər cəhətdən isə, başqalarının çalışmalarına əvəzsiz və müftə sahib olmaq mümkün deyildir. Çünki başqaları da onun kimi insandır və onun digərlərindən istədiyini onlar da ondan istəyirlər. Çarəsiz qalaraq əməkdaşlıq cəmiyyətini ən gözəl vasitə görərək onu seçir. Nəticədə öz çalışma və cəhdlərinin nəticəsinin bir miqdarını başqalarına verərək əvəzində onların işlərinin nəticəsindən faydalanır. Yəni bütün fərdlər öz işlərinin məhsulunun məcmusunu bir yerə toplayır, sonra ictimai ölçüsünə uyğun olaraq öz ehtiyacını təmin edir.[44*]

**4-Fərdlərin ixtilafının üzə çıxması**

Əməkdaşlıq cəmiyyəti, deyilən amillər nəticəsində fərdlər arasında zəruri şəkildə yaransa da insan bu əməkdaşlıq cəmiyyətini və bu cəmiyyətin nəticəsində yaranan ictimai ədaləti çarəsizlik üzündən qəbul etdiyi üçün həmişə qəlbinin dərinliklərində bu ictimai bağlılığı qırıb onun yaratdığı

---

varlıqlarından öz xeyrinə istifadə etməyə vadar edir. Deməli "istismar", "özünüsevmə" adlı instinktə əsaslanan əqli bir dəlilin nəticəsidir.

Lakin burada əsas məqsəd "istismar" işinin instinkt, yaxud əqlin hökmü olması yox, onun heç zaman insandan ayrılmayan və onun istisnasız olaraq bütün varlıqlarda tətbiq etdiyi bir məsələ olmasıdır.

[44*] Həqiqətdə, əməkdaşlıq əsasında qurulan cəmiyyət fərdlərin, mötədil formaya düşmüş qarşılıqlı "istismar"ından başqa bir şey deyildir. Bir çox sosioloqların cəmiyyətin başlanğıcı haqqındakı nəzəriyyələri də bunu təsdiq edir. Çünki onların fikrincə ictimai yaşayışın mənşəyi ilk günlərdə yırtıcı heyvanlardan qorxu olmuş və ibtidai insanlar bir-birinin gücündən istifadə edib bu heyvanların qarşısında özlərini müdafiə etmək üçün ictimai yaşayışı qəbul etmişlər. Bunun özü də çatdırır ki, ictimai yaşayış əməkdaşlıq əsasında qurulmuşdur.

məhdudiyyətlərdən azad olmaq fikrindədir. Bu görə də, gücləndiyi və özündə qüdrət tapdığı zaman başqalarının haqlarını tapdamaqdan çəkinməyəcək.[45*]

İnsan barəsində gəlib çatan tarixi faktlar təsdiq edir ki, həmişə güclülər zəifləri əzmiş və onların bütün varlığını qarət etmişlər. Həmişə güclü fərdlər zəif fərdləri alçaldıb boyunduruq altında saxlamış, onlardan da digər canlı və cansız varlıqlar kimi öz mənfəətləri üçün qeydsiz-şərtsiz istifadə etmişlər.

Tədqiqatlar göstərir ki, insan cəmiyyətindəki bu vəziyyət həmişə olmuş və olmaqdadır. Bu fərqlə ki, keçmişdə müxtəlif növ zorakılıq və təcavüzkarlıqlar fərdi şəkildə və fərdlə fərd,

---

[45*] Deyildiyi kimi insan hər şeydən əvvəl özü və öz səadəti ilə maraqlanır və başqa hər bir şeyi özünə xatir istəyir. Fərdlərin ağır ictimai qanunlar qarşısında təslim olub ictimai ədaləti qəbul etməyə məcbur olmaları onların özünüsevmə hissinin mötədil şəklə salınmasının nəticəsidir. Buna görə də bu qanunlara tabe olmaq insanın özünüsevmə hissi ilə müəyyən qədər ziddiyyət təşkil edir və bu tabeçilik onun təbiəti ilə uyğun olmadığı üçün həmişə bu qanunlardan qaçmağa çalışır. Burada kimsə irad tutub deyə bilər ki, "insan öz şəxsi mənafeyini qorumaq üçün də olsa, ictimai ədalət qanunlarına riayət etməlidir. Çünki bu itaətsizliyin mənfi nəticələri dolayı yolla onun özünün də ziyanınadır. Belə ki, bu qanunlara riayət etmək əslində bir növ qarşılıqlı müahidədir və müəyyən bir şəxsin onu pozması başqaları tərəfindən də onun pozulmasına səbəb olur. Odur ki, istismar hissi ilə iş görən insanın ictimai ədalət qanunlarından boyun qaçırmağa haqqı yoxdur. Çünki öz hüquqlarını qorumaq üçün başqalarının hüquqlarına ehtiramla yanaşmalıdır. Başqa sözlə desək, özünüsevmə hissi onu insansevərliyə tərəf sövq edir."

Lakin müqəddimədə buna oxşar bir iradın cavabını geniş şəkildə izah etmişik, burada isə əlavə etməliyik ki, bu söz fərdlərin ictimai qüdrətlərinin bərabər fərz olunduğu zaman, yəni bir şəxsin qanunu pozarkən başqalarının da qanundan boyun qaçıra biləcəyi surətdə düz ola bilər. Lakin əksər hallarda ictimai qüvvələr bərabər səviyyədə olmur və belə bir zamanda güclülər qanunlara riayət etməkdən imtina edilər, başqalarını isə qanunlara riayət etməyə məcbur edirlər.

yaxud fərdlə cəmiyyət arasında halında həyata keçirilirdisə, bu gün güclü və zəif cəmiyyətlər arasında həyata keçirilir!![46*]

---

[46*] Bir şəxsin başqa şəxs tərəfindən əsarət altına alınması keçmiş zamanlardan başlayaraq bütün millətlər arasında geniş yayılmışdı. Tarixi baxımdan onun başlanğıcını tapmaq çox çətindir. Çünki bu məsələ qəbilələr arasında müharibələrin və əsir götürmənin başlanması ilə sıx şəkildə bağlıdır, onların yaranma tarixi isə məlum deyildir.

Quldarlıq zamanı qulların hüquqları hədsiz dərəcədə tapdanırdı. Həm ən çətin işlər onların üzərində idi, həm də ən pis yaşayış onlara qismət idi. Səmavi dinlər, xüsusilə İslam dini qullara böyük xidmət göstərmiş, onların fəlakətli yaşayışdan xilas olması üçün çoxlu dəyərli qanunlar qoymuşdur ki, onların hamısını izah etmək üçün geniş vaxt lazımdır. Təqribən 19-cu əsrin əvvələrindən başlayaraq bütün dünya səviyyəsində quldarlığın ləğv olması üçün böyük hərəkat başlandı və bəlkə də bu məsələ ilk dəfə İngiltərədə reallaşdı. Belə ki, 19-cu əsrin birinci yarısı başa çatmamışdı ki, (1840) hətta İngiltərənin müstəmləkələrində qul satmaq qadağan olundu. Fransada 1848-ci ilədək qul satışı davam etdi, lakin ondan sonra ləğv olundu. Hollandiyalılar 1873-cü ildə qul alverini ləğv etdilər.

1860-cı ildə şimali və cənubi Amerikanın əhalisi arasında bu məsələ üzərində qanlı müharibələr baş verdi və sonralar "ayrılıq müharibələri" adı ilə məşhurlaşdı. Cənubluların əkinçilik işlərində qullara çox böyük ehtiyacları olduğu üçün ciddi şəkildə quldarlığı müdafiə edirdilər. Şimallılır isə bu məsələdə onlarla müxalif idilər. Dörd ildən sonra bu müharibələr şimallıların qələbəsi ilə başa çatdı və bütün Amerikada quldarlıq ləğv olundu. Nəhayət, 19-cu əsrin axırlarında təqribən bütün ölkələr quldarlığın ləğv olunmasına razılaşdılar və çox az yer tapılardı ki, orada qul alverinə aşkar şəkildə icazə verilsin.

Məsələyə formalistcəsinə yanaşanlar quldarlığın ləğv olunmasını insan azadlığına tərəf atılan böyük bir addım bilirlər və onu müasir mədəni cəmiyyətlərə ədalətsevərlik ruhunun hakim olmasına bariz bir dəlil hesab edirlər. Biz də çox arzulayardıq ki, belə olsun. Amma təəssüf ki, bizim ictimai və tarixi axtarışlarımız bunun əksini göstərir!

Çünki fərdlərin köləliyi və əsarəti müəyyən səbələrə görə ləğv olsa da, köləliyin daha təhlükəli və dəhşətli forması olan xalqların köləliyi onun yerini tutdu.

18-ci və 19-cu əsrlərdə sənayenin inkişafı yaşayış vəziyyətini bütünlüklə dəyişdi və işlər fərdi şəkildən kollektiv şəklə keçdi. Bununla da ağır işlər zavodların üzərinə düşdü və nəticədə həmişə çətin işlər üçün istifadə olunan

qullara ehtiyac azaldı. Buna görə də artıq əvvəlki kimi quldarlığa lüzum qalmadı.

Digər tərəfdən isə, quldarlığın ləğv olunmasından bir neçə əsr əvvəl başlayan müstəmləkəçilik bu zaman öz yüksək mərhələsinə çatmışdı. Bütün bu qədər müstəmləkələr olduğu halda artıq xüsusi qullara ehtiyac yox idi. Məsələn, əgər 19-cu əsrin ortalarında İngiltərənin quldarlığın ləğv olunmasında qabaqcıl olduğunu görürüksə, unutmamalıyıq ki, təqribən bir əsr ondan əvvəl 18-ci əsrdə imperializm buxovlarını özünün təbii sərvətlərlə zəngin olan müstəmləkəsində, yəni geniş Hindistan torpağında möhkəmlətmişdi. Həmçinin digər "mədəni" dövlətlər də hər biri o zamankı dünyanın müxtəlif bölgələrində özləri üçün bir çox müstəmləkələr əldə etmişdilər.

Həqiqətdə məsələn, afrikalı zənciləri qul olaraq Avropaya aparmaq əvəzinə onları elə öz yerlərində, yəni Afrikada işlədib əllərinin zəhmətini o zaman sürətlə və asan həyata keçən nəqliyyat vasitələri ilə öz ölkələrinə aparırdılar. Odur ki, köləliyin dünyada tamamilə aradan getməsinə inanmaq olmaz. Əksinə adını dəyişərək daha geniş mürəkkəb şəklə düşdü.

Müstəmləkəçi dövlətlərin öz müstəmləkələri ilə davranış tərzi doğrudan da dəhşətlidir. Belə ki, bəlkə də köləlik böhranı zamanı da bunlara oxşar cinayətlər və təcavüzkarlıqlar az tapmaq olar. Bəlkə də bu iddianı bu sadəliklə qəbul etməyəcəksiniz. Sözsüz haqqınız vardır. Lakin "mədəni" dövlətlərin öz müstəmləkələri ilə davranışı haqqında onların öz dillərindən eşidin. Nəticə çıxarmaq isə sizinlədir.

Doktor Qustav Lebon özünün mədəniyyət tarixi kitabında təqribən 70 il əvvəl ***(Ayətullah Məkarim Şirazi bu məqaləni təqribən 30 il bundan əvvəl yazmışdır. tərcüməçi)*** Hindistanda müstəmləkəçiliyin vəziyyəti haqqında yazır:

"Londonun abadlaşmasına və zənginləşməsinə baxmayaraq bu sərvətlərin alındığı şəxslər son dərəcə fəqirliklə üzləşmişlər."

Sonra əlavə edərək deyir:

"Bu günkü statistik göstəriciyə əsasən təkcə Mədras əyalətində 16 milyon dilənçi vardır! Niyə də belə olmasın. Çünki yazıq əhali hərbi nazirliyin 400 milyondan çox olan xərcini (yəqin ki, pul vahidi olaraq lirə nəzərdə tutulur) ödəməlidirlər. Həmçinin 50 milyon da başqa dövlət idarələrinin xərci üçün ödəməlidirlər. Üstəlik bütün bu xərclərdən əlavə 500 milyon Ingiltərənin xəzinəsinə göndərməlidirlər."

500 milyon lirə məsələsinin üstü açılan zaman ingilislər məşhur жurnalların birində ona belə bir kəskin bir cavab verdilər:

"Bu məbləğ hind qövmlərinə verilən nizamlı və əmin-amanlı bir hökumətin qiymətidir"

Halbuki mübaliğəsiz desək, bu "nizamlı və əmin-amanlı hökumətin" ildə aclıqdan verdiyi tələfat qanlı bir müharibənin tələfatından çox idi.

***Qrandidiya*** deyir:

"Hindistanın əksəriyyətini təşkil edən əkinçi sinfi yerli hakimlərin hökuməti zamanı sahənin məhsullarının yalnız altıda birini vergi olaraq ödəyirdilər. Lakin ingilislərin zamanında məhsulun yarısını verməli idilər. Əgər bir kəs vergi verməkdən boyun qaçırsaydı, əmlakı müsadirə olunardı"

Sonra əlavə edir:

"Bu üsul əkinçiləri elə fəlakətə salmışdır ki, ondan o tərəfə təsəvvür etmək mümkün deyildir!"

Özü ingilis olan Hindman İngiltərənin Hindistandakı hökumət üsulu haqqında çoxlu axtarışlardan sonra bildirdi:

"İngilislər bir tərəfdən əhalini elə ağır vergilərlə sıxırlar ki, acından ölürlər, digər tərəfdən isə, öz mallarının orada satışını artırmaq qəsdilə oranın zavodlarını elə iflasa uğradıb ki, hamısı bağlanmışdır."

Sonra isə maraqlı bir proqnoz verərək deyir:

Biz tarixdə görünməmiş bir hadisəyə və faciəyə doğru gedirik?... Ingiltərə üçün Hindistanın müstəqillik hərəkatından böyük nə faciə ola bilər.

Bu ingilis sözlərinin birində deyir:

"Dəhşətli işlərdən biri də budur ki, Hindistanın şimal-qərbi əyalətləri öz taxıllarını ölkədən xaricə göndərməyə məcbur olmuşlar. Halbuki onların 300 min nəfəri bir neçə ay ərzində aclıqdan ölmüşlər.

Rəsmi məlumata görə 1887-ci ildə təkcə Mədras əyalətində əhalinin 935000 nəfəri həlak olmuşdur"!! Hindman bu cür hadisələrin səbəbini izah edərək bildirir ki, əkin sahələrinə ağır vergilər qoyulurdu, əkinçilər də məcbur olub sahələrə normadan artıq əkin əkdikləri üçün torpaqlar tamamilə öz məsuldarlığını itirdi və aradan getdi.

Maraqlı burasıdır ki, Hindman qeyd olunan statistik göstəricini o zamanın mötəbər жurnallarından birində (19-cu əsr) dərc etdirdi və onun sözünə heç kim etiraz etmədi.

Şərqşünas Qustav Lebon kitabının haşiyələrindən birində yazır:

"İngilislərin, öz yerli muzdurlarına xərclədikləri puldan əlavə Hindistandan 20 il müddətində apardıqları xalis gəlirlərinin məbləği 10 milyarda çatırdı (yəqin ki pul vahidi olaraq lirə nəzərdə tutulur)."

Sonra əlavə edir: "Onların bəzi muzdurları bir kral, yaxud nazir qədər hüquqa malik idilər."

Əziz oxucu. Kollektiv köləlik bundan başqa cür ola bilərmi? Quldarlıq dövründə belə geniş şəkildə təcavüzkarlıqlar görünürdümü? Odur ki, sözügedən şərqşünüas sözlərinin birində aşkar şəkildə bildirir ki, ingilislər Hindistan əhalisinin başına köləlikdən də min dəfə pis olan müsibətlər gətirdilər.

Güman etməyin ki, bu məsələ İngiltərəyə və Hindistana məxsusdur. Əksinə, quldarlığı ləğv edən digər "mədəni" dövlətlərdə də buna oxşar hadisələr baş verirdi. Burada İngiltərənin müstəmləkçiliyi barədə söhbət etdiyimizi görürsünüzsə, bunun səbəbi onların quldarlığı ləğv etməkdə qabaqcıl olmalarıdır.

Müstəmləkəçiliyin tarixindən hətta avropalı şərqşünasların belə öz mədəniyyət tarixlərinin qəmli bir səhifəsi hesab etdikləri digər bir nümunə avropalıların geniş Çin ölkəsi ilə rəftarları idi. Belə ki, şərqşünaslardan biri illərlə öncə müstəmləkəçilərin Çindəki cinayətlərini açıqladıqdan sonra etiraf etdi ki, "Bəlkə də bir gün gələcək ki, bizim gələcək nəslimiz bu çirkin əməllərin cəzasını ən pis şəkildə alacaqdır və çinlilər onlardan intiqam alacaqlar."

Bu ictimai proqnozda necə də həqiqət vardı və bundan böyük nə intiqam ola bilərdi ki, çinlilər o qədər çoxsaylı əhali ilə müstəmləkəçi dövlətlərin düşmənləri sırasına qoşuldular.

Avropalıların Çinlə əlaqələrinin tarixində ən acınacaqlı hadisələrdən biri də məşhur tiryək müharibəsidir. İngilislər həm tiryək alverindən çoxlu qazanc götürmək, həm də Çin xalqını bu yolla məst edib özlərinə tabe etmək üçün bu həlakedici zəhəri Çinə daxil etdilər və Çin dövləti bunu qəbul etməyə hazır olmadığı üçün zorakılıqla, toplardan atəş açmaqla qanlı, eyni zamanda rüsvayçı bir müharibə ilə tiryəki bu ölkəyə daxil edərək yazıq və kimsəsiz sakinləri tiryəkə qurşandırılar!!

Tarixçilərdən biri yazır: "Tiryək alveri ingilislərə ildə 150 milyon lirə qazanc gətirirdi. Bunun əvəzində isə, doktor ***<u>Kristilib</u>***in qeyd etdiyinə əsasən ildə 600 min çinli zəhərlənmə nəticəsində dünyasını dəyişirdi."

Çox sadə şəkildə hesablamaq olar ki, onların nəzərində hər bir çinlinin canı 250 lirəyə bərabər imiş və inanmıram ki, quldarlıq zamanı da qulların qiyməti bundan az olmuş olsun. Bu fərqlə ki, quldarlar öz qullarını onlardan istifadə etmək üçün diri saxlayırdılar, müstəmləkəçilik zamanı isə, onları öz mənafeləri üçün zəhərləyib məhv edirdilər! Amma yenə də Allaha şükürlər etməliyik ki, quldarlıq bütün mədəni dövlətlər tərəfindən ləğv olundu və bu müqəddəs işə ilk addım atan Ingiltərə idi!

1848-ci il inqilabından sonra quldarlığı ləğv edən həmin Fransa dövləti bu gün Afrikanın şimalında öz müstəmləkələrini qorumaq üçün quldarlıq

zamanı da misli görünməyən cinayətlər edirlər. Elə bir gün olmur ki, günahsız müsəlmanlar bu yolda qurban verilməsin. Ən acınacaqlısı budur ki, "mədəni" dünya insanlığa qarşı olan bu əməlləri "Şimali Afrika məsələsi Fransanın daxili məsələsidir və ölkələrin daxili işlərinə qarışmaq olmaz" - deyərək dəstəkləyirlər.

Mədəni xalqların Amerika və Okeaniya kəşf olunduqdan sonra yerli əhali ilə etdikləri rəftar özü geniş bir söhbətdir və bu barədə mütaliə edərkən barbarlar zamanının əfsanələri insanın gözü önündə canlanır. Qustav Lebon yazır:

"Tərbiyə görmüş mədəni xalqlar ovçuya, Amerikanın və Okeaniyanın vəhşiləri (yerli əhalisi) isə dovşana bənzəyirlər. Gördüyümüz kimi bu gün onların hamısı məhv olmuşdur."

Həmin alim şərqlilərin qərblilərə nifrətinin səbəbi haqqında yazır:

"Məsələnin əsl səbəbini gizlətməyə heç bir lüzum olmadığı üçün açıq deyirəm. Bu nifrət Avropanın mədəni xalqlarının qeyri-mədəni vəhşi xalqlara qarşı göstərdikləri rəhmsiz rəftarın və sıxıntıların nəticəsidir."

Bəlkə də xatırlatmağa ehtiyac yoxdur ki, bu sənədləri və şahidləri qeyd etməkdən məqsədimiz siyasi bir bəhsi izləmək deyidir. Biz yalnız elmi, ictimai bir həqiqəti çatdıraraq sübut etmək istəyirik ki, sizin və bizim arzuladığımızın və sadəlövh insanların inandığının əksinə olaraq indiki sivilizasiya, daha dəqiq desək sənayenin inkişafı və mexanikiləşmə quldarlığın köklərini nəinki dünyadan silə bilməmiş, hətta onu bir az da təkmilləşdirmişdir.

Şübhəsiz ki, bu gün müstəmləkələrin azadlıq sədaları dünyanın hər tərəfindən eşidilir və tədricən müstəmləkələrə azadlıq veriləcəkdir. Belə görünür ki, müstəmləkəçiliyin də dövranı başa çatmaq üzrədir, Lakin diqqətlə baxanda görürük ki, bu da formal dəyişiklikdən başqa bir şey deyildir və müstəmləkəçiliyin, quldarlığın ruhu başqa adlarla hələ də zəif millətlərə hökmranlıq etməkdədir. Protektorat və qəyyumluq altında olan ərazilər, başçı təyin olunan ölkələr və buna oxşar adlar müstəmləkəçilik sözünü əvəz etmişdir. Görəsən bunları hansı adlar əvəz edəcəkdir?

Təkcə Avropanın şərqində Sovet Rusiyasının başçı təyin etdiyi təqribən 16 ölkə vardır. Bu kiçik xalqlarla olunan rəftar quldarlıq zamanı qullarla olunan rəftardan dəfələrlə acınacaqlıdır! Hətta Sovet Rusiyasının özündə hökumət üsulu və hakim sinfin xalqa qarşı etdiyi hərəkətlər qul alveri zamanının dəhşətli hadisələrini xatırladır.

Hər bir mütəfəkkir üçün diqqətəlayiq olan və onu indiki mədəni cəmiyyətlərin bədənində müstəmləkəçilik və quldarlıq ruhunun nüfuz etməsindən xəbərdar edən məsələ müstəmləkələrə muxtariyyət və azadlıq

Elə buradandır ki, insan, fərdlərin hüquqlarını təmin edəcək hakim bir qanun olmadan cəmiyyətin yaşayışının, qalmasının və insan növünün həyatının imkansız olacağını hiss edir. Odur ki, insan cəmiyyətində müntəzəm surətdə qanunlar qoyulmuşdur. Yalnız bu fərqlə ki, qeyri-mütərəqqi cəmiyyətlərdə qanunlar siniflərarası çəkişmələr vasitəsilə öz-özünə güclülərin xeyrinə nəticələnir və cəmiyyətdə nizamsız şəkildə həyata keçirilir. Mütərəqqi cəmiyyətlərdə isə ölçülüb biçilmiş şəkildə qanunlar verilərək xalqa zorla qəbul etdirilir nisbətən nizamlı formada icra olunur. Eyni zamanda öncə güclü fərdlə zəif fərdlər və ya güclü fərdlə zəif cəmiyyətlər arasında olan zorakılıqlar hazırda qüdrətli cəmiyyətlərlə zəif cəmiyyətlər arasında davam etməkdədir.

**5-İxtilafın çarəsi**

a) Bu ixtilafı insan öz formalaşdırdığı qanunlarla aradan götürə bilərmi?

Yaxud insanın hansısa bir gün öz istismarçılıq ruhundan əl çəkəcəyini və əməkdaşlıq cəmiyyətini öz şəxsi mənfəətləri

---

verilməsidir! Bu özü göstərir ki, onların müstəmləkələrdən əl çəkmələri öz səhvlərini düzəltmək, yaxud günahlarını yumaq üçün deyildir. Əksinə, əvəzində bir şey istəmədikləri həyati bir bəxşiş adı ilə yüz minnətlə bu işi görürlər. Yəni "İnsan haqları bəyannaməsinin" əksinə, faktiki olaraq azadlıq və müstəqillik haqqını özlərinə məxsus bilirlər və təntənəli mərasimlər keçirərək mərhəmət göstərdikləri hər kəsə azadlıq verirlər ***(Yəni mədəni dövlətlərin icazəsi olmadan başqaları azadlıq hüququna malik deyildir. tərcüməçi)***. Quldarlıq zamanı bir və ya bir neçə qul azad etmək qul alverinin ləğv olmasını yox, əksinə ağanın öz qulu üzərində hakim olmasını bildirdiyi kimi müstəmləkələrə azadlıq verilməsi də müstəmləkəçiliyin ləğv olması demək deyildir. Bəli, əgər müstəmləkəçilər öz günahlarını etiraf edib üzrxahlıqla və müstəmləkəçilik zamanı etdikləri cinaytlərin cəriməsini ödəməklə müstəmləkəçilikdən əl götürsəydilər, bəlkə də onu azadlıqsevərlik ruhunun onlara hakim olmasına dəlil hesab etmək olardı.

Nə qədər ki, əqidə və imana əsaslanan yüksək insani əxlaq hökumətinin qanunları bütün cəmiyyətlərə yayılmayıb, bu kimi proseslər davam edəcəkdir. Baş verən dəyişikliklər isə ümumi olaraq formal xarakter daşıyacaqdır.

üçün deyil, cəmiyyətin və ədalətin özü üçün istədiyini fərz etmək olarmı?

Şübhəsiz ki, yox.[47]* Çünki deyildiyi kimi insan öz istismarçılıq ruhunun və təhtəlşüurunun təsiri ilə cəmiyyəti öz mənafeyi üçün istəyir və nə qədər ki, insan insandır o, öz təhtəlşüurunu, yəni xüsusi quruluşunun məhsulu olan öz subyektiv hissiyyatlarını itirməyəcək. Dünyanın ən sınanmış təcrübəsi sayılan bəşər tarixinin neçə min illik təcrübəsi bu mətləbi təsdiq edir. İnsan bu ixtilafın bataqlığından qurtarmağa can atdıqca daha çox zəncirlənir. Keçmiş dövrlərdə bir daş tullamaqla bir nəfər öldürən insan indi bir bomba atmaqla bir "Herosima" şəhərini yox edir. Bir gün bir gücsüz insanı əsir edib öz quluna çevirən və onun zəhməti ilə bir az qəpik-quruş qazanan insan hal-hazırda milyonlarla qula və milyardlarla lirəyə və dollara qane olmur...

Ümumiyyətlə insanın ixtilaf və fəsada səbəb olan instinktiv şüuru eyni zamanda ixtilafın aradan qaldırılmasının mənşəyi və fəsadın yox edilməsinin amili də ola bilərmi? Halbuki, varlıq aləmində müəyyən bir şeyin yaranmasına və eyni zamanda həmin şeyin məhv edilməsinə sövq edən heç bir amil yoxdur.

Bundan əlavə, bu qanunlar insanın təhtəlşüuruna və gizli hissiyyatına deyil, xalqın ictimai iş və rəftarlarına nəzarət edir. Halbuki, ixtilaf insanın təhtəlşüurundan və gizli hissiyyatından

---

[47]* Şübhəsiz insaf və ədalətsevərlik hissi o qədər güclü, vicdanı o qədər ayıq olan nadir şəxslər tapıla bilər ki, eqoizm hissini özündən uzaqlaşdırıb ədaləti ədalətə və cəmiyyəti cəmiyyətə xatir sevsinlər. Lakin sözsüz ki, bu nümunəvi şəxslər heç vaxt ümumi təfəkkür tərzinə əsaslanan ictimai hesablamalarda əsas götürülə bilməz. Çünki elmi şəkildə bildiyimiz kimi və təcrübənin sübut etdiyinə görə, hər bir şeydən daha artıq insanın vücuduna hakim olan özünüsevmə hissidir və həqiqətdə haqqında danışılan nümunəvi nadir şəxslər "Bir gül ilə bahar olmaz" məşhur zərbülməsəlin ən bariz nümunələridir.

baş qaldırır.[48]* Bu izahla tam aydın olur ki, bu ixtilafın həlli yolu insanın daxili hisslərinin islah edilməsidir. Insanın daxili hisslərini gücləndirərək qanunların islah edilməsi ilə ixtilafın aradan qaldırılması mümkün deyil.

Ümumiyyətlə bəşər arasında yalnız üç ictimai üsul olmuş və olmaqdadır:

1- Xalqın müqəddəratını hikmətsiz iradənin ixtiyarına buraxan mütləqiyyət üsulu. Onun könlündən keçən hər şey camaata qəbul etdirilməlidir.

---

[48]* Burada bəşər qanunları ilə ixtilafların həll ola bilməməsi iki yolla isbat olunmuşdur:

1) İctimai ixtilafların və təzavüzkarlıqların amili adətən insana hakim olan eqoizm hissidir. Odur ki, istər-istəməz bu hissin hakim olduğu insan özü ixtilafları həll edən və təzavüzkarlıqların qarşısını alan amil ola bilərmi? Necə ki, münaqişə edən iki tərəf özləri heç vaxt vasitəçi rolunu oynaya bilməzlər.

Bu qanun fəlsəfədə “Bir şeyin bir iki zidd obyektə səbəb olmasının qeyri-mümkünlüyü” adı ilə tanınmışdır. Bundan əlavə, insanın öz fikri ilə belə bir qanunları qoya biləcəyini fərz etsək də, müqəddimələrdə dediyimiz kimi onun icrası mümkün olmayacaqdır.

2) Bəşər qanunları fikirlərə, əxlaqa və hisslərə deyil, əməllərə nəzarət edir. Halbuki insanların əməlləri onların daxili hisslərindən və fikirlərindən qaynaqlanır və bunları düzəltmədən əməlləri düzəltmək mümkün deyildir.

Bu günkü cəmiyyətlərdə insanların fikirləri və hissləri ilə məşğul olan mədəniyyət mərkəzləri olsa da, mədəniyyətin digər ictimai sistemlərdən ayrıca bir sistem olduğunu güman etmək və onun fikirlərə, hisslərə hakim olub onlarda daxili və vicdani məsuliyyət yaradacağını gözləmək olmaz. Çünki o mədəniyyətin başçıları da həmin cəmiyyətin fərdləridir və onların ən çoxu edə biləcəyi iş öz fikirlərini öz əlaltılarına aşılamaq və özləri kimi şəxslər yaratmaqdır. Buna görə də əgər onların özləri gizlində qayda-qanunlara tabe olmasalar, başqalarını necə qanunlara tabe edə bilərlər.

Bundan əlavə, iman və əqidə olmadan mədəni təlim-tərbiyələrin icrası mümkün deyildir. Çünki indiki cəmiyyətlərin hüquq qanunlarında əxlaq və düşüncə üçün heç bir hökm yoxdur və mədəni təlim-tərbiyələr ümumi şəkildə xəbərdarlıq xarakteri daşıyır.

2- Xalqın işlərinin idarəçiliyini qanuna tapşıran və bir fərdin, yaxud bir qrupun vasitəsilə bu qanunların icra olunduğu ictimai hökumət üsulu.

3- Yaradanın təşrii iradəsinin xalq arasında bütün camaatın əli ilə hakim olduğu və tövhid, əxlaq və ictimai ədalət prinsiplərinə zəmanət verən dini üsul.

Birinci və ikinci üsul xalqın yalnız işlərinə nəzarət edir, etiqad və əxlaqla işi yoxdur. Bu iki üsula əsasən insan qanun maddələrindən kənarda, yəni etiqad və əxlaqda azad olur. Çünki, bu cür cəmiyyətlərdə ictimai qanunların fövqündə etiqad və əxlaqın icra olunmasına zəmanət verən bir qüvvə yoxdur. İnsanın daxili sifətlərinə və etiqada zəmanət vermək və islah etmək əzmində olan yeganə üslub din üslubudur ki, hər üç cəhətə: etiqad, əxlaq və rəftarlara nəzarət olunur.

Nəticə: ictimai ixtilafların həqiqi həlli yalnız dini üsuldadır.

**6-Din ağıl və zəkadan deyil, səmavi vəhydən qidalanır.**

Insan cəmiyyətindən ixtilafların qaldırılmasının insan təkamülünün xeyrinə olduğunu, digər yöndən dinin, ixtilafların həll edilməsinin yeganə yolu olduğunu, başqa bir baxımdan isə yaradılış sisteminin, hər növü onun həqiqi kamilliyinə doğru yönəltdiyini nəzərə alaraq qəti şəkildə demək olar ki, yaranış sistemi insaniyyət üçün haqq və layiqli dini təyin edib insanlıq aləminə vəhy etməlidir. Bu isə cəmiyyətdə olması lazım olan həmin haqq dindir.

## *Etiraz*

İxtilafların həllinin dinlə yerinə yetirilməli olması doğrudur, lakin yaranış sistemi ictimai şüur vasitəsi ilə etdiyi ilhamla xalqı doğru əqidə, bəyənilmiş əxlaq və gözəl işlərə dəvət edən dahi və xeyrxah şəxslər formalaşdırır. Peyğəmbər adlanan şəxslər elə bunlardır.[49]*

---

[49]* Bu iradı söyləyən şəxs təkamül qanununun yaradılış sisteminin əsası olmasını etiraf edir. Çünki öncə deyilənlər əsasında bu məsələ sübut olundu

**Cavab**

Deyildiyi kimi öz fikri qüvvəsinə və daxili hissiyyatlara əsaslanaraq ixtilafa sövq edən elə amil insanın ictimai şüurudur. Şübhəsiz ki, belə bir amil ixtilafın həll edilməsinə vasitə ola bilməz.

Buradan da aydın olur ki, yaranış sistemindən dini ilham yolu ilə alınan bu insani idrak, adi fərdlərdə mövcud olan əqli idrakdan fərqlənir. Bu xüsusi idrak "vəhy" adlanandır.

**Etiraz**

Insanda belə bir idrak olsaydı, bütün fərdlərdə olardı və peyğəmbər adlanan xüsusi bir qrupa məxsus olmazdı.

**Cavab**

Fərdlərdə potensial şəkildə olan üstünlük və kamilliklər bəzən reallaşmaya da bilər. Necə ki, şəhvət və cinsi meyl bütün fərdlərdə potensial şəkildə vardır, bununla belə bütün fərdlərdə deyil, yetkinliyə çatmış fərdlərdə özünü büruzə verir və reallaşır.

---

və onu həm dindarlar, həm də qeyri-dindarlar qəbul edir. Lakin dinlə zidd olan bir qrup deyir: “Təkamül prosesinə yaradılış sistemi tərəfindən zəmanət verilməsinə baxmayaraq, bu məsələ cəmiyyətlərdə dahi şəxslər yetişdirmək yolu ilə həyata keçə bilər ki, öz fitri dühası və yüksək fikirləri ilə cəmiyyətləri əxlaqa və ictimai ədaləti riayət etməyə dəvət etsinlər. Bunlardan başqa peyğəmbər adlı şəxslərə isə lüzum olmaz. Tarix boyu peyğəmbər adalnan şəxslər əslində bu cür dahi şəxslər olmuş və öz pak düşüncələri ilə müsbət islahat aparmışlar. Vəhy və yuxarı aləmlə əlaqə məsələsinə isə heç bir lüzum yoxdur.”

Bu iradın cavabında deyilir ki, dahi şəxslər əqli yolla bu işə nail olmaq istəsələr, şübhəsiz ki, hədəfə çatmayacaqlar. Çünki öncə deyildiyi kimi, əqli yol insanı özünü sevməyə və başqalarını istismara, nəticə etibarı ilə mövcud ixtilafların daha da güclənməsinə çağırır. Buna görə də bu işi həyata keçirmək istəyən şəxslər bəşərin əqli idraklarına malik olmalı, lakin onu əqli yox, başqa mənbədən almış olmalıdırlar. Bu isə vəhy adlandırdığımız yoldan ibarətdir.

Istər keçmiş, istərsə də bir çox müasir psixoloqlar (misal olaraq ingiltərəli Ceyms öz psixologiya kitabında) aydınlaşdırmışlar ki, insanın, bu ruhundan əlavə “səhnə” arxasında başqa ruhu (yaxud ruhun digər bir mərtəbəsi) vardır ki, ona doğru yol açsa, (asketlərdə təsadüf olduğu kimi), başqalarına gizli olan bir çox qeybi sirlər onun üçün aydın olar.

**7- Peyğəmbərlərin sözləri vəhy nəzəriyyəsini təsdiq edir.**

Dəlil vasitəsilə aldığımız nəticə budur ki, bəşərdə zehni idrakdan əlavə insan cəmiyyətini ixtilaf və çəkişmələrdən xilas edə bilən və layiqli fərdlər yetişdirən başqa batini idrak da olmalıdır.

Peyğəmbərlərdən nəql edilmiş sözlərə müraciət edərkən görürük ki, onların kəlamları da həmin nəzəriyyəni təsdiq edir və aydın şəkildə bildirir ki, nübuvvət sirli bir Allah vergisi və xüsusi idrak olaraq peyğəmbərlərdə mövcud olmuş və peyğəmbərlər onun vasitəsilə haqq tərəfindən olan dini bilgilər və səmavi şəriətlər almışlar. Həmçinin deyilən dəlilin peyğəmbərlərin çağırışı ilə uyğunluğu onların çağırışının da doğruluğunu sübuta yetirir.[50*]

---

50* Peyğəmbərlərin sözlərinə diqqət edərkən görürük ki, onlar da həmişə maddi aləmdən üstün bir aləmlə əlaqə barəsində danışırlar və öz göstərişlərini və təlimlərini ümumi şəkildə o aləmdən bilirlər. Onların danışıqlarından və rəftarlarından aydın olur ki, vəhy məsələsində azacıq belə şəkləri olmamış, son nəfəsədək o aləmdən aldıqları göstərişlirin həyata keçirilməsi yolunda fədakarlıq edərək qəribə müqavimət göstərmişlər. Peyğəmbərlər heç zaman bir islahatçı, yüksək fikirlərə malik olan bir dahi dili ilə danışmamışlar. Bu mətləb onların sözlərindən və əməllərindən o qədər aydındır ki, başqa heç bir ehtimal yeri qalmır. Keçən mətləblər ilə peyğəmbərlərin sözləri arasındakı uyğunluq onların bir-birini təsdiqləməsinə səbəb olur. Yəni bir tərəfdən peyğəmbərlərin, vəhyin adi bir əqli yol deyil, sirli yol və aləmin idarəçisi olan Allahla rabitə olması haqqındakı sözləri bizim öncə dediklərimizi təsdiqləyir, digər tərəfdən isə, peyğəmbərlərin sözlərininin vəhyin sirli bir rabitə olması barəsində öncə qeyd etdiyimiz dəlillərlə uyğunluğu onların düz danışmasına dəlildir.

Buradan da aydın olur ki, nübuvvət sosioloqların fikirləşdikləri kimi bir növ ictimai fikrin dühası deyil. Həmçinin vəhy ictimai bir dahinin pak fikirləri də deyil. Əksinə deyildiyi kimi nübuvvət qeyri-fikri sirli idrak, vəhy isə bu idrak vasitəsi ilə əldə olunan həqiqətlərdir.

**Etiraz**

Mümkündür deyilsin ki, əqldən başqa vəhy adlı bir yolun da olduğunu sübut edən keçən nəzəriyyə buna əsaslanır ki, yaradılış sistemi bütün növlərdəki metoduna uyğun olaraq insan növünü də öz kamilliyinə, yəni ictimai ixtilafların həllinə çatdırmalı olduğu üçün əqldən başqa vəhy adlı bir yolla bu ixtilafların aradan qaldırılması yollarını insanlara çatdırır.

Amma biz din və nübuvvətin bəşəriyyət arasında ömür sürdüyü bu uzun müddət ərzində ixtilafların aradan götürülməsinə nail olmadıqlarını görürük və əgər deyildiyi kimi vəhy təkvini bir mərhəmət olsaydı, heç vaxt təsirsiz olmazdı. Əsasən bu günün mədəni dünyası dini qəbul etmir və mədəniyyət inkişaf etdikcə din bir o qədər geriyə çəkilir.[51*]

---

[51*] Bu iradı irəli sürən şəxs demək istəyir ki, əvvəla din və nübüvvət də insan cəmiyyətlərindəki ixtilafları aradan qaldırmağa nail olmamış və üst-üstə götürdükdə insan cəmiyyətinin təkamülünə kömək etməmişdir. Bundan əlavə, əgər dinlər belə bir təsirə malik olsaydı, mədəni cəmiyyətlər dini xoş qarşılayardılar. Çünki elə onlar da belə bir şey axtarırlar.

Bu iradın cavabında üç məsələyə işarə olunmuşdur:

1) Dinlər tarix boyu minlərlə yüksək əxlaqa sahib olan fəzilətli insan yetişdirmişdir. Odur ki, insanlığın təkamülünə kömək etmişdir.

2) Insan cəmiyyətlərində ədalət, məhəbbət, fədakarlıq, iffət, düzgünlük, doğruluq, əmanətdarlıq və s. kimi yüksək əxlaqın və insani duyğuların müxtəlif nəticələri görünür (Hərçənd hələ ki öz kamilliyinin son mərhələsinə çatmamışdır). Bu əxlaqi xüsusiyyətlərin ixtilafların azaldılmasında və onların həll olmasında diqqətəlayiq rolu vardır. Məsələ o qədər aydındır ki, bəlkə də bundan artıq izaha ehtiyacı yoxdur. Digər tərəfgən isə, bu əxlaqi xüsusiyyətlərin yaranmasında dinlərdən başqa bir amil görünməmişdir. Çünki tarix bizə əxlaq üçün dinlərdən başqa bir zəmanətçi göstərmir. Odur ki, ictimai ixtilafların aradan qaldırılmasının əsas amili olan əxlaqın müəyyən qədər təkamülü yalnız peyğəmbərlərin və

**Cavab**

“Ixtilafların həlli yolunda dinin heç bir rolu olmamışdır” sözünə gəldikdə isə, nəzərə alınmalıdır ki, əvvəla yaradılış sisteminin insan cəmiyyətini islah etməyə olan xüsusi diqqəti insan fərdlərinin təkamülü üçündür və din uzun illər boyunca milyonlarla saleh insanı kamilləşdirib cəmiyyətə təhvil vermişdir. Ikincisi cəmiyyətdə dinin üzə çıxması və dini şəxsiyyətlərin yaşayışı əxlaqi sirayət etmə və əxlaqi irsiyyət yolu ilə insan cəmiyyətinin hər bir tərəfinə yayılaraq şücaət, igidlik, mərdlik, şəfqət, iffət, səxavət, hikmət və ədaləti kimi gözəl insani xüsusiyyətləri könüllərdə becərmiş və indi də dindar və ya dinsiz olmasından asılı olmayaraq bütün insanlar onların şirin meyvələrindən bəhrələnirlər.

---

dinlərin sayəsində baş vermişdir. Buna görə də maddiyyata tərəf gedən cəmiyyətlər tədricən əxlaqi fəzilətləri itirirlər və zərif insani duyğular onlarda aşkar şəkildə zəifləyir, kobudluq və mənfəətpərəstlik hissi onların yerini doldurur.

3) Dinlərin indiyədək ixtilafları tam şəkildə aradan qaldıra bilməməsi (hərçənd müəyyən qədər buna nail olmuşdur) o demək deyildir ki, gələcəkdə də bu iş həyata keçməyəcəkdir. Çünki yaradılış sisteminin öz üzərinə götürdüyü təkamül qanununa əsasən nəhayət bu iş baş verəcəkdir və əvvəlcə deyildiyi kimi bunun dindən başqa yolu yoxdur. Müasir mədəni cəmiyyətlərin dinin proqramlarını qəbul etməkdən imtina etməsi isə heç də o demək deyildir ki, din ictimai ixtilafları həll etməyə qadir deyildir. Çünki gözlə görürük ki, bu cəmiyyətlər insanın elminin və əqlinin hökm etdiyi bir çox ictimai normaları qəbul etmirlər və bunun nəticəsində bütün bu cəmiyyətlərdə xüsusi bir iztirab və təşviş müşahidə olunur. Məsələn, heç kəsin düzlüyündə şübhə etmədiyi ədalət prinsipi cəmiyyətlərin əksəriyyətində riayət olunmur və həmişə müxtəlif cəmiyyətlər və fərdlər tərəfindən pozulur. Indiki cəmiyyətlərin bu prinsiplərə etinasızlığını prinsiplərin düz olmamasına dəlil hesab etmək olarmı?

Biz bu müqəddimələrdə aydın və canlı sənədlərə əsaslanaraq indiki mədəni cəmiyyətlərin dini və əxlaqi normalardan uzaqlaşmasının əsas səbəblərini geniş şəkildə izah etdik və bir daha sizə bu barədə diqqətli olmağı və mütaliə etməyi tövsiyə edirik.

Şübhəsiz ki, ən qədim insanlıq dövrlərindən indiyədək həmişə fəal olan dini çağırış cəmiyyət arasında əxlaqi cəhətdən təsiri olmuşdur və dindən başqa heç bir həyat tərzi bəşəriyyət arasında əxlaqi xüsusiyyətlərə zəmanətçi olmadığı üçün bu xüsusiyyətlərin onlardan qaynaqlandığını söyləmək olmaz və heç vaxt bəşər dindən başqa yolla əxlaqi xüsusiyyətləri qoruya bilməz. Çünki dinə zidd həyat tərzini seçən millətlər yarım əsrdən az müddət ərzində şəfqət, rəhm, ədalət və s. kimi əxlaqi xüsusiyyətlərini itirdilər. Deməli hər halda əxlaqi fəzilətlərin bəşər arasında varlığını dini çağırışın nəticələrindən bilmək lazımdır. Bundan əlavə, hələ dünyanın ömrü sona yetməmişdir və haradan məlumdur ki, bir gün haqq din yer üzünü bürüməyəcək, bəşəriyyət doğruluq və əmin-amanlıq içində yaşamayacaq?

"Bu günkü dünya dini qəbul etmir" sözünə gəlincə, xatırlatmaq lazımdır ki, dünyanın gecə-gündüz ictimai ədalət, sülh, asayiş və doğru cəmiyyət bərqərar etməyə çalışmasına baxmayaraq bəşər bütün bunları da qəbul etmir və dünya insaniyyətin ilk mərhələsindən indiyədək öz məqsədinə hələ də nail ola bilməmişdir. Halbuki, doğru cəmiyyət yaradılış sisteminin hədəflərindəndir və nübuvvət yolu ilə də təmin olunmasa, ən azı qəti fikir yolu ilə təmin edilməlidir.

**8- Vəhy və nübuvvət ilahi nemətdir, qazanılan bir məqam deyil.**

Bəlkə də güman oluna bilər ki, insanların, başlanğıcı elə də aydın olmayan çox qədim zamandan fiziki və ruhi məşqlərin, xüsusi çalışmaların nəticəsində qeybə doğru yol açdıqlarını, yəni adi təlim-tərbiyə yolu ilə əldə olunmayan bir sıra işlərin onlara aydınlaşdığını nəzərə alarkən görürük ki, vəhy və nübuvvət məsələsini də bu yolla izah etmək mümkündür. Qədim əsərlərdə və səyyahların səyahətnamələrində asketizm mövzusuna aid çoxlu nümunələr tapılır, hətta bu günkü qəzet və jurnallarda müntəzəm surətdə hindistanlı, afrikalı, avropalı

və başqa asketlər barəsində hadisələr oxuyuruq. Eləcə də keçən fəsillərdə işarə olunduğu kimi qədim və müasir psixoloqlar da bu reallığı təsdiq ediblər. Məlum olduğu kimi asketlər qeybi məlumatları kəşf edərkən onlara üz verən ruhi hallar peyğəmbərlərdəki vəhy adlandırılan ruhi halla eynidir. Buna görə də peyğəmbərlərin vəhyini də bu yolda izah etmək mümkündür. İslam peyğəmbərinin peyğəmbərlikdən öncə tənhalığa çəkilmə hadisəsi, həmçinin buna bənzər işlərin Məsihdən nəql edilməsi bu fikri təsdiq edir. Deməli peyğəmbərlik bir sıra asketik məşqlər nəticəsində yaranan qeyblə bağlılıq vəziyyətidir.

Lakin vəhyin varlığı sübut edib daha sonra peyğəmbərlərin öz sözləri ilə təsdiq etdiyimiz keçən izahatlardan bu təsəvvürün batilliyi aydın olur.

Asketlərin ruhi hallarında səhv və yanlışlıq da ola bilər. Halbuki, peyğəmbərlərin hallarında heç bir səhv ola bilməz. Asketlər ilə az-çox əlaqəsi olan şəxslər bilirlər və hətta asketlərin özləri belə etiraf edirlər ki, ruhi məşqlər nəticəsində onlara gələn qəlbi ilhamlar bəzən səhv də ola bilər, həmçinin bu yoldan əldə edilən nəticələr həmişə bəşəriyyətin və insan cəmiyyətinin xeyrinə olmur. Hətta çox vaxt insan yaşayışının ehtiyac duymadığı faydasız və əyləncəli şeylərlə bağlı olur. Bunlar asketlərin ilhamlarının aşkar xüsusiyyətləri və nəticələridir.[52*] Peyğəmbərliyin xüsusiyyətləri və nəticələri isə

---

[52*] Qısa şəkildə desək, peyğəmbərləri asketizm yolu ilə bir sıra qeyri-adi işlər görən və qeybi biliklər əldə edən şəxslərlə müqayisə edərkən vəhyin və nübuvvətin qazanılma bir məqam olmaması tam şəkildə aydın olur. Çünki asketlərdə hisslə dərk olunmayan həqiqətləri ayırd etməkdə inkarolunmaz səhvlərə yol vermə çox görünmüşdür, Elə buna görə də onların özləri də öz dediklərinə tam şəkildə inanırlar. Bundan əlavə, çox vaxt elə işlər görürlər və ya elə şeylərdən xəbər verirlər ki, ya heç bir müsbət ictimai təsirə malik deyildir, ya da ziyanlara səbəb olur. Bütün bunlardan əlavə, hətta ən kamil asketik məşqlərin belə həmişə nəticəsi məhduddur bir və ya bir neçə sahəyə aiddir. Heç vaxt görünməmişdir ki, hər hansı bir şəxs asketik məşqlər

yüz faiz onların əksinə olur. Peyğəmbər qavradığı vəhydə heç vaxt şübhə və səhv etmir. Peyğəmbərlik insan yaşamı üçün birinci dərəcəli əhəmiyyətə malik olan bir sıra hədəflərlə bağlıdır. Çünki, deyildiyi kimi insanın özünün dəyişilməz məqsədinə çatması üçün "nübuvvət" yolunu ona açan, təkvin və yaradılış sistemidir. Heç zaman yaradılış sistemi və obyektiv gerçəklik səhvə yol vermir. Heç zaman obyektiv varlıqlar "yanlışlıq" xüsusiyyətilə xarakterizə olunmur. Əksinə yanlışlıq nisbi bir şeydir, yəni zehnlə obyektiv aləmi, fikirlə əməli və işlə hədəfi müqayisə edərkən ortalığa çıxır.

Heç vaxt demək olmaz ki, yaradılış sistemi insanı yeməyə, evliliyə, gözlə görməyə, qulaqla eşitməyə yaxud düşünməyə yönəltməkdə səhvə yol vermişdir, əksinə məsələn, fikri

---

nəticəsində nizamlı ictimai həyat yarada biləcək faydalı və hərtərəfli olan bir sıra həqiqətləri dərk edib cəmiyyətlərə təqdim etsin. Asketlər özləri də bunu etiraf edirlər və heç vaxt belə bir iddiada olmamışlar. Halbuki peyğəmbərlər hər üç məsələdə onların əksinədirlər:

Onlar bir tərəfdən öz dediklərinə o qədər inanırlar ki, hətta bir addım da geri çəkilməyə razı deyillər. Peyğəmbərlərin həyat tarixi və onların cəmiyyətlərlə davranış tərzi bu həqiqəti tam şəkildə aydınlaşdırır. Onlar adətən öz göstərişlərini və hədəflərini çatdırmaqda ən aydın sözlərdən istifadə etmişlər. Həmişə elə danışmışlar ki, sanki dedikləri həqiqətləri gözləri ilə görürlər. Buna görə ömürlərinin sonunadək o həqiqətlərin yolunda müqavimət göstərmiş və fədakarlıq etmişlər. Islam peyğəmbərinin dedikləri, xüsusilə mübahilə məsələsi peyğəmbərlərin öz fikirlərinə və göstərişlərinə inamının ən bariz nümunəsidir.

Digər tərəfdən isə, onların göstərişləri adətən doğumdan ölümə qədər ictimai həyatın bütün sahələrinə aid olan aydın praktiki bir proqram olmuşdur. Bu məsələ onların çağırışının keyfiyyətini araşdırmaqla aydın olur.

Nübuvvət yolu ilə asketizm yolunun fərqli olması və nübuvvətin qazanılan bir məqam olmaması haqqındakı bu bəhsdən peyğəmbərlərin hər cür səhvdən məsum olması məsələsi də tam aydın olur.

obyektiv aləmə tətbiq edərkən bəzən səhv yaranır (doğru düşünülsün).[53]*

[53]* Peyğəmbərlərin səhv etməməsi məsələsini və onun dəlilini alimlər müxtəlif şəkildə irəli sürmüşlər. Misal olaraq, dəlillərdən biri budur ki, peyğəmbərlərin göndərilməsinin əsas hədəfi insanların təkamülə çatdırılması olduğu üçün və bu isə peyğəmbərlərin cəmiyyətin fərdlərinin əqidə və fikirlərində tam nüfuz tapmasına bağlı olduğuna görə onlar səhvdən uzaq olmalıdırlar. Çünki səhvə yol vermək və ya səhvə yol vermə ehtimalı onların nüfuzuna xələl gətirər, elmi təlimlərinə və sözlərinə qarşı etimad və inam aradan gedər, nəticə etibarı ilə hədəf reallaşmaz.

Hörmətli ustad isə burada tam yeni bir metodla məsələni sübuta yetirmişdir və onu başa düşmək üçün səhvin nə olduğunu və obyektiv aləmdə heç vaxt səhvin baş verə bilməməsi məsələsini bilmək lazımdır. Səhvin mənşəyini tapmaq üçün səhvə aparıb çıxaran idrak mərhələlərini təhlil etmək lazımdır. Biz bu mərhələləri sadə bir misalla izah edirik:

Bir şəxs qapıdan içəri daxil oldu və mən yəqin etdim ki, atamdır. Lakin sonradan məlum oldu ki, səhv etmişəm və o, mənim qardaşım imiş. Deməli mən "Evə daxil olan şəxs atamdır" cümləsində səhv etmişəm. Bu səhv fikrə çatmaqda aşağıdakı mərhələlərdən keçilmişdir:

1) Şəxs qapıdan içəri daxil oldu və işıq şüaları vasitəsilə onun paltarından və bədənindən əks olunan təsvir mənim görmə orqanımda inikas oldu.

2) Bu inikas olunan təsvirləri beyin və sinirlər vasitəsilə dərk etdim və özümdən xaricdə bu təsvirlərin mənşəyinin olmasına inandım.

3) Atamı, məsələn, həmişə qara paltarda, papaqsız, xüsusi formada görmüşdüm və təsadüfən eyni həmin xüsusiyyətlər bu gün qardaşımda da var idi. Şübhəsiz ki, bu üç mərhələnin heç birində səhv baş verməmişdir. Yəni həm mənim görmə orqanımda baş verən və xüsusi təsvirin yaranmasına səbəb olan fiziki və kimyəvi proseslər, həm o təsviri beyin və sinirlər vasitəsilə dərk etmək, həm də bu xüsusiyyətlərin atamın xüsusiyyətləri ilə uyğun olması doğrudur.

4) Evə daxil olan şəxsin xüsusiyyətlərinin atamın xüsusiyyətləri ilə oxşarlığı nəticəsində güman edirəm ki, bu xüsusiyyətlərə malik olan hökmən atamdır. Yəni "Filan xüsusiyyətlərə malik olan bir şəxs daxil oldu" cümləsinin əvvəl hissəsini götürüb onun yerinə "atam" sözünü qoyuram və deyirəm ki, "atam daxil oldu". Deməli mənim yeganə səhvim həmin müqayisə yersiz əvəzetmədir ***("atam"*** sözünü ***"filan xüsusiyyətlərə malik olan bir şəxs"***in yerinə qoymaq). O da nə xaricə, nə də əqlin hökmünə aiddir. Xəyal qüvvəsinin fəaliyyətinin nəticəsidir. Çünki xarici təsirlər,

Yaradılış sistemi insanları öz son hədəflərinə istiqamətləndirmək üçün onları fitri ictimai ixtilafların aradan götürülməsinə doğru yönəldəcəkdir. Necə ki, onu yemək və nəsil artımı ehtiyacı kimi bioloji ehtiyacların təmin edilməsinə, zərər və ziyanların aradan götürülməsinə doğru istiqamətləndirir və bu istiqamətləndirmədə səhv etmir.

Bu izahla aydın olur ki, peyğəmbərlik və vəhy yolu təfəkkür yolu deyildir. Çünki, adətən fikirdə səhv olması mümkündür, digər tərəfdən isə bəşərin bütün qazanıla bilən kamillikləri təfəkkür yolu ilə olur. Bu müqəddimələrdən açıq-aydın nəticə alınır ki:

Nübuvvət ilahi nemətdir, qazanılası deyil.

**9-Peyğəmbərlər məsumdurlar**

Keçən fəslin məzmunu bu nəzəriyyənin isbatı üçün kifayətdir. Çünki vəhy, onun məzmunu bəşərin ixtilaflarını zamana uyğun olaraq həll edən və insan cəmiyyətinin xoşbəxtliyini təmin edən bir sıra qanunlar olduğu üçün yaradılış sisteminin öhdədarlığı ilə həmin cəmiyyətə çatdırılmalıdır. Bu vasitəçidə səhvin olmayacağı aydındır.

---

görmə orqanı doğrudur və əql də hökm etmir ki, bu xüsusiyyətlər yalnız atamda ola bilər və qardaşımda onların oxşarının olması qeyri-mümkündür.

Buradan nəticə alırıq ki, xarici həqiqətlərdə heç vaxt səhv ola bilməz. Eləcə də, hissi idraklarda və əqlin hökmlərində də səhv olmur. Səhv, fikri xaricə tətbiq etməkdə və bir mövzunu başqa bir mövzu ilə müqayisə etməkdədir. Bu da xəyal və vəhm qüvvəsinin fəaliyyəti nəticəsində olur (Bu məsələ hörmətli ustadın "Fəlsəfənin əsasları və realizm metodu" kitabının birinci cildinin sonunda fəlsəfi dillə geniş şəkildə izah olunmuşdur).

İndi isə səhvin həqiqəti və onun mənşəyi bizim üçün aydın olandan sonra əsas məsələnin üzərinə qayıdaq və vəhydə heç bir səhvin olmamasını sübut edək. Əvvəlcə deyildiyi kimi vəhy və nübuvvət yolu əqli yol deyil, buna görə də vəhy, xəyalla qarışıq olan əqli yoldan fərqli bir idrakdır və odur ki, heç bir səhv onda ola bilməz. Vəhy, səhvin baş vermədiyi digər xarici həqiqətlər və obyektiv reallıqlar kimi xarici həqiqətdir.

Vasitəçi isə vəhyi qavrayıb xalqa çatdıran Allahın peyğəmbəridir.

Deməli peyğəmbər 1) vəhyi qavramaqda; 2) dini qorunmaqda; 3) xalqa çatdırılmaqda səhvdən qorunmalıdır. Həmçinin aydındır ki, peyğəmbərin sözü təbliğ olduğu kimi onun iş və rəftarı da təbliğ xarakteri daşıyır.

Başqa sözlə, peyğəmbərin batini idrakı vəhyi qavrayıb qorumaqda, dili isə vəhyi xalqa çatdırmaqda səhv etməməlidir. Onun əməlləri ilə sözləri uyğun olmalıdır. Eyni zamanda, o, həyatın digər sahələrində adi bir insandır.

**Etiraz**

Deyilənlərdən belə çıxır ki, nübuvvət adlanan sirli idrak adi vasitələrin və maddi səbəb-nəticələrin əhatə dairəsindən xaricdir, yəni səbəb-nəticə qanunundan istisna olan fenomendir. Halbuki alimlərin araşdırdığına əsasən varlıq aləmində heç bir istisna yoxdur və dünyanın bütün hadisələrinə qarşılıqlı təsir qanunu hakimdir.

**Cavab**

Keçən izahdan nəticə aldığımız budur ki, nübuvvət adlanan idrak qazanılmış deyildir və adi vasitələrin əhatə dairəsindən xaricdir. Bu nəzəriyyənin mənası budur ki, nübuvvət də möcüzə kimi xariqüladə bir nəticədir. Şübhəsiz ki, onun səbəbi də xariqüladə bir səbəbdir. Bu heç də səbəbsiz olmaq demək deyildir.

Alimlərin səy və çalışmalarının səbəb-nəticə qanununda isbat etdikləri budur ki, hər hadisənin səbəbi olmalıdır və indiyədək heç vaxt səbəbin adi olmasına sübut və təcrübə əldə olunmamışdır. Bir qrup yazıçılar arasında “dünyada heç bir istisna olmadığı halda möcüzə və ona oxşar bir sıra hadisələrin müstəsna xarakter daşıması” barədə yayılan söz isə şahidsiz bir iddia və dəlilsiz sözdür. Çünki deyildiyi kimi, səbəbi qeyri-adi olan nəticənin yox, səbəbsiz nəticənin inkarına sübut vardır.

Biz bu məsələni əl-Mizan təfsirinin birinci cildində təfərrüatı ilə möcüzə bəhsində sübuta yetirmişik.[54*]

**10-Bir neçə nəzəriyyə:**

1-Keçən bəhslərdən aydın oldu ki, nübuvvət qeyri-adi hadisə və fenomendir və onun səbəbi də özü kimi qeyri-adi şəkildə baş verir.

2- Vəhy adlı idrakı və nübuvvət hadisəsini sübut edən dəlil xariqüladə hadisələrin olmasını da sübuta yetirir. Bununla da, alimlər arasında səbəbiyyət qanunundan istisna hesab edilərək böyük əks-səda doğuran möcüzə problemi həll olur və aydın olur ki, peyğəmbərlərin möcüzələri də nübuvvətin özü kimi xariqüladə hadisədir. Xariqüladə hadisələrin yoxluğuna heç bir dəlil yoxdur. Əksinə, deyildiyi kimi onu varlığına sübutumuz var.

3- Nübuvvət meydana gələrkən bəşərin ixtilaflarının aradan götürülməsi üçün üzə çıxmış və həmişə həmin hədəflə də bağlı olacaqdır.

4- İnsan növünün təkamülü tədrici olduğu üçün nübuvvət də tədricən kamilləşir və hər yeni dini çağırış əvvəlkindən daha kamil olur. Əldə olan məlumatlar əsasında bu nəzəriyyəni Musa, İsa və Muhəmmədin (onlara salam olsun) dini çağırışlarına tətbiq etmək olar.

5- İnsanın vücudi təkamülü onun məhdud ehtiyacları ilə uyğun olmalı olduğu və bu ehtiyacların məhdud olduğu üçün onun təkamülü də məhduddur və nəticə etibarilə insanın xoşbəxtliyini hərtərəfli təmin edən bilən bir nübuvvət, artıq

---

[54*] Materialist alimlərin hər bir hadisə üçün adi maddi səbəb axtarmaları onların axtarışlarının həmişə adi maddi hadisələr və varlıqlar barəsində olmasıdır. Halbuki bu tədqiqatlar məhdud dairədə olduğu üçün onların nəticəsi də müəyyən və məhdud bir dairədə doğru ola bilər. Lakin materialist alimlər onu o qədər ümumiləşdirirlər ki, hər bir şeyi, hətta qeyri-maddi hadisələri, yaxud qeyri-adi maddi hadisələri də bu meyarla ölçürlər. Buna görə də qeyri-maddi səbəblərin, yaxud qeyri-adi maddi səbəblərin varlığını səbəbiyyət qanunundan istisna hesab edirlər.

nübuvvət sisteminin tamamlayıcısı olacaq və bu qapı artıq bəşəriyyətin üzünə bağlanacaqdır.

“Belə bir nübuvvət bu vaxta qədər yaranıbmı? İslam peyğəmbərinin nübuvvəti həmin nübuvvətdəndir, yoxsa yox?” və s. kimi suallara gəlincə, bunlar “İslamın dini çağırışı” adlı ayrıca bir bəhsdə cavablandırılmalıdır. Bu suallara bizim cavabımızın müsbət olması da aydındır.

**Etiraz**

Sizin keçən bəhslərin formal nəticəsi bu idi ki, vəhy müəmmalı və qeyri-fikri bir idrakdır və insanlığı səadətə doğru yönəldən yeganə hidayətçi və ixtilafların həll olunmasının yeganə amilidir, halbuki biz faktiki olaraq görürük ki, bəşərə yaradılış sistemi tərəfindən belə hidayətçi lazım deyildir.

Çünki, bəşər şübhəsiz daimi olaraq bu növün səadətini təmin edən kamil bir cəmiyyət susuzudur və bütün bu çalışmalar və kollektiv yaşayışın müxtəlif sistemlərində və üsullarında aparılan islahatlar nəhayət bir gün insan cəmiyyətini öz hədəfinə çatdıracaqdır. Gördüyümüz kimi onun nişanələri də aşkardır.

Bu günkü sivilizasiyalı xalqlar arasında İsveçrə xalqı kimi mədəniyyət ocağı və səadət içərisində qərq olan bir xalq vardır və digər böyük dövlətlər də gündən günə real xoşbəxtliyə yaxınlaşmaqdadırlar. Deməli bir gün bəşəriyyət öz çoxdankı arzusuna çatacaqdır.[55*]

---

[55*] Müqəddimədə deyildiyi kimi ictimai məsələlər barəsində verilən hökmdə cəmiyyətlərin ümumi vəziyyətləri meyar götürülür, bəzi fərdlərdəki, yaxud bəzi xalqlardakı müstəsna hallar ictimai mənafelərin və qanunların müəyyənləşdirilməsində meyar ola bilməz. Odur ki, İsveçrə xalqının, bəzən də İsveç xalqının yüksək ictimai əxlaqı barəsinə deyilən sözlər ictimai hesablamaların və təfəkkürlərin əsası ola bilməz. Ən başlıcası da budur ki, İsveçrədəki xalqın ictimai vəziyyətilə sıx bağlı olan özünə məxsus iqlim, iqtisadi və siyasi şərait başqa xalqlarda olmadığı üçün başqa ölkələri onunla müqayisə etmək olmaz. Çünki indiki dünyada elə xalqlar vardır ki, müasir sivilizasiya baxımından İsveçrə xalqından ya dəfələrlə

**Cavab**

Böyük dövlətlərin xoşbəxtliyə tərəf inkişaf etməsi barəsində deyilən sözə gəldikdə, zənnimcə öncə deyilən sözlər bunun cavabında kifayətdir. Biz bu sivilizasiyalı xalqların mədəni inkişafını, gündən günə artan dəhşətli güclərini görüb əsrimizi işıq əsri adlandırmaqla və keçmişə nəzər salaraq ibtidai insanların vəhşiliyinə və orta əsrlərin zülmətinə gülməklə yanaşı və bu qrup[56] arasında sədaqət, saflıq, birlik, qayğı və insanpərvərlik görməklə bərabər, məsələyə diqqətlə yanaşdıqda əyani surətdə görürük ki, keçmiş qaranlıq dövrlərdə bir şəxslə başqa bir şəxs, yaxud zalım güclü bir şəxs ilə bir cəmiyyət arasında olan bütün əxlaqi çirkinliklər bu gün güclü cəmiyyətlərlə zəif cəmiyyətlər, bəşəriyyətin "tərbiyəçiləri" ilə bəşər, qərbli ilə şərqli, avropoid ilə neqroid, ziyalılarla geridə qalmışlır arasında həyata keçirilir.

Zülmün, hiylənin, saxtakarlığın, fəsadın və minlərlə digər sağalmaz xəstəliklərin müxtəlif növləri keçmişdə nizamsız və

---

üstündürlər, ya da ən azı ondan geri qalmırlır. Bununla belə, hətta geridə qalmış xalqlarda olmayan əxlaqi pozğunluqlara və hərc-mərcliyə düçar olmuş və olmaqdadırlar. Bundan əlavə, açığını desək, İsveçrə xalqının əxlaqı barəsində deyilən sözlərin nə dərəcədə doğru olduğu hələ də bizim üçün aydın deyildir. Əgər düzgün xatırlayırsınızsa, müqəddimədə dünya tibb cəmiyyətindən nəql etdiyimiz statistik göstəriciyə əsasən İsveçrə, intiharın ən çox baş verdiyi dörd ölkədən biridir. Bunun özü bu ölkədə ictimai və əxlaqi çatışmazlıqların olmasına dəlildir. Çox yayılmış qəzetlərin biri İsveçrədə heç bir cinayət baş vermədiyi üçün il boyu ədliyyə orqanlarının işsiz qalması barəsindəki məşhur mövzunu təkzib edərək yazmışdı ki, başqa ölkələr kimi İsveçrədə də ədliyyə orqanları il ərzində adi şəkildə fəaliyyət göstərir. Yəqin ki, son zamanlar mətbuatda İsveçrədə bir casus dəstəsinin yaxalanması və nüfuzlu ədliyyə işçilərindən birinin özünü öldürməsi haqqında əks-səda doğuran xəbəri eşitmisiniz. Maraqlı burası idi ki, bu dəstənin üzvləri arasında nüfuzlu şəxslərdən, hətta polisdən belə adam varmış. Bu məsələ bizi bir daha bu qərara gəlməyə vadar edir ki, İsveçrə xalqının ictimai və əxlaqi vəziyyəti barəsində deyilən sözlərə tez aldanmayaq və onlara daha ehtiyatla yanaşaq.

[56] Mütərəqqi sayılan xalqlar (tərcüməçi)

cahili şəkildə icra olunurdusa, bu gün tam incəliklə, yüzillik, minillik planlar əsasında ən dəqiq nizamla təsirli şəkildə icra olunur və insanlığı gündən günə yoxluq uçurumuna yaxınlaşdırır. Belə olduğu halda, bəşərin xoşbəxtliyə və səadətə, xüsusilə "bu anadan da mehriban dayələrin" əli ilə çatacağına ümid bəsləmək olmaz.

İsveçrə barəsində deyilən sözə gəldikdə isə, hər şeydən əvvəl xatırlatmaq lazımdır ki, insanın səadəti təkcə bir neçə günlük fiziki rahatlıq və maddi rifahda deyildir. İnsanın səadəti maddi və mənəvi, dünya və axirət səadəti adlı iki cəhətdən təşkil olunmuşdur. Bu ölkə isə yalnız maddi səadəti müəyyən qədər əldə etmiş, insanın səadətinin ən üstün cəhətinin zəmanətçisi olan təkallahlılıq dinindən üz çeirmişdir. Təkallahlılıq dinini nəzərə almadan əxlaqi səadətə zəmanət vermək mümkün deyildir, nəticə etibarilə, cəmiyyəti islah edəcək qanunların da zəmanəti əsassız olacaq, dini və əxlaqi azadlıq insan cəmiyyətini bir sürü heyvana çevirəcəkdir.

Bütün bunlardan əlavə, bu ölkənin coğrafi şəraitini, onun iqtisadi cəhətlərini və dünyanın siyasi prosesləri nəzərə almaqla demək olar ki, bu ölkənin səadətinin onun öz ictimai axarından qaynaqlandığını söyləmək olmaz. Bu barədə bundan artıq danışmaq bizim bəhsin üslubundan kənardır. İsveçrədə olan şərait dünyanın hər yerində olmamış və olmayacaqdır. Bir gül ilə isə bahar olmaz.

**11. Vəhylə əqli idrak bir-biri ilə nə qədər uyğun ola bilər?**

Bu suala cavab vermək üçün peyğəmbərlərin ümumi xalq kütləsi ilə necə əlaqə yaratmasını və dini çağırışın onların fikirləri tərəfindən necə qəbul olunmasını araşdırmaq lazımdır.

Dini çağırış əvvəlcə aləmin yaranışı, sonu və insanların ülvi aləmlə bağlılığı məsələlərini, yəni tovhid və məad məsələlərini ortalığa atmış, sonra isə xalqı bu dünyagörüşünə əsaslanan əxlaqi xüsusiyyətlərə və cəmiyyətin mənafeyinə olan bir sıra qanunlara doğru hidayət edərək xeyrxahlığın üstünlüklərini

onlara başa salmış və öz qanunlarının xeyrlərini ümumi şəkildə xatırlatmışdır ki, insanlar bu qanunlara əməl edərkən onların xeyrlərini təfərrüatı ilə dərk etsinlər.

Bu təhlilin nəticəsinə əsasən deyə bilərik olar ki, vəhyin hədəflərinin bizimlə bağlı olan tərəfini ağılla dərk etmək mümkündür: bir hissəsini birbaşa və müstəqil şəkildə, şəriətdən ibarət olan digər hissəsini isə vəhyi çatdıran peyğəmbərin sözü ilə. Necə ki, adi ictimai qanunlar da belədir. Hər hansı bir qanunverici özünün bütün hədəflərini təfərrüatı ilə nəzərdə tutmadan qanunun bütün xeyirlərini dərk edə bilməz.

Burada diqqətəlayiq məsələ budur ki, bizim üçün sirli olan vəhyin necəliyindən xəbərimiz olmadığı kimi onun bu həqiqətlərə necə çatması bizim üçün da qaranlıqdır. Yəni dinin ehtiva etdiyi etiqadlar, əxlaqi məsələlər və qanunlar arasında bizim üçün qaranlıq olan həqiqi bir əlaqə vardır. Çünki əgər onlar arasındakı əlaqə eynilə bizim başa düşdüyümüz əlaqədən ibarət olsaydı, onları qavrayan vəhy adlı idrak bizim əqli idrakımızla eyni olardı. Halbuki belə deyildir[57]*.

Buna görə də deməliyik ki, peyğəmbər vəhylə onların sirli əlaqəsini dərk etmiş, onu bizə çatdıran zaman isə adi dillə danışmış və bizim zehnimizin məntiqi əlaqələrindən istifadə etmişdir.

**12. Nübuvvət qurumunun əhatə dairəsi.**

Bütün bu deyilənlərdən aydın olur ki, nübuvvət insanın cismi və ruhi səadətinə zəmanət verən ilahi bir qurumdur və təkcə maddi toplumu hidayət edən bir qurum deyildir. Eləcə də, peyğəmbər ictimai bir mütəfəkkir və dahi yox, Allah

---

[57]* Keçən bəhslərdən aydın oldu ki, vəhy yolu təfəkkür yolundan fərqlidir və insan təfəkkür yolu ilə cəmiyyətlərin mənafeyini güdən və ixtilafları aradan qaldıran düzgün bir proqramı dərk edə bilməz. Buna yalnız sirli vəhy yolu ilə çatmaq olar. Odur ki, təfəkkür yolu ilə dini qanunların bütün səbəblərini və etiqadi məsələlərlə onların əlaqəsini tam şəkildə dərk etməyi ummaq olmaz. Çünki əgər belə olsaydı vəhy yolunun adi təfəkkür yolundan heç bir fərqi olmazdı.

tərəfindən seçilən bir şəxsdir. Haqq dinlərdəki bir sıra ibadətlər, həmçinin peyğəmbərlərin yaşayışdakı rəftarları və onların uzun-uzadı ibadətləri bu sözə ən yaxşı dəlildir[58]*.

## VII fəsil

## *Qurandan bir dərs*

Yaşadığımız və boya başa çatdığımız müasir dövr insanlıq karvanını öz ictimai hərəkət yolunda qəribə bir mərhələyə çatdırmışdır. Bu günün insanı həyatın hər bir sahəsində özünü

---

[58]* Sonda xatırlatmaq zəruridir ki, keçən bəhslərdə dəfələrlə bu məsələ haqqında söz açıldı ki, peyğəmbərlərin çağırışının hədəfi insanlar arasındakı ictimai ixtilafların aradan qaldırılmısıdır. Lakin unutmaq olmaz ki, dindar bir şəxsin fikrincə ictimai nizam-intizam və ixtilafların aradan qaldırılması son hədəf yox, başqa bir aləmdə əbədi yaşayış üçün müqəddimədir. Çünki son hədəf olan əxlaqın və ülvi xüsusiyyətlərin təkamülü yalnız belə bir şərtə malik olan cəmiyyətlərdə mümkündür. Həmçinin yadda saxlamaq lazımdır ki, ictimai ixtilafların aradan qaldırılması peyğəmbərlərin əsas hədəflərindən biri olsa da, yeganə hədəf deyildir. Çünki onların mühüm vəzifələrindən biri də ictimai əxlaqdan əlavə fərdi xüsusiyyətləririn və əxlaqın da tərbiyəsidir. Bəzi alimlər bu məsələni qəbul etməyib insanın bütün əxlaqi fəzilətlərini ictimai cəhətlərlə bağlı bilsə də, həqiqət budur ki, cəmiyyəti nəzərə almadan da insan müsbət və mənfi xüsusiyyətlərə malik ola bilər və bu müsbət və mənfi xüsusiyyətlərə malik olmaqla insanın vücudi dəyəri çox fərqli olur. Yəni əgər fərz etsək ki, bütün yer üzündə yalnız bir nəfər yaşasa və heç bir cəmiyyət olmasa, həsəd, ədavət, məhəbbət, təkəbbür, təvazö və s. kimi bir çox yaxşı və pis əxlaqi xüsusiyyətlər aradan getsə də, dini vəzifələrin yerinə yetirilməsində tənbəl və ya ciddi olmaq, bir sıra dini vəzifələrin yerinə yetirilməsi ilə yaranan ücb və eqoizm, yaradılış sisteminə qarşı nikbinlik və ya bədbinlik kimi bir çox yaxşı və pis əxlaqi xüsusiyyətlər yenə də qalacaqdır. Bundan əlavə, peyğəmbərlərin sözlərini araşdırmaqla başa düşülür ki, onlar həsəd və ədavət kimi mənfi ictimai xüsusiyyətləri onların bir çox xoşagəlməz hallara səbəb olduğuna görə qadağan etməklə bərabər, bu çirkin xüsusiyyətləri insanda fərdi bir nöqsan bilmiş və onları iman kamilliyi ilə zidd hesab etmişlər. Yəni peyğəmbərlər yaxşı və pis xüsusiyyətlərə iki cəhətdən baxmışlar: 1) özlüyündə; 2) ictimai nəticələri baxımından.

büruzə verən heyrətamiz bir elmi qüvvə ilə təchiz olmuş və nəticə etibarı ilə hər gün həyatın yüzlər və minlərlə ehtiyacını araşdırıb onların həllində düşüncə gücü ilə çıxış yolu axtarır.

Aydındır ki, insanın elmi qüvvə ilə təchiz olaraq apardığı bütün bu araşdırdırmalar və axtardığı çıxış yolları təbiətə yiyələnmək və inadkar maddənin insanın hədəflərinə ram etmək üçündür və insandan iş və fəaliyyət tələb edərək anbaan işin kəmiyyət və keyfiyyətini artırır. Işin bu cür artımı nəticəsində yaşayış fəaliyyətlərinin gedişatı özünə ildırım sürəti almış və keçmiş zamanlarda gecə və gündüzə bölünərək səhər və axşam ilə hesablanan "zaman" anlayışı üçün bizim dövrümüzdə ölçü vahidi "saniyə" qəbul edilmiş, hətta hər dəqiqə və saniyənin yüzdə biri və mində biri əvvəllər bir saatın, hətta bir günün malik olmadığı dəyərə malik olmuşdur.

Həmçinin  aydındır ki, insanın cismi və ruhi qüvvəsinin əhatə dairəsi hər nə qədər geniş və fəaliyyət meydanı hər nə qədər ucsuz-bucaqsız təsəvvür edilsə də sonda məhdud bir qüvvədir, elə məhdud olduğuna görə də müəyyən bir sahəyə nə qədər çox yönəldilib orada sərf olunarsa, digər sahələrdən bir o qədər azalacaqdır.

Məhz bu həqiqətə görədir ki, bu gün maddiyyat mənəviyyatı kölgədə qoymuş və bütün diqqətin maddiyyata cəlb olunması mənəviyyat üzərinə qalın bir pərdə çəkmişdir. Din və məzhəblər tarixinə, keçən dövrlərdə xalqın dini vəziyyətinə azacıq şəkildə olsa belə müraciət edib onları bu zamankı dini vəziyyətlə ümumi şəkildə müqayisə etmək bu mövzunu aydınlaşdırır. Eləcədə də, şübhə yoxdur ki, madiyyatda ifratçılıq və yaşayışda orta həddən kənara çıxmaq mənəviyyat ruhunu azaldıb dini məsələləri unutdurur.

Müxtəlif dillərdən dini məsələlərə və mənəviyyatın əsaslarına yüzlərlə, minlərlə eşitdiyimiz etirazın, dini bilgilərə və allahpərəstlik qayda-qanunları ilə tanış və yad olanların cürbəcür irad və tənqidləri məhz madiyyat ruhunun nəticəsidir! Çünki hər bir tədqiqatçı üçün tam surətdə aydındır ki, bu

iradlardan heç birində yenilik yoxdur və bu iradlar elm əsri adlandırdığımız bu əsrə məxsus olmayıb tarix boyu dəfələrlə müzakirə olunmuş, irad edənlər cavablarını aldıqdan sonra susmuş və öz iradlarını unutmuşlar.

Heç vaxt susmayan, ən kiçik bir bəhanə ilə öz məntiqsiz metoduna çağıran və çəkişmələrə səbəb olan isə madiyyat ruhudur ki, sağlam əqlin göstərişlərinə azacıq belə qulaq asmadan yerli-yersiz təbiətin füsünkar mənzərələrinə tamaşa ilə, daxili hisslərin və emosiyaların ovsunlayıcı təlqinləri ilə, gündən günə artan saysız hesabsız maddi çətiliklərə diqqəti yönəltməklə şüur və iradə ilə dolu olan bütün daxili hissləri maddəyə tərəf yönəldərək öz yollarında maneə gördükləri mənəviyyatı məzəmmət edərək deyir:

"Dini təlimlər yaşayışın məziyyətlərini insandan alaraq onu meşədə mağarada yaşayan ibtidai insanların cərgəsinə qoşur. Insanın hər bir şeydən ayrılaraq görmədiyi Allaha tərəf üz tutmağının nə mənası vardır. Bu, səbəblərdən əl çəkib öz şüur və iradəsini öldürməkdən və oturub olmayan qeybi amillərin yolunu gözləməkdən başqa bir şey ola bilərmi? Axı bunların nə mənası vardır? Əgər insanın çörəyi dinin təqlidi təlimlərinə əməl etməkdən çıxsaydı, elm gücü ilə tərəqqi zirvəsinə yüksələn və bu gün göyləri ram edib qalaktikalara hakim olmaq əzmində olan sivilizasiyalı xalqlar acından ölməli idilər."

Bu cür iradlar keçmişdəkilərin əsassız fikirlərindən irs qalaraq bu günkü insanların yeni fikri olmamaqla yanaşı, həm də gözəl şəkildə bunu çatdırır ki, insanın müəyyən bir sahədə məlumatlarının inkişafının başqa sahədəki məlumatlarında heç bir təsiri yoxdur və onun digər məchullarını həll etmir.

Təbiət elmləri bir sıra məchullara işıq saçaraq onları insan üçün məlum edən parlaq bir çıraq olsa da, hər bir qaranlığı aradan qaldırmaq üçün işə yaramır. Psixologiya elmindən astronomiyanın problemlərini həll etməyi gözləmək olmaz. Hansısa bir həkim yol mühəndisinin məsələlərini həll edə

bilməz. Eləcə də, təbiət haqqındakı elmlər üçün metafiziki, mənəvi və ruhi məsələlər yaddır və insanın öz fitri istəyi ilə kəşf etmək istədiyi bu məsələləri həll etməyə təbiət elmləri qadir deyildir.

Qısa şəkildə desək, metafizika ilə bağlı müəyyən bir məsələ hər hansı təbiət elmindən soruşularsa, bunun cavabı inkar yox, sükut olacaqdır. Çünki bu elmlərin tədqiqat obyekti maddə olduğu üçün istənilən bir qeyri-maddi məsələ barəsində cavabsızdır və öz predmetindən kənar məsələlər barəsində müsbət və ya mənfi cavab verməyə haqqı yoxdur.

Dinin məntiqi, (burada onun aydın olub olmaması ilə işimiz yoxdur, hərçənd bizim fikrimizə görə aydındır) dini təlimlərin dərinliyinə varmaqdan və maddə pərdəsi arxasındakı həqiqətlərdə axtarış aparmaqdan başqa yol deyildir.

Aşağıdakı üç həqiqət üzərində dərindən düşünərkən Quranın öz qiymətli təlimindəki, yəni "Insan hər bir şeydən ayrılaraq Allaha tərəf üz tutmalıdır" cümləsindəki məntiqi aydınlaşır:

1. Qurani kərim ümumi səbəbiyyət qanununu inkar etməmiş, dünyanın hər bir hadisəsi və varlıq aləminin hər bir fenomeni üçün özünə uyğun olan səbəblər nəzərdə tutur, heç bir təsadüfi hadisə, heç bir səbəbsiz nəticə qəbul etmir. Beləliklə yaranış aləmində bütün əşyalar bir-birilə səbəb-nəticə əlaqəsi ilə bağlıdır. Bu həqiqəti Quranın əvvəlindən axırına qədər vəhyin dilindən yaxşıca dərk etmək olar.

Odur ki, insan kiçik bir damcı kimi dağıdıcı selin qarşısına düşərək selin hərəkəti ilə tam ixtiyarsız halda hərəkət edərək hər bir eniş-yoxuşu qət edir. O, yaranış aləminin bir hissəsi olaraq aləmin ümumi hökmünə tabedir və aləmin ümumi hərəkəti ilə "məad" adlı ümumi hədəfə doğru irəliləməkdədir.

Insan aləmin bir hissəsi olaraq səbəb-nəticə əlaqəsilə başqa varlıqlara bağlı olduğu üçün heç bir müstəqilliyə malik deyildir ki, ona arxalanmaqla özünü kənara çəkib öz arzuları və istəkləri yolunda çalışsın və yaradılış aləminin ümumi qüvvəsinə qarşı mübarizəyə başlasın. Insanın öz istəklərinə

çatmasının yeganə yolu budur ki, özü də hadisələrin amillərindən və səbəblərindən biri olaraq bütün vücudi qüvvəsini öz hədəfləri yolunda işlətsin ki, digər səbəblər də onun istəkləri ilə uyğun olduğu halda hədəfləri gerçəkləşsin.

2. Qurani kərim insanın fitrətinin hökm etdiyi kimi aləmin və onun hissələrinin hökmranlığını tək olan Allahın əlində bilir və öz ümumi qanunları ilə yaradılış aləminə hakim olan sistemi Allahın iradəsmnə bağlı bilir. Nəticə etibarı ilə varlıq aləmində tam müstəqilliyə malik olan, öz varlığında və varlığının təsirlərində başqasına ehtiyacı olmayan bütün varlıqların ehtiyaclı olduğu yeganə səbəb xilqətin tək olan Allahdır. Hər bir səbəbi yaradıb ona qüdrət verən Odur. O, sözün tam mənasında sevgiyə layiq olan yeganə səbəbdir.

3. Qurani kərimin nəzərində insanın elmi məhduddur və əşyaların bütün xüsusiyyətlərinə tam əhatəsi olan, başqa sözlə qeybi bilən yalnız Allahdır. Deməli insanın idrakı geniş qaranlıq bir fəzada şöləl559ənən, ən çoxu insanın ayağını qoyacağı yerin hamar olub olmamasını göstərə bilən çox zəif olan kiçik bir çıraq kimidir. Insanın öz dar və məhdud mühitində zəif hiss və naqis fikir yolu ilə dərk etdiyi hadisələrin səbəblərindən çox az bir hissəsi istisna olmaqla heç bir şeyə əhatəsi yoxdur və onun məhdud məlumatları sonsuz məchulları ilə heç cür müqayisə olunası deyildir.

Elə buradan da aydın olur ki, insanın öz məhdud idrakı və elmi ilə məhdud sayda səbəbləri tapıb və öz zəif gücünü toplayıb hansısa bir hədəfini dərk etmək üçün işlədərkən tam ümidlə sevinməsi, eləcə də, səbəblərin axarının, yəni dərk etdiyi bir neçə səbəbin öz arzularına zidd olduğunu görərkən ümidsizliyə qapılıb kədərlənməsi nadanlıq və cəhalətdən başqa bir şey deyildir.

Çünki aləmdəki varlıqlardan hər birinin yaranması və aradan getməsi aləmin, sonsuz qüdrətin və qeybi iradənin fəaliyyət göstərdiyi ümumi qüvvəsinə bağlıdır və heç vaxt bu təsəvvür olunmaz qüvvənin uyğun, yaxud zidd olduğunu

müəyyənləşdirməyə insanın yolu yoxdur. Əşyaların yaranması və yox olmasında rol oynayan amillər yalnız insanın dərk etdiyi səbəblərdən ibarət deyildir.

Bu nəzəri həqiqətlərin praktiki nəticəsi budur ki, insan öz yaşayışında tam ümidlə səbəblərə (yəni öz məhdud elmi ilə kəşf etdiyi bir neçə səbəbə) bel bağlamamalı, özünü bütün xilqət aləmi ilə bağlı olan bir hissə bilib aləmin indiki və keçmiş hissələrini təşkil edən səbəblərin və amillərin təsiri altında olduğunu bilməlidir. Başqa sözlə onun (insanın) bütün səbəblərini yaradan, böyüdən və idarə edən tək Allaha ümid bəsləməli, ona qovuşub başqa şeylərdən ayrılmalıdır.

Şübhəsiz, bu heç də insanın öz şüuru ilə dərk etdiyi səbəblərə əhəmiyyət vermədən bir guşəyə çəkilməsi və hədəflərinin gerçəkləşməsi üçün yalnız qeybi yardımlara göz dikməsi demək deyildir.

Çünki:

1. Qeybi amillər yalnız səbəblər yolu ilə öz təsirini göstərir.

2. Insanın kəşf etdiyi səbəblər və amillər ümumi səbələrin məcmusunun bir hissəsini təşkil edir və buna görə də müəyyən təsirə malikdir. Insanın öz məqsədinin reallaşmasını gözlədiyi halda bu məqsədin bağlı olduğu səbəblərdən istifadə etmədən onların təsirini puça çıxarması özü də bir növ cəhalətdir.

Əksinə, insan Allahın bəxş etdiyi şüuru ilə kəşf etdiyi məhdud saylı səbəblərdən istifadə edərək öz məqsədləri yolunda çalışmalı, lakin tam şəkildə onlara ümid bəsləməməli, özünü bütün aləmin ayrılmaz bir hissəsi bilməli, bütün təsirlərin mənşəyi olan yeganə Allaha ümid bəsləməli və ona qovuşmalıdır. Haqqında danışılan dini təlimin mənası budur.

Bu dini təlim malik olduğu obyektiv üstünlüklərdən əlavə, bu obyektivliyə əsaslanan nikbinlik, səbr, dözümlülük, şücaət və nəhayət sonsuz məğlubedilməz bir qüvvəyə bağlılıq kimi bir sıra əxlaqi xüsusiyyətlərin yaranmasına da səbəb olur.

Həmçinin pis xüsusiyyətlərin böyük bir miqdarını, o cümlədən insanın özünü müstəqil bilməsindən yaranan

təkəbbürü, məğrurluğu, eqoizmi, özünü öyməyi, ümidsizlik zamanı insanın ruhunda özünü büruzə verən ah-naləni, taqətsizliyi, yüngüllüyü insandan uzaqlaşdırır.

Bu məsələni fəlsəfi şəkildə ortalığa atsaq da, onun hər bir cümləsinin məzmunu Qurandan götürülmüşdür və Quranla tanışlığı olan hər kəs üçün məsələ aydındır.

## VIII fəsil

## *Quran prizmasından yaşamaq uğrunda mübarizə və güclülərin seçilməsi qanunu.*

Bir çox Avropa bioloqlarının fikrincə təbiət aləminin varlıqları həmişə yaşamaq uğrunda mübarizə və güclülərin seçilməsi qanunları əsasında təkamülə doğru gedirlər, çünki hər bir varlıq öz malik olduğu qüvvələri qorumaq üçün həmişə başqa varlıqlarla mübarizədədir. Heyvanlarda və bitkilərdə daha bariz şəkildə özünü göstərən bu daimi mübarizədə güclülər qalib gəldiyi üçün zəif varlıqlar aradan gedir və güclülər seçilərək qalır, nəticə etibarilə növlər tədricən təkamülə doğru gedir. Bu alimlər öz sözlərini sübut etmək üçün elmi təcrübələrə və keçmiş zamanlarda möcud olmuş varlıqlar üzərində araşdırmalara əsaslanırlar. Misal olaraq, yer kürəsinin bir çox nöqtələrində izləri qalan bir sıra nəsli kəsilmiş heyvanların nəslinin kəsilməsini bu yolla izah edirlər. Onlar eləcə də bildirilər ki, bu iki qanun yalnız təbiət aləminin varlıqlarına məxsus deyil, əksinə insan cəmiyyətləri də bu iki qanun, yəni yaşamaq uğrunda mübarizə və güclülərin seçilməsi qanunları əsasında qurulmuşdur. Insan cəmiyyətləri həmişə öz varlıqlarını qorumaq üçün bir-biri ilə çəkişmə və mübarizədədir. Onların arasından güclü cəmiyyətlər seçilib qalır, zəif cəmiyyətlər isə məhv olub aradan gedir. Onların fikrincə tarixdən öncəki dövrlər haqqında yazılan əsərlərdə bir

çox sivilizasiyaların aradan getməsi barəsində deyilən sözləri izah etmək üçün bundan başqa yoldur.

Lakin bu iki qanun hər yerdə özünü doğrutmayır. Misal olaraq, təbiət aləmində güclü bitki və heyvan növləri olduğu halda öz varlığını qoruyub saxlayan bir çox zəif növləri müşahidə edirik. Həmçinin insanın becərərək ali növlərə çevirdiyi bir çox heyvan və bitki növləri ilə rastlaşırıq ki, onların zəif yabanı növləri olduğu kimi qalır, yaxud tədricən öz-özünə zəifləyərək tənəzzülə doğru gedir. Bütün bunları nəzərə alan bir sıra alimlər bu iki qanunun əvəzinə "mühitlə uyğunlaşma" adlı bir fərziyyə irəli sürərək bildirirlər ki, müxtəlif növ varlıqlarda baş verən dəyişikliklər bu qanun nəticəsində yaranır. Onlar varlıqların uyğunlaşmağa məcbur olduğu mühitdən danışarkən digər varlıqları özünə tabe edən təbii amillərin və zaman-məkan şəraitinin məcmusunu nəzərdə tuturlar. Odur ki, bütün növ varlıqlar ixtiyarsız şəkildə özlərini şəraitlə uyğunlaşdırmağa çalışırlar. Yer kürəsindəki məntəqələrin, onların coğrafi şəraitlərinin və digər təbii amillərin müxtəlifliyi yer üzərindəki bitki və heyvanların müxtəlifliyinə səbəb olmuşdur.

Bu alimlər yaşamaq uğrunda mübarizə və güclülərin seçilməsi qanunları ilə uyğun gəlməyən halları "mühitlə uyğunlaşma" qanunu ilə izah edərək deyirlər: bu cür hallarda mühitin amillərində belə bir təsirlər üçün hazırlıq olmamışdır.

Lakin bu qanun da hər yerdə özünü doğrutmayır. Çünki hələ də özünü mühitin şəraiti ilə tam şəkildə uyğunlaşdırmayan bir çox bitki və heyvan növlərinə rast gəlmək mümkündür. Bütün bunlardan nəticə alınır ki, bu üç qanun bəzi hallarda düzgün hesab oluna bilər, lakin onların ümumiliyini qəbul etmək qeyri-mümkündür.

Bundan əlavə, bu qanunlar əxlaqi və ictimai münasibətlər baxımından da bir çox mənfi nəticələrə gətirib çıxarır. Çünki yaşamaq uğrunda mübarizə prinsipi daimi çəkişmələri və müharibələri təbii, qaçınılmaz, bir sözlə qanuni hesab edir.

Güclülərin seçilməsi prinsipi isə yaşamaq haqqını cəmiyyətin zəif siniflərdən alır və güclüləri başqalarının hüquqlarını tapdamaqda haqlı bilir. Mühitlə uyğunlaşma qanunu isə insanların fikri və ruhi müstəqilliyini aradan aparır və bütün hallarda mühitə tabe olmağı düzgün sayır.

Fəlsəfənin ümumi prinsipləri cəhətindən isə maddi varlıqların yaranmasına və onlardakı dəyişikliklərə hökm sürən qanun səbəb-nəticə qanunudur. Belə ki, hər bir maddi varlıq səbəbiyyət qanunu əsasında başqa varlıqlara təsir göstərərək onları özünə oxşar vəziyyətə gətirir. Başqa sözlə desək, başqalarından azaldaraq özünə artırır. Bu hadisə maddi varlıqlarda yaşamaq uğrunda mübarizə şəklində təzahür edir.

Digər tərəfdən isə, bu qarşılıqlı təsir zamanı güclülər tədricən zəiflərə təsir göstərərək onları aradan aparır. Nəticədə güclü varlıqlar qalır, zəiflər məhv olur. Bu isə həqiqətdə güclülərin seçilməsi prinsipidir. Həmçinin səbəb-nəticə əlaqəsinin doğurduğu təsirlər vasitəsilə varlıqlar öz mühitlərindəki şəraitin təsirinə məruz qalırlar ki, bu da mühitlə uyğunlaşma prinsipinin başqa sözlə ifadəsidir.

Qısa şəkildə desək bu üç qanunun mənşəyini səbəbiyyət qanununda tapmaq olar. Ancaq yadda saxlamaq lazımdır ki, bu qanunlar yalnız səbəbiyyət qanununun hökm sürdüyü yerlərdə, başqa sözlə səbəb-nəticə əlaqəsindən yaranan təsirlərin olduğu yerlərdə özünü doğruldur. Odur ki, səbəbiyyət qanununun hökmranlıq etmədiyi yerlərdə bu prinsiplər ödənmir.

Bəziləri Quranın bu barədə müsbət fikirdə olduğunu və aşağıdakı üç ayədə yaşamaq uğrunda mübarizə və güclülərin seçilməsi prinsiplərinə işarə olunduğunu zənn etmişlər.

1-ci ayə:

أَنزَلَ مِنَ السَّمَاءِ مَاءً فَسَالَتْ أَوْدِيَةٌ بِقَدَرِهَافَاحْتَمَلَ السَّيْلُ زَبَدًا رَّابِيًا وَمِمَّا يُوقِدُونَ عَلَيْهِ فِي النَّارِ ابْتِغَاءَ حِلْيَةٍ أَوْ مَتَاعٍ زَبَدٌ مِّثْلُهُ كَذَلِكَ يَضْرِبُ اللّهُ الْحَقَّ وَالْبَاطِلَ فَأَمَّا الزَّبَدُ فَيَذْهَبُ جُفَاءً وَأَمَّا مَا يَنفَعُ النَّاسَ فَيَمْكُثُ فِي الأَرْضِ كَذَلِكَ يَضْرِبُ اللّهُ الأَمْثَالَ

***Allah göydən bir yağmur endirdi, vadilər öz tutumlarına görə onunla dolub daşdı. Sel, üstünə çıxan bir köpüyü alıb apardı. (Haqq din olan Islam insanlara, torpağa həyat verən suya, müşriklərin etiqadı isə boş köpüyə bənzər). Bəzək əşyaları və ya başqa şeylər düzəltmək məqsədilə insanların od üzərində qızdırıb əritdiklər filizlərin üstündə də buna bənzər bir köpük vardır. Allah haqq ilə batili ayırd etmək üçün belə misallar çəkir. Köpük heç bir şey olmadığı üçün uçub gedər. Insanlara fayda verən bir şey isə yer üzündə qalar. Allah belə misallar çəkir!***[59]

Onların fikrincə bu ayəyə əsasən hadisələrin axarı və yaşamaq uğrunda mübarizə həmişə batil köpükləri, yəni cəmiyyətin zəif növlərini məhv edir, haqqı, yəni sivilizasiyanın və daha yaxşı ictimai ruhun yaşaya biləcəyi kamil növləri isə saxlayır.

2-ci ayə:

أُذِنَ لِلَّذِينَ يُقَاتَلُونَ بِأَنَّهُمْ ظُلِمُوا وَإِنَّ اللَّهَ عَلَى نَصْرِهِمْ لَقَدِير الَّذِينَ أُخْرِجُوا مِن دِيَارِهِمْ بِغَيْرِ حَقٍّ إِلَّا أَن يَقُولُوا رَبُّنَا اللَّهُ وَلَوْلَا دَفْعُ اللَّهِ النَّاسَ بَعْضَهُم بِبَعْضٍ لَّهُدِّمَتْ صَوَامِعُ وَبِيَعٌ وَصَلَوَاتٌ وَمَسَاجِدُ يُذْكَرُ فِيهَا اسْمُ اللَّهِ كَثِيرًا وَلَيَنصُرَنَّ اللَّهُ مَن يَنصُرُهُ إِنَّ اللَّهَ لَقَوِيٌّ عَزِيزٌ

***Zülmə mə'ruz qaldıqlarına görə vuruşanlara Allah yolunda döyüşməyə izin verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, qadirdir! O kəslər ki, haqsız yerə, ancaq "Rəbbimiz Allahdır" - dediklərinə görə yurdlarından çıxarıldılar. Əgər Allah insanların bir qismi ilə digər qisminin qarşısını almasaydı, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan monastırlar, kilsələr, məbədlər və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, şübhəsiz ki,***

---

[59] Rəd 17-18

***yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir!***[60]

Onların fikrincə bu ayənin əvvəl hissəsində yaşamaq uğrunda mübarizə prinsipinə, son hissəsində isə güclülərin seçilməsi prinsipinə işarə olunmuşdur.

3-cü ayə: وَلَوْلاَ دَفْعُ اللّهِ النَّاسَ بَعْضَهُمْ بِبَعْضٍ لَّفَسَدَتِ الأَرْضُ وَلَكِنَّ اللّهَ ذُو فَضْلٍ عَلَى الْعَالَمِينَ

***Əgər Allah insanların bir qismini, digər bir qismi ilə dəf etməsə idi, yer üzü fitnə-fəsada uğrayardı. Lakin Allah bütün aləmlərə qarşı lütfükardır.***[61]

Bu ayənin də həmin iki qanuna işarə etdiyini söyləyirlər.

Lakin öncə deyildiyi kimi bu iki qanunda müəyyən qədər həqiqət vardır və bir sıra yerlərdə qəbul oluna bilər. Quranın da onları təsdiq etməsi inkarolunmazdır. Amma yuxarıdakı ayələrdə isə bu iki qanun barəsində heç bir şey deyilmir. Çünki birinci ayə yalnız bunu bildirir ki, haqq həmişə sabit qalır, batil isə aradan gedir: istər o ikisinin arasında mübarizə olsun, ya olmasın. Ayədə vurulan misalda (köpük, sel və selin qalıqları) əslində heç mübarizədən söhbət getmir. Misalın çatdırmaq istədiyi haqqın qalması və batilin məhv olmasıdır. Istifadəsiz və puç köpüklər yavaş-yavaş aradan gedir, selin nəticələri (ondan bitən bitkilər) isə qalır.

Ikinci və üçüncü ayədə haqla batilin tərəfdarlarının arasında gedən mübarizədən və haqq əhlinin zəfər çalmasından söbət açılsa da, bu qələbə haqqın tərəfdarlarının yaşamaq uğrunda mübarizə və güclülərin seçilməsi prinsiplərinə uyğun olaraq daha güclü təbii qüvvələrlə təchiz olduqlarına görə yox, Allahınköməkliyi sayəsindədir. Xüsusilə, ikinci ayənin mənasına diqqət edərkən aydın olur ki, ayədə maddi qüvvə baxımından zəif olan bir sıra haqq tərəfdarından söhbət gedir.

---

[60] Həcc 39, 40

[61] Bəqərə 251

Bir sözlə, göstərilən ayələrdə yaşamaq uğrunda mübarizə və güclülərin seçilməsi prinsipləri barəsində heç nə bildirilmir.

Bizim fikrimizcə isə insan cəmiyyətinə hakim olan qanun "istixdam"[62] qanunudur ki, sonuncu ayədə ona işarə olunmuşdur. Bu mənada ki, hər bir fərd fitri instinkt və təbii meyl əsasında başqalarının qüvvəsindən öz xeyri üçün istifadə etmək istəyir. Heç kim öz qüvvəsini və enerjisini müftə şəkildə başqalarının ixtiyarında qoymaq istəmədiyi üçün hər kəs öz qüvvəsindən müəyyən qədər başqalarının ixtiyarında qoyur ki, o da öz növbəsində başqalarının qüvvəsindən istifadə etsin. Buna görə də, istixdam prinsipi qarşılıqlı əməkdaşlıq əsasında qurulan cəmiyyətə gətirib çıxarır. Allahın verdiyi fitri duyğular nəticəsində formalaşan bu daimi qarşılıqlı əməkdaşlıq insan cəmiyyətinin qorunmasına, inkişaf və tərəqqisinə zəmanət verir. Bu məqsədə kömək edən işlər instiktiv bir duyğuya əsaslandığı üçün heç zaman aradan getmir. Əksinə qarşılıqlı əməkdaşlıq cəmiyyətini dağıdan, Quranın dili ilə desək, "yer üzünü korlayıb xaraba qoyan" hər bir iş bu fitri duyğu ilə və cəmiyyətin təbii axarı ilə uyğun olmadığı üçün çox yaşamayacaq. Quranın bu haqda dediyi söz diqqətəlayiqdir:

***"Allah bəzi insanların vasitəsilə başqa bir qrup insanların qarşısını alır ki, yer üzünü fitnə-fəsad bürüməsin."*** Bu isə həqiqətdə əməkdaşlıq cəmiyyətinin ruhunu təşkil edən tənzimləmə prosesindən ibarətdir. Bu proses, yaşamaq uğrunda mübarizə və güclülərin seçilməsi qanunlarında deyildiyinin əksinə olaraq bir sinfin qalıb başqa bir sinfin aradan getməsinə və nəticə etibarilə cəmiyyətin dağılmasına yox, məcmunun (bütün siniflərin) qorunmasına və cəmiyyətin yaşamasına səbəb olur. Çünki ayədə Allahın, bir dəstənin əli ilə başqalarını məhv etməsindən danışılmır.

---

[62] Əllamə Təbatəbai istixdam nəzəriyyəsi haqqında VI fəsildə danışıldı. . (tərcüməçi).

## IX fəsil

## *Quran aspektindən din və onun əsl bazisi.*

Təqribən 14 əsr bundan öncə Islam dinini qəbul edən babalarımızın yolu ilə hərəkət edərək addımlarımızı onların ayaq izləri üzərinə qoymağa çalışan biz müsəlmanların səmavi kitabı olan Quran insanı heyrətə gətirən elə bir elmi xəzinədir ki, varlıq aləminin qaranlıq sirlərini və insan həyatının ən dolaşıq məsələlərini bizim üçün həll edib insanların dərk edə bilcəyi formaya salmışdır. Yaxud ən azı bütün həqiqətlərin Quranda əks olunduğunu iddia edərək həyat proqramı tərtib etməkdə özümüzü sözüm tam mənasında xoşbəxt bilib maddi və mənəvi, cismi və ruhi tərəqqi yolunu tanımaqda heç bir şeyə ehtiyacımız olmadığını fərz etmişik.

Amma təəssüf ki, Islamın əvvəllərində yaranan ixtilaflar elmi həqiqətlərin kəşfinə və həyati məsələlərin həllinə sərf olunmalı olan səylərimizin istiqamətini dəyişdirərək başqa yerlərə yönəltmişdir.

Müsəlmanlar Quranın göstərişlərinə əməl edərək ictimai təfəkkürə malik olmaq və fərdin səadətini cəmiyyətin səadətində bilmək əvəzinə öz fərdi mənafelərini üstün tutaraq bir-birinin canına düşdülər, nəticədə ən qısa bir zaman müddətində islami azad metod zülmətli bir imperatorluğa çevrildi və istismar, zorakılıq, zülmkarlıq zənciri həqiqi Islam cəmiyyətinin əlini və dilini bağladı.

Şübhəsiz ki, onlar tam şəkildə özlərinin zəif cəhətlərindən xəbərdar idilər və camaat içərisində nüfuza malik olan bir sıra dünyapərəst muzdur vasitəsilə obyektivlik və haqqı batildən seçmə hissini xalqdan alıb əvəzində bir sıra çürük fikirləri onlara təlqin etməklə başlarını qatır, əzmkar insanları və mütərəqqi hərəkatları boğub məhv edirdilər.

Həmin siyasət nəticəsində ümumi kütlə azad islami yaşayışı qədim dövrün quldarlıq yaşayışı kimi başa düşür, pak Islam

dinini “Allahın kölgələri” adladırılan hakimlərin zorakılıqlarında görür, ictimai asayiş və ədaləti dövrün sultanına qarşı çıxan şəxslərin əzilməsində bilirdilər. Onların səyləri nəticəsində Quranın həqiqətlərinin açıqlanması yalnız sözlər və hərflər üzərində araşdırılmalar, qrammatik məsələlərə işarə etmək yaxud ilk ixtilaflar nəticəsində meydana çıxan müxtəlif məzhəblərin təəssüblə dolu mətləbləri səviyyəsində qaldı. Bir şəxs başını qaldırıb vicdanının səsi ilə Quranın həqiqətlərinin adını çəksəydi, ona qanlı qılınc, dar ağacı və qaranlıq zindanların küncündə işgəncələrlə cavab verilərdi. Bütün bunlar heç bir insaflı tarixçinin, üzərinə pərdə çəkə bilməyəcəyi gerçəklikdir.

Düşüncəsi donan və əxlaqi tənəzzülə düçar olan Islam cəmiyyəti cəhalət bataqlığında qərq oldu. Çox çəkmədi ki, öz zinət və bəzəkləri ilə gözləri qamaşdıran Avropa mədəniyyəti qərbdən doğdu.

Başda təbliğat, şəhvət azadlığı, eləcə də dağıdıcı və qorxuducu silahlar olmaqla bütün istismar və əsarət vasitələri ilə təchiz olunan avropalılar ən təsirli vasitələrlə bizə təlqin etdilər ki, siz müsəlmanların elmi fikirlərinin və həyat tərzinin dünya bazarında heç bir qiyməti yoxdur. Fikir də, metod da, elmi həyat da avropalılardadır və insanlıq yolunda tərəqqiyə nail olmaq üçün sorğu-sualsız avropalılara tabe olub onların arxasınca getməlisiniz. Bu sözün bizə təlqin olması ilə müsəlmanların böyük əksəriyyətinin təəzzülə doğru getməkdə olan fikir azadlığı bütünlüklə aradan getdi və olub qalan iradəmizi də itirdik. Artıq avropalılardan başqa insan, qərbdən başqa dünya, indiki Avropa həyatından başqa həyat, dünyapərəstlikdən başqa bir metod görmürük.

Cəmiyyətimizin başçıları və ziyalılarımızın məntiqi budur ki, bu gün artıq mütərəqqi dünya, yəni Avropa dünyası dinin formal işləri ilə uyğun gəlmir. Bizim qanunlarımız dünyanın, yəni Avropanın bəyəndiyi kimi olmalıdır. Bu gün birinin ziyalı

olduğundan danışılarkən onun avropalılar kimi fikirləşməsi nəzərdə tutulur. Buna oxşar məsələlər çoxdur.

Nəhayət iş gəlib o yerə çıxdı ki, dini hadisələrin tarixini, Islam həqiqətlərini təfsir edib onlar barəsində nəticə çıxarmağı da qərblilərdən öyrənməli və dinin nə olmasını avropalılardan soruşmalıyıq.

Sözün qısası, avropalıların təfəkküründən doğan, həmçinin təhrif olunmuş şəkildə bizə çatan öz naqis təlimlərimizin də müəyyən qədər təsdiqlədiyi budur ki, din bir sıra formal xarakter daşıyan və öldükdən sonra insanı xoşbəxt edən işlərdən ibarətdir və onun əsasında duran Allahı tanımaqdır: bu mənada ki, dünyagörüşləri bir sıra əfsanələr üzərində qurulan ilk insanlar dünyada zəlzələ, tufan, vəba, taun, ruh, səmavi hadisələr və s. kimi, səbəbləri bilinməyən bir sıra hadisələrlə qarşılaşan zaman təbiətin fövqündə mərhəmətinə ümid olunması və qəzəbindən qorxulması lazım olan allah adlı naməlum bir səbəbin varlığını qəbul etməkdən başqa bir yol görməmişlər.

Din haqqındakı bu görüşdən alına bilən nəticə budur ki, indiki dövrdə insanlar öz əzəmətli elmi qüdrəti ilə bu məchul məsələlərin böyük əksəriyyətini həll etdiyi və qalan çox az hissəsini də həll etmək ərəfəsində olduğu üçün artıq Allaha inanmağa heç bir lüzum qalmamışdır ki, insanlar ona ümid bəsləyərək, yaxud ondan qorxaraq dini qanunlara tabe olsunlar. Odur ki, artıq dini bir sıra formal və qeyri-real işlərdən başqa bir şey hesab etmək olmaz. Əgər din üçün həqiqi bir bazis fərz etsək də, dini qanunlar yalnız ölümdən sonrakı həyatla bağlı olduğu və bu dünyadakı yaşayışla heç bir əlaqəsi olmadığı üçün yalnız formal xarakter daşıyacaqdır. Hər halda həyatın problemlərini əfsanələr dövründən qalmış təqlidi metodla və dinlə yox, elm və zamanın məsləhəti ilə həll etmək lazımdır.

Sözsüz ki, biz bir tərəfdən təbiətlə mübarizəyə başı qarışıb maddi aləmi və kosmik fəzanı özünə tabe etmək məşğul olan, digər tərəfdən dünyadakı gündəlik çəkişmələr və mürəkkəb

siyasətlərlə əlbəyaxa olan, başqa bir tərəfdən isə orta əsrlərdəki kilsənin təlimlərinin dadı hələ də damaqlarında qalan şəxslərdən dinin həqiqəti barəsində bundan daha yaxşı təfsir və daha düzgün bir nəzəriyyə gözləyə bilmərik. Ancaq bunu deyə bilərik ki, Quran dini başqa mənaya təfsir edir, onun mahiyyətini başqa cür tanıtdırır, öz məqsədini izah və sübut edərkən başqa bir məntiqdən istifadə edir.

Məsələyə aydınlıq gətirmək üçün deyə bilərik ki, biz varlıq aləminin və yaradılışın nizam-intizamının istinasız olaraq səbəb-nəticə qanunu üzərində hərəkət etməsini fitri şüurumuzla qəti şəkildə dərk edirik. Hansısa bir gün yaranacaq hər hansı bir hadisənin öz-özünə və səbəbsiz vücuda gəlib aləmin bir hissəsinə çevrilməsinə və başqa varlıqların sırasında özünə yer tutmasına inana bilmərik. Bu nəzəriyyəyə və yaradılış aləminin bütün komponentləri arasında müşahidə etdiyimiz harmoniyaya görə hətta ən kiçik bir fenomenin belə yaranmasında və həyatının davamında kainatın bütün komponentlərinin rolu olmasına heç vaxt şübhə edə bilmərik. Ən kiçik bir zərrəciyin ən azacıq hərəkəti belə fövqəladə gücə malik olan aləmin ayrı-ayrı hissələrinin nəticəsidir, bu hadisədə keçmişdə və hal-hazırda olan bütün hadisələrin rolu vardır. Bu, fəlsəfənin və təcrübi elmlərin aşkar etdiyi bir həqiqətdir.

Nəticə etibarilə demək lazımdır ki, kainatın bir hissəsini təşkil edən, bir sıra işlərə və təsirlərə malik olan insan bütün kainatla əlaqəli və heç bir azadlığı olmayan bir fenomendir. Vücudundan və daxili quruluşundan tutmuş əməllərinə, yaşayışına qədər hər bir şey saysız-hesabsız amillərin, eləcə də kainatdan kənarda olan bir qüvvənin, yəni Allahın iradəsinin təsiri altındadır.

İnsanın varlığı ümmansız dənizin coşğun dalğaları arasında heç bir müqaviməti olmadan dalğaların əmri ilə aşağı-yuxarı hərəkət edən bir su damlasına bənzəyir. Biz insanların lovğalanaraq öz azadlığımıza inanmağımız və təbiətlə mübarizə apararaq ona hakim olmağa çalışmağımız necə də

gülməlidir. Halbuki bizim zəif vücudumuz, düşüncəmiz, zehnimizdə gedən təfəkkür prosesi, istifadə etdiyimiz vasitələr və əldə etdiyimiz hər bir şey bu geniş kainatın heyrətləndirici qüvvəsinin təsiri altındadır. Bizim iradəmiz yüz minlərlə amillərin və səbəblərin yalnız bir hissəsini təşkil edir, eyni zamanda yaradılış mexanizminin vasitələrindən hesab olunur. Təbiətlə mübarizə apararaq onu cilovlamaq və nəticə etibarilə hər şey yaratmağa qadir olmaq iddiası bir sıra məhrumiyyətlər nəticəsində həyatından şikayətlənməyə, bütün yaradılışı və yaradanı tənqid etməyə başlayan bir şəxsin iddiası kimidir: ***Nə üçün sərvətim əlimdən çıxdı? Nə üçün sağlamlığım əlimdən alındı? Bu nə zülmdür ki, yeganə övladım dünyadan getdi?***

Bu özünü itirmiş yazıq elə bilir ki, xilqət və xaliq qarşısında azaddır, hətta xilqətin belə qarışmağa haqqı olmayan bir sıra hüquqları vardır. Halbuki özü də, özünə aid bildiyi hər bir şey də xilqətindir, özü üçün nəzərdə tutduğu bütün bu azadlıq, hüquqlar və iddialar isə boş xəyallardan başqa bir şey deyildir. Sözün qısası, insan kainatın bir hissəsini təşkil edir və xilqət adlı sistemin qanunları ona hakimdir, çünki özünün hər bir fenomenini yaradan və onu kamilliyə tərəf aparan məhz bu sistemdir.

Buğda dənəsini içərisindəki bütün şəraitlə təmin edərək onu fəaliyyətə vadar edən, bir haldan başqa hala salaraq nəhayət tam bir sünbül formasına gətirən, kiçik bir meyvə dənəsini qayğı ilə böyük bir ağaca çevirən, aləmin ayrı-ayrı hissələri arasında balans və uyğunluq yaratmaqla hər bir varlıq üçün təkamül yolu (elə bir yol ki, əgər həmin yolla hərəkət etsə, digər varlıqlar da ona öz təkamülünə yetişməyə kömək edəcək, əks təqdirdə isə ziddiyyətli bir yaşayışla və bütün aləmin müqaviməti ilə üzləşəcəkdir) qoyan da həmin sistemdir. Bu yaradılış sistemi aləmin bir hissəsini təşkil edən insan üçün də xüsusi bir quruluş hazırlamış və xüsusi bir yaşayış təyin etmişdir. Insan yaşayışı boyu təchiz olunduğu vasitələrlə öz vücudunun çatışmazlıqlarını aradan qaldırır və beləliklə öz

səadətinə çatır. Aydındır ki, insanın təchiz olunduğu bu vasitələr onu ictimai və kollektiv bir yaşayışa vadar edir.

Quranda bildirilir ki, insanın həyatı ölümlə başa çatmayan əbədi bir həyatdır və deməli o, elə bir həyat yolu seçməlidir ki, həm müvəqqəti dünya evində, həm də əbədi axirət evində onun üçün faydalı olsun. Elə bir yolla hərəkət etsin ki, bu yol onu həm dünya, həm də axirət səadətinə çatdırsın. Bu isə Quranın "din" adlandırdığı yoldan ibarətdir. Bu yol yaradılış sisteminin ümumi qüvvəsindən qaynaqlanır və onun ümumi tələbləri ilə uyğundur. Keçən bəhslərdən aydın olur ki, Quranın məntiqinə görə din, insanın öz həyat səadətini təmin etmək üçün seçdiyi ictimai yaşayış yoludur.

Şübhəsiz ki, insanın yaşayışı yalnız dünya həyatı ilə məhdudlanmadığı üçün bu yol həm dünya səadətini təmin edən qanunlara, həm də axirət səadətinə zəmanət verən etiqad, əxlaq və ibadət haqqında bir sıra məsələlərə şamil olmalıdır. Insanın həyatı bütöv bir həyat olduğu üçün dünya və axirət məsələləri heç zaman bir-birindən ayrıla bilməz.

Eləcə də aydın oldu ki, dinin bazisi insanın cilovlanmayan duyğu və emosiyaları yox, həqiqi yaradılış sistemidir. Yəni ehtiyaclarının aradan qaldırılması üçün yaradılış sistemi tərəfindən təchiz olunan insanın bu ehtiyacları onun xoşuna gələn, lakin yaradılış sisteminin qəbul etmədiyi hər hansı başqa bir yolda deyil, yalnız ictimai həyat yolu olan dində ədalətli şəkildə təmin oluna bilər. Çünki insanın həqiqi istəyi, cahillik üzündən aldanıb istək hesab etdiyi bir sıra şıltaq xəyallar yox, yaradılış sistemindən qaynaqlanan bir istəkdir.

Sadə dillə desək, Qurani kərim insan cəmiyyətində xalqın, yaxud hansısa bir diktatorun emosiyalarının tələblərinə deyil, haqq və həqiqətin tələblərinə əməl olunmasının lazım olduğunu bildirir.

Odur ki, İslam cəmiyyətdə hər bir fərdin həqiqi hüquqlarının istinasız olaraq riayət olunmasının lazım olduğunu bildirir. Despotizm rejimi cəmiyyətdə yalnız hökmdarın istəklərinin

icra olunmasını lazım bilir. Demokratik rejim isə xalqın əksəriyyətinin (50%+1) istəklərini meyar bilir, azlıq təşkil edən tərəfin (50% -1) istəklərini isə dəyərsiz hesab edir.

## X fəsil

## *Məad: başqa dinlərdə və Quranda.*

Məad müqəddəs İslam dininin doqmalarından və onun üç başlıca prisipindən biridir. İstisnasız olaraq hər bir insan öz fitrəti ilə pislik və yaxşılıq arasındakı fərqi dərk edir, hətta özü əməl etməsə belə yaxşı iş görməyi və pis işdən çəkinməyi lazımlı bilir. Heç şübhəsiz ki, işlərin "yaxşı və ya pis" sayılması onların mükafatına və cəzasına görədir. Digər tərəfdən isə dünyada elə bir gün olmayıb ki, insanlar öz yaxşı əməllərinin mükafatını və pis əməllərinin cəzasını almış olsunlar. Çünki aydın surətdə görürük ki, bir çox yaxşı insanlar ən acınacaqlı vəziyyətdə yaşayır və başdan ayağa cinayətkar olan bir sıra pis insanlar isə öz çirkin hərəkətləri ilə belə, ləzzət içərisində yaşayırlar. Buna görə də, əgər gələcəkdə başqa bir aləmdə insana yaxşı əməllərinə görə mükafat, pis əməllərinə görə isə cəza veriləcəyi bir gün olmazsa, yaxşı işləri yerinə yetirməyin və pis işləri tərk etməyin lazım olması fikri onun fitrətində qoyulmazdı.

Yaxşı işlərin mükafatını bu işlərin vasitəsilə cəmiyyətdə nizam-intizamın yaranması və beləliklə cəmiyyətin bütövlükdə səadətə çatması ilə bu səadətdən yaxşılıq edən insanın da payına düşməsində hesab etmək doğru deyildir. Çünki bu söz adi insanların barəsində müəyyən qədər düz olsa da, cəmiyyətin asayişdə, yaxud fitnə-fəsad içərisində olmasının iqtidarda olan şəxslərin səadətində heç bir təsiri yoxdur. Əksinə nə qədər fitnə-fəsad çox baş verərsə və xalqın günü qara olarsa onlar daha xoşbəxt olarlar. Belə bir halda insanların yaxşı işlər görüb pis işlərdən çəkinməsi üçün heç bir lüzum olmayacaq.

Həmçinin pis insanların öz bir neçə günlük yaşayışlarında xoşbəxt yaşamalarına baxmayaraq öldükdən sonra pis işlərinə görə hamının ona nifrət etməsi də onların öz əməllərinin cəzasını alması demək deyildir. Çünki ölüb getdikdən sonra adlarının ləkəli göstərilməsinin və gələcək nəslin onların pisliklə yad etməsinin onların ləzzət içərisində keçirdikləri yaşayışda heç bir təsiri yoxdur. Belə olduqda artıq insanın yaxşı işləri yerinə yetirməsinin və pis işləri tərk etməsinin zəruri olmasına heç bir dəlil olmayacaq. Əgər məad olmazsa, yaxşı işlərin layiqli və pis işlərin çirkin olmasına olan fitri inam xülyadan başqa bir şey olmaz. Deməli xilqətin fitrətimizdə qoyduğu bu müqəddəs və sarsılmaz əqidə vasitəsilə başa düşməliyik ki, uca Allah hamını öldükdən sonra yenidən dirildib əməllərinə görə mühakimə edəcək, yaxşı əməl sahiblərinə mükafat və əbədi nemətlər, pis əməl sahiblərinə isə cəza verəcəkdir.

## *Məad və dinlər*

Allaha sitayişə çağıran və insanları yaxşı işlərə sövq edib pis işlərdən çəkindirən bütün din və məzhəblər insanın öldükdən sonra məad adlı başqa bir həyatının olmasına inanırlar. Çünki heç vaxt şübhə etmirlər ki, yaxşı işlər o zaman öz dəyərini tapar ki, onun üçün yaxşı bir mükafat nəzərdə tutulmuş olsun. Bu mükafat yaşadığımız maddi aləmdə olmadığı üçün deməli ölümdən sonra başqa aləmdə və başqa bir yaşayışla olacaq. Bundan əlavə, arxeoloji qazıntılar nəticəsində tapılan qəbirlərdə qədim insanların ölümdən sonrakı həyata inanmalarını göstərən bir çox nişanələr üzə çıxmışdır. Onlar ölünün o biri aləmdə rahat yaşaması üçün öz etiqadlarına əsasən bir sıra işlər görürmüşlər.

## *Quranda məad*

Qurani kərim yüzlərlə ayədə məad barəsində insanlara xəbərdarlıq edərək onda heç bir şəkk-şübhənin olmamasını vurğulayır və bir çox yerlərdə insanların agahlığının artması və məsələnin onlara qəribə görünməməsi üçün əşyaların ilk yaradılışını, Allahın sonsuz qüdrətini insanlara xatırladır

أَوَلَمْ يَرَ الْإِنسَانُ أَنَّا خَلَقْنَاهُ مِن نُّطْفَةٍ فَإِذَا هُوَ خَصِيمٌ مُّبِينٌ وَضَرَبَ لَنَا مَثَلًا وَنَسِيَ خَلْقَهُ قَالَ مَنْ يُحْيِي الْعِظَامَ وَهِيَ رَمِيمٌ قُلْ يُحْيِيهَا الَّذِي أَنشَأَهَا أَوَّلَ مَرَّةٍ وَهُوَ بِكُلِّ خَلْقٍ عَلِيمٌ

***"Məgər insan onu nütfədən yaratdığımızı görmədimi ki, birdən-birə (Rəbbinə) açıq bir düşmən kəsilərək öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!" - deyə, hələ Bizə bir məsəl də çəkdi. De: "Onları ilk dəfə yoxdan yaradan diriləcəkdir. O, hər bir məxluqu çox gözəl tanıyandır!"[63]***

Bəzən insanların diqqətini bahar gələrkən təbiətin qışdakı ölümdən sonra dirilməsinə çəkərək Allahın qüdrətini xatırladır:

وَمِنْ آيَاتِهِ أَنَّكَ تَرَى الْأَرْضَ خَاشِعَةً فَإِذَا أَنزَلْنَا عَلَيْهَا الْمَاءَ اهْتَزَّتْ وَرَبَتْ إِنَّ الَّذِي أَحْيَاهَا لَمُحْيِي الْمَوْتَى إِنَّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

***"Onun qüdrət nişanələrindən biri də budur ki, sən yer üzünü qupquru görürsən. Biz ona yağış yağdıran kimi hərəkətə gəlib qabarar (cana gələr). Onu diriildən, şübhəsiz ki, ölüləri də diriləcəkdir. Həqiqətən, O, hər şeyə qadirdir!"[64]***

Bəzən isə əqli dəlil yolu ilə bu həqiqəti etiraf etmək üçün insanların fitrətini oyatmağa çalışır:

---

[63] Yasin 77-79

[64] Fussilət 39

وَمَا خَلَقْنَا السَّمَاءَ وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا بَاطِلًا ذَلِكَ ظَنُّ الَّذِينَ كَفَرُوا فَوَيْلٌ لِّلَّذِينَ كَفَرُوا مِنَ النَّارِ أَمْ نَجْعَلُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ كَالْمُفْسِدِينَ فِي الْأَرْضِ أَمْ نَجْعَلُ الْمُتَّقِينَ كَالْفُجَّارِ

***"Biz göyü, yeri və onların arasında olanları boş-boşuna yaratmadıq (Çünki əgər insanlar bir-birinin ardınca yaranıb məhv olsaydı yaradılış mənasız olardı, halbuki hikmətli Allah mənasız iş görməz). Bu, məadı danan kafirlərin zənnidir. Vay cəhənnəm odunda yanacaq kafirlərin halına! Yoxsa Biz iman gətirib yaxşı işlər görənləri yer üzündə fitnə-fəsad törədənlərlə eyni tutacağıq?! Yaxud Allahdan qorxub pis əməllərdən çəkinənləri günahkarlara tay edəcəyik?! (çünki bu dünyada pislərlə yaxşılar öz əməllərinin əvəzini almırlar)."***[65]

Əgər hər kəsin öz əməllərinin əvəzini alması üçün başqa bir aləm olmazsa, bütün insanlar Allah qarşısında bərabər olar. Bu isə Allahın ədaləti ilə ziddir.

## *Ölümdən qiyamətədək (ölən ruh yox, bədəndir)*

Islamın nəzərində insan ruh və bədəndən təşkil olunmuş bir məxluqdur. Bədən özü maddi birləşmələrdən ibarət oluduğu üçün ona maddənin qanunları hakimdir. Yəni həcmi, kütləsi vardır, yaşayışı zaman və məkan çərçivəsindədir, isti, soyuq və s. kimi maddi hadisələr onda təsir qoyur, tədricən köhnəlir və solur (qocalır), nəhayət bir gün Allahın əmri ilə yarandığı kimi bir gün də parçalanıb aradan gedir.

Lakin insanın ruhu maddi deyildir. O, yuxarıda qeyd olunan maddi xüsusiyyətlərə yox, elm, duyğu, fikir, iradə, məhəbbət, kin, sevinc, kədər, qorxu, ümid və s. kimi qeyri-maddi xüsusiyyətlərə malikdir. Ürək, beyin və digər bədən üzvləri öz

[65] Sad 27, 28

fəaliyyətlərində ruha və ruhi xüsusiyyətlərinə tabedir və bədən üzvlərindən heç birini insanı idarə edən mərkəz hesab etmək olmaz. Allah taala Quranda buyurur:

وَلَقَدْ خَلَقْنَا الْإِنسَانَ مِن سُلَالَةٍ مِّن طِينٍ ثُمَّ جَعَلْنَاهُ نُطْفَةً فِي قَرَارٍ مَّكِينٍ ثُمَّ خَلَقْنَا النُّطْفَةَ عَلَقَةً فَخَلَقْنَا الْعَلَقَةَ مُضْغَةً فَخَلَقْنَا الْمُضْغَةَ عِظَامًا فَكَسَوْنَا الْعِظَامَ لَحْمًا ثُمَّ أَنشَأْنَاهُ خَلْقًا آخَرَ

***“Biz, həqiqətən, insanı tərtəmiz (süzülmüş) palçıqdan yaratdıq. Sonra onu nütfə halında möhkəm bir yerdə (ana bətnində) yerləşdirdik. Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa bir məxluq olaraq yaratdıq (Ona ruh verdik).”***[66]

**Islam prizmasından ölümün mənası**

Islamın nəzərində ölümün mənası yox olub aradan getmək deyil, ölməz və əbədi olan ruhun bədənlə əlaqəni kəsməsidir. Deməli bədən aradan gedir, ruh isə bədənsiz öz yaşayışını davam etdirir. Uca Allah buyurur:

وَقَالُوا أَئِذَا ضَلَلْنَا فِي الْأَرْضِ أَئِنَّا لَفِي خَلْقٍ جَدِيدٍ بَلْ هُم بِلِقَاءِ رَبِّهِمْ كَافِرُونَ قُلْ يَتَوَفَّاكُم مَّلَكُ الْمَوْتِ الَّذِي وُكِّلَ بِكُمْ

***“(Axirətə inanmayanlar) dedilər: "Məgər biz torpağa qarışıb yox olandan sonra yenidənmi yaradılacağıq?" Bəli, onlar Rəbbi ilə qarşılaşacaqlarını (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracaqlarını) inkar edən kəslərdir! De: "Sizə müvəkkil olan ölüm mələyi sizi bədənlərinizdən geri götürür. Bədənlərinizin parçalanıb dağılması ilə siz məvh olmursunuz.”***[67]

---

[66] Muminun 12-14

[67] Səcdə 10, 11

Əziz peyğəmbərimiz buyurur: Siz yox olmursunuz, əksinə bir evdən başqa bir evə köçürsünüz.

## *Bərzəx aləmi*

İslam dini insanların öldükdən sonra xüsusi bir şəkildə dirilməsinə, yaxşı insanların səadətə və nemətlərə yetişəcəyinə, pis insanlara əzab veriləcəyinə inanır. Qiyamət baş verən zaman isə hamı öz əməllərinə görə hesabat verəcəklir. Insanın ölümlə qiyamət arasında yaşadığı aləmə bərzəx aləmi deyilir.

وَلاَ تَحْسَبَنَّ الَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ اللّهِ أَمْوَاتًا بَلْ أَحْيَاءٌ عِندَ رَبِّهِمْ يُرْزَقُونَ

***Allah yolunda öldürülənləri heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi əta olunur.***[68]

# XI fəsil

## *Yaradan haqqındakı axtarış fitri istəkdən doğur.*

İnsan Allahın verdiyi fitri istəklə gördüyü hər bir hadisənin yaranma səbəbini axtarır, heç vaxt onların səbəbsiz olaraq təsadüfən öz-özünə yarana bilməsinə inana bilmir. Maşını işdən düşmüş bir sürücü maşının dayanmasının səbəbini tapmaq üçün aşağı enərək ehtimal olunan yerlərə baxır və heç zaman maşının tam hazırlıqlı vəziyyətdə ola-ola dayanmasına inanmır. Maşını hərəkətə gətirmək istədikdə isə, təsadüfən onun öz-özünə işə düşəcəyini gözləmir, əksinə maşınının hərəkəti üçün nəzərdə tutulmuş vasitələrdən istifadə edir.

İnsan acdığı zaman çörək fikrinə düşür, susuzlayarkən suya tərəf gedir, üşüdüyü zaman öz ehtiyacını paltar, yaxud ocaq vasitəsilə aradan qaldırmaq fikrinə düşür və təsadüflərə bel

---

[68] Ali-İmran 169.

bağlamır. Bina tikmək istəyən kəs bənna, fəhlə və tikinti materialları axtarır və istəyinin öz-özünə yaranamasına qətiyyən ümid etmir.

İnsan yarandığı vaxtdan dağları, meşələri, geniş dənizləri, günəşi, ayı, göydə daim nizamlı hərəkətdə olan parlaq ulduzları görmüşdür. Bununla belə dünya alimləri öz yorulmaq bilməyən fəaliyyətləri ilə həmişə bu qəribə varlıqların yaranma səbəblərini axtarmış və heç vaxt deməmişlər ki, biz var olan zamandan bunları bu vəziyyətdə görmüşük, deməli öz-özünə yaranmışlar.

Bu maraq və səbəbaxtarma hissi insanı xilqətin və onun heyrətləndirici nizam-intizamının yaranması haqqında araşdırmaya və aşağıdakı suallara cavab tapmağa vadar edir: Komponentləri bir-biri ilə sıx şəkildə bağlı olan və həqiqətdə vahid bir varlıq hesab olunan bu geniş kainat öz-özünəmi, yaxud başqası tərəfindən vücuda gəlmişdir? Sabit və istisnasız olaraq aləmin hər bir nöqtəsində hökm sürən və bütün varlıqları öz hədəfinə yönəldən bu heyrətləndirici nizam-intizam sonsuz bir qüdrət və elm tərəfindən həyata keçirilir, yaxud təsadüfən yaranmışdır?

## *Yaradanın isbatı.*

İnsan yaradılış aləminə obyektiv baxışla baxdığı zaman yaradanın varlığına çoxlu dəlillər görə bilər. Çünki o aydın şəkildə dərk edir ki, varlıq nemətindən payı olan və öz varlıqlarında istər-istəməz müəyyən bir yol keçib bir müddətdən sonra öz yerini başqalarına verən məxluqlardan heç biri varlığı özü özünə verməmiş, keçdiyi nizamlı yolu özü ixtira etməmiş və öz varlığının hərəkət trayektoriyasının tənzimlənməsində azacıq təsirə belə malik deyildir. Çünki insani xüsusiyyətləri insanın özü özü üçün seçməmişdir, əksinə o yaradılmış və bu xüsusiyyətlər ona başqası tərəfindən təqdim olunmuşdur. Həmçinin insanın obyektivlik hissi hökm edir ki,

bütün bu əşyalar öz-özünə təsadüfi olaraq vücuda gəlməmiş və varlıqlarının nizamı elə-belə yaranmamışdır. Çünki insan hətta bir neçə kərpicin belə bir-birinin üzərinə nizamla düzülməsinin təsadüfi olmasını qəbul etmir. Odur ki, insanın obyektivlik hissi elan edir ki, varlıq aləminin yaradanı və qoruyanı vardır. O, sonsuz varlıq, elm və qüdrət mənbəyi olan Allahdır və bütün aləm onun varlığından qaynaqlanır. Uca Allah Quranda buyurur:

قَالَ رَبُّنَا الَّذِي أَعْطَى كُلَّ شَيْءٍ خَلْقَهُ ثُمَّ هَدَى (50)

***“(Musa) belə cavab verdi: "Rəbbimiz hər şeyə öz xilqətini verən, sonra da ona doğru yolu göstərəndir!"***[69]

## *Müxtəlif xalqlarda Allaha etiqad.*

Tarix göstərir ki, indiki əsrdə yer üzünün əksər insanları kimi keçmişdəki insanlar da dindar olmuş, dünyanı yaradan Allaha inanmış və ona sitayiş etmişlər. Dindar cəmiyyətlər arasında Yaradanın sifətləri haqqında müəyyən ixtilaflar olsa da, Yaradanın varlığını haqqında fikir birliyi vardır. Xristianlıq, yəhudilik, atəşpərəstlik, buddizm kimi Islamdan başqa dinlər də bu məsələdə həmfikirdirlər. Yaradanın varlığını inkar edənlərin heç zaman dəlilləri olmamış və heç zaman da olmayacaq. Çünki özləri də “Yaradanın yoxluğuna dəlilimiz vardır”- demirlər, əksinə “Yaradanın varlığına dəlilimiz yoxdur”- deyirlər. Materialist “yoxdur”- demir, “bilmirəm”- deyir. Başqa sözlə desək, Yaradanı inkar etmir, sadəcə olaraq ona şəkki vardır. Uca Allah Quranda bu məsələyə işarə edərək buyurur:

وَقَالُوا مَا هِيَ إِلَّا حَيَاتُنَا الدُّنْيَا نَمُوتُ وَنَحْيَا وَمَا يُهْلِكُنَا إِلَّا الدَّهْرُ وَمَا لَهُم بِذَلِكَ مِنْ عِلْمٍ إِنْ هُمْ إِلَّا يَظُنُّونَ

---

[69] Taha 50

***"İnkar edənlər belə deyirlər: "Dünya həyatımızdan başqa heç bir həyat yoxdur; ölürük və dirilirik (biri ölür, digəri anadan olur); bizi öldürən ancaq dəhrdir (zamanın gərdişidir). Bu barədə onların heç bir yəqini yoxdur. Onlar ancaq zənnə qapılırlar!"***[70]

İlkin insanlardan qalan ən qədim tarixi izlərdə belə, dinə və Allaha etiqadın nişanələri vardır və onların fövqəltəbii aləmə etiqadları barəsində faktlar vardır.

Hətta Amerika və Avstraliya kimi yeni kəşf olunan qitələrdə də yerli əhali dindar olmuş, hər kəs öz təfəkkür tərzinə uyğun şəkildə aləmin Yaradanın varlığını sübut edirmiş. Halbuki onların qədim dünya ilə əlaqəsi barədə heç bir şey əldə olunmamışdır.

Allaha etiqadın həmişə insanlar arasında olduğuna nəzər salarkən aydın olur ki, Yaradana və Allaha etiqad insanların fitrətindən qaynaqlanır. Allah taala bu barədə buyurur:

وَلَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَهُمْ لَيَقُولُنَّ اللَّهُ

***"Həqiqətən, əgər onlardan: "Sizi kim yaratmışdır?" - deyə soruşsan, onlar mütləq: "Allah!" - deyə cavab verəcəklər"***[71]

وَلَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ لَيَقُولُنَّ اللَّهُ

***"Həqiqətən, əgər sən: "Göyləri və yeri kim yaratmışdır?" - deyə soruşsan, onlar mütləq: "Allah!" - deyə cavab verəcəklər.***[72]

## Bu axtarışın insanın həyatında təsiri

Əgər insan dünyanın yaradanı haqqındakı fitrətindən doğan bu suallara müsbət cavab verərsə, dünyanın qəribə nizam-intizamla yaranıb idarə olunmasının ölməz bir varlıq tərəfindən

---

[70] Casiyə 24
[71] Zuxruf 87
[72] Loğman 25

yerinə yetirildiyi, hər bir şeyin onun sonsuz elm və qüdrətinə arxalanan məğlubedilməz iradəsilə bağlı olması insan üçün aydın olacaqdır. Nəticə etibarilə bir növ rahatlıq və aramlıq onun qəlbinə hakim kəsiləcək, həyatda çətinliklərdə qarşılaşdığı və bütün çıxış yollarının üzünə bağlandığı zaman heç vaxt ümidsizliyə qapılmayacaq. Çünki bilir ki, bütün səbəblər nə qədər güclü olsa belə, Qadir Allahın əlindədir və onun əmrinə tabedir. Belə bir şəxs heç vaxt səbəblərə qətiyyən təslim olmur, dünyanın gedişatı onun istədiyi şəkildə olarkən qürrələnmir, özünün və dünyanın vəziyyətini unutmur. Çünki bilir ki, zahiri səbəblər özbaşına yox, Allahdan aldıqları göstəriş əsasında hərəkət edirlər. Nəhayət belə bir şəxs dərk edir ki, varlıq aləmində uca Allahdan başqa heç bir şeyə təzim edib baş əymək və ondan başqasının əmrinə qətiyyən itaət etmək olmaz.

Yuxarıdakı suallara mənfi cavab verən şəxs isə, dindar şəxs qədər nikbin, ümidvar, obyektiv alicənab və şücaətli ola bilməz.

Odur ki, materializm ruhu hakim olan xalqlarda gündən-günə intiharın çoxaldığını və yalnız zahiri səbəblərə ümid bağlayan şəxslərin qeyri-münasib şərait yaranan zaman məyus olub öz həyatına son qoyduğunu görürük. Allaha iman adlı nemətə nail olan şəxslər isə, hətta özlərini ölümün caynağında görərkən ümidsizliyə qapılmır, hər şeyi görən və hər şeyə qadir Allahı xatırlayaraq təskinlik tapırlar.

İmam Hüseyn (ə) həyatının son anlarında hər tərəfdən düşmənlərin hücumuna məruz qalarkən buyururdu: Bu çətin müsibəti mənim üçün asan edən, Allahın mənim bütün əməllərimi görməsinə olan imanımdır. Qurani kərim bir neçə ayədə bu həqiqəti aşkar şəkildə buyurur:

إِنَّ الَّذِينَ قَالُوا رَبُّنَا اللَّهُ ثُمَّ اسْتَقَامُوا فَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ (13)

***“Şübhəsiz: "Rəbbimiz Allahdır!" - deyənlərin, sonra da (sözünün üstündə) möhkəm duranların (qiyamət günü) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməyəcəklər!”***[73]

الَّذِينَ آمَنُواْ وَتَطْمَئِنُّ قُلُوبُهُم بِذِكْرِ اللّهِ أَلاَ بِذِكْرِ اللّهِ تَطْمَئِنُّ الْقُلُوبُ (28)

***“O kəslər ki, Allaha iman gətirmiş və qəlbləri Allahı zikr etməklə aram tapmışdır. Bilin ki, qəlblər (mö’minlərin ürəkləri) yalnız Allahı zikr etməklə aram tapar!”***[74]

**Quran aspektindən Allahı tanımanın yolu.**

Anasının döşünə əl ataraq onu sormağa başlayan südəmər uşaq əslində süd içmək istəyir və nəyisə tutub özünə tərəf çəkərək süd içmək üçün onu ağzına tərəf aparırsa da, əsl hədəfinə yetişmək, yəni süd içmək üçün edir. Əgər səhv etdiyini və götürdüyü şeyin öz hədəfini təmin etmədiyini görərsə, onu kənara atır. Insan da öz işlərində belədir. Izlədiyi hər bir hədəfdə real nəticəyə çatmaq istəyir. Səhvə yol verdiyini başa düşərkən öz səhvinə görə narahat olur və boş yerə çəkdiyi zəhmətlərə görə təəssüflənir. Hər haldda insan həmişə səhvə düşməkdən çəkinməyə çalışır və bacardığı qədər hədəfinə çatmaq üçün səy göstərir. Buradan aydın olur ki, insan həmişə fitri olaraq obyektivliyə tabedir, yəni istər-istəməz həqiqət və reallıq axtarır. O, bu fitri xüsusiyyəti heç kimdən öyrənməmişdir. Insanın bəzən haqqa tabe olmaqdan boyun qaçırmasının səbəbi onun səhvə yol verməsindən və həqiqətin onun üçün aydın olmamasından irəli gəlir. Əgər həqiqət onun üçün aydın olsaydı, xətaya düçar olmazdı. Bəzən isə insan nəfsani istəklərinin təsiri altında bir növ xəstəliyə düçar olduğu üçün həqiqətin şirin dadı onun üçün acı gəlir. O zaman insan haqqı tanıdığı və ona tabe olmağın lazım olduğunu etiraf etdiyi halda onu qəbul etməkdən boyun qaçırır.

---

[73] Əhqaf 13

[74] Rəd 28

Həyatda çox zaman müşahidə etdiyimiz kimi bir çoxları ziyanlı şeylərə qurşandığı üçün öz insani instinktini (təhlükəni uzaqlaşdırmaq və ziyandan qaçmaq) itirir və ziyanlı olduğunu bildiyi işlərə addım atır (Siqaretə, alkoqolizmə və narkomaniyaya qurşanan şəxslər kimi).

Quran insanı obyektivliyə və haqqa tabe olmağa dəvət edərək bu məsələyə çox israr edir və müxtəlif bəyanlarla insanlardan istəyir ki, obyektivlik və haqqa tabe olmaq hissini diri saxlasınlar. Uca Allah buyurur:

فَمَاذَا بَعْدَ الْحَقِّ إِلاَّ الضَّلاَلُ

***"Artıq haqdan sonra zəlalətdən başqa nə qalır?"[75]***

Eləcə də buyurur:

إِنَّ الْإِنسَانَ لَفِي خُسْرٍ إِلَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَتَوَاصَوْا بِالْحَقِّ
وَتَوَاصَوْا بِالصَّبْرِ

***"İnsan ziyan içindədir? Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa!"[76]***

Aydındır ki, bütün bu ilahi tapşırıqlar bunun üçündür ki, əgər insan obyektivlik və haqqa tabe olmaq hissini qoruyub saxlamasa, öz səadəti üçün çalışmayacaq, nəfsinin istədiyi hər bir işin dalınca gedəcək, puç xəyallara düçar olacaqdır. Artıq o zaman yolunu azmış bir heyvan kimi öz cahili istəklərinin qurbanı olacaqdır. Allah taala buyurur:

أَرَأَيْتَ مَنِ اتَّخَذَ إِلَهَهُ هَوَاهُ أَفَأَنتَ تَكُونُ عَلَيْهِ وَكِيلًا أَمْ تَحْسَبُ أَنَّ أَكْثَرَهُمْ يَسْمَعُونَ
أَوْ يَعْقِلُونَ إِنْ هُمْ إِلَّا كَالْأَنْعَامِ بَلْ هُمْ أَضَلُّ سَبِيلًا

***Nəfsini özünə tanrı edənlər haqqında fikrin nədir? Onu bəd əməllərdən sənmi çəkindirib saxlaya biləcəyini düşünürsənmi? Yoxsa elə güman edirsən ki, onların***

---

[75] Yunus 32

[76] Əsr 2-3

***əksəriyyəti söz eşidəcək və ya fikirləşəcək? Onlar heyvan kimidirlər, hətta heyvandan daha çox zəlalət yolundadırlar.***[77]

Şübhəsiz ki, obyektivlik hissi dirilən və haqqa tabe olmaq hissi yenidən fəaliyyətə başlayan zaman həqiqətlər bir-birinin ardınca insan üçün aydınlaşacaq, bu zaman insan tapdığı hər bir həqiqəti köksünə alacaq və hər gün xoşbəxlik və səadət yolunda yeni bir addım atacaqdır.

## *Quranın Allah haqqında təlimləri*

### Allahın varlığı:

أَفِي اللّهِ شَكٌّ فَاطِرِ السَّمَاوَاتِ وَالأَرْضِ

***"Məgər göyləri və yeri yaradan Allaha da şübhə etmək olarmı?!***[78]

Izah: Günün işığında hər bir şey göz qabağında aydın görünür: özümüz, başqaları, ev, şəhər, səhra, dağ, meşə və dəniz. Gecənin qaranlığı hər tərəfi bürüyəndə isə, əvvəl aydın şəkildə gördüyümüz həmin şeylər gözümüzdə qaranlıqlaşır. O zaman məlum olur ki, bütün bunların aydınlığı özündən deyilmiş, əksinə bir növ əlaqədə olduqları günəşin vasitəsilə işıqlanırmışlar. Günəş özü isə aydın və işıqlı olmaqdan əlavə nur saçmaqla yeri və yer üzərində olan əşyaları işıqlandırır. Əgər bu əşyaların aydınlığı özlərindən olsaydı, heç zaman qaranlıqlaşmazdılar.

İnsanlar və digər canlı heyvanlar göz, qulaq və sair hiss üzvləri ilə əşyaları dərk edir və əl, ayaq və sair daxili və xarici üzvləri ilə fəaliyyət göstərirlər. Lakin bir müddətdən sonra hiss və hərəkətləri dayanıb fəaliyyətdən düşür və beləliklə ölürlər.

Biz bu səhnəni müşahidə edərkən belə nəticə çıxarırıq ki, bu canlılarda özünü büruzə verən şüur, iradə və fəaliyyət onların bədənlərindən yox, ruhlarından olduğu üçün ruhun ayrılması

---

[77] Furqan 43-44

[78] İbrahim 10

ilə öz yaşayışlarını və fəaliyyətlərini itirirlər. Məsələn əgər eşitmək və görmək qulaqdan və gözdən olsaydı, bu iki üzv var olduğu müddətdə eşitmək və görmək də davam etməli idi, halbuki belə deyildir.

Həmçinin bir hissəsi biz insanlardan ibarət olan və varlığına heç zaman şəkk etmədiyimiz bu geniş aləmin də varlığı əgər özündən olsaydı, heç vaxt onu itirməzdi. Halbuki gözümüzlə görürük ki, onun ayrı-ayrı hissələri bir-birinin ardınca öz varlığını itirməkdə, həmişə biri digərinə çevrilməkdə və bir formadan başqa formaya keçməkdədir.

Deməli qəti şəkildə nəticə almaq olar ki, bütün bu əşyaların varlığı başqa bir mövcuddan qaynaqlanır. Həmin mövcud hər hansı əşya ilə əlaqəni kəsdikdə həmin əşya yoxluğa çevrilir. Öz sonsuz varlığı ilə bütün aləmin varlıqlarının dayaq nöqtəsi hesab olunan və onları qoruyub saxlayan bu mövcud Allah adlanır. O elə bir varlıqdır ki, heç zaman yoxluq ona tərəf yol tapa bilməz, əks təqdirdə başqa varlıqlar kimi onun da vücudu başqasından olardı və başqasına ehtiyaclı sayılardı.

## *Quran və tövhid*

Əgər insan pak fitrəti ilə varlıq aləminə nəzər salsa, onun hər bir nöqtəsində Allahın varlığına bir çox dəlillərin olduğunu görər. Çünki insanın bu aləmdə üzləşdiyi hər bir şey ya Allaın yaratdığı varlıq, ya Onun bu varlıqlarda qoyduğu xüsusiyyət, yaxud da Onun əmri ilə hər bir varlığa hakim olan nizam-intizamdır. İnsanın özünün də başdan ayağa bütün vücudu bu həqiqətə şahiddir. Çünki başqa yaranmışlar kimi onun da nə varlığı özündəndir, nə büruzə verdiyi xüsusiyyətlər öz ixtiyarına bağlıdır, nə dünyaya gəldiyi gündən vücudunda qoyularaq icra olunan proqramı özü fikirləşib yaradıb, nə bu nizam-intizamı təsadüfi və bir-biri ilə əlaqəsiz hesab edə bilər, nə də varlıqları və onun nizam-intizamını yarandıqları mühitin nəticəsi bilmək olar. Çünki həmin mühitin və ona hakim olan

nizam-intizamın varlığı o mühitin özü tərəfindən yaradılmamış, təsadüfi yolla da vücuda gəlməmişdir. Odur ki, insan aləmdə bütün əşyaları yaradan və təkamülə doğru aparan bir xaliqin varlığını qəbul etməkdən başqa bir yol görmür. Hər bir mövcuda varlıq bağışlayan və sonra onu qoruyaraq kamilliyə doğru hidayət edən odur. Əşyaların yaranışı bir-biri ilə əlaqəli və aləmə hakim olan nizam vahid olduğu üçün nəticə alır ki, aləmi yaradan və idarə edən vahid bir varlıqdır. Quranda buyurulur:

لَوْ كَانَ فِيهِمَا آلِهَةٌ إِلَّا اللَّهُ لَفَسَدَتَا

***“Əgər Allahdan başqa tanrılar olsa idi, yer də, göy də müvazinətdən çıxıb dağılardı.”[79]***

Izah: Əgər aləmdə bir neçə tanrı hökmranlıq etsəydi, bütpərəstlərin dedikləri kimi aləmin hər hissəsini ayrıca allah idarə etsəydi və yerin, göyün, dənizin və meşənin hərəsinin özü üçün allahı olsaydı, allahlar arasında ixtilaf olardı və beləliklə aləmin hər yerində başqa cür nizam olardı və aləm dağılardı. Halbuki aləmin bütün komponentləri arasında sıx rabitənin və tam bir harmoniyanın olduğunu və onların bütövlükdə vahid bir sistem təşkil etdiyini görürük. Buna görə də deməк lazımdır ki, aləmi yaradan təkdir.

Bəlkə də kimsə fikirləşə bilər ki, fərz etdiyimiz allahlar ağıllı olduqları və aralarında ixtilaf olarkən aləmin dağılacağını bildikləri üçün heç vaxt bir-biri ilə ixtilaf etməzlər. Lakin bu yanlış təsəvvürdür, çünki yaradılış aləmini, yaxud onun bir hissəsini idarə edən allah insan kimi fikirləşib iş görmür.

Məsələyə aydınlıq gətirmək üçün əlavə etmək olar ki, dünyaya göz açıb ona hakim olan qanunlar sistemini müşahidə etdiyimiz gündən bu sistemdən bizim məlumatımızı təşkil edən bir sıra təsvirlər zehnimizdə formalaşır. Öz gündəlik ehtiyaclarımızı təmin etmək üçün çalışdığımız zaman isə

---

[79] Ənbiya 22

işlərimizin bu qanunlar sistemilə uyğun olması üçün onları (işləri) bu zehni təsvirlərlə uyğunlaşdırırıq. Məsələn aclığı aradan qaldırmaq üçün yemək yeyirik, susuzluğu aradan qaldırmaq üçün su içirik, isti və ya soyuqdan qorunmaq üçün münasib paltar geyinirik. Çünki həmişə görmüşük ki, aləmə hakim olan bu sistemə əsasən bu ehtiyaclar məhz bu vasitələrlə aradan qaldırılır. Deməli bizim işimiz fikrimizdən, fikrimiz isə aləmdəki qanunlar sistemindən sonrakı mərhələdə gəlir. Bütün aləmi, yaxud onun bir hissəsini idarə edən allah isə belə deyildir, əksinə aləmin qanunlar sisteminin özü onun işi və felidir. Onun işlərinin xarici aləmdən götürülən qanunlar əsasında olması mümkün deyildir[80] (diqqət edin).

## *Uca Allah bütün kamillik sifətlərinə malikdir.*

**Kamillik nədir?**

Hər hansı bir ev o zaman kamil hesab oluna bilər ki, ailənin ehtiyacı olan hər bir şey onda olsun, yəni qonaq otağı, mətbəx, hamam və s. üçün kifayət qədər otaq olsun. Bunlardan hər hansı biri çatışmasa, ev də naqis sayılacaq.

## *Nə üçün insan bəzən həqiqəti qəbul etmək istəmir.*

Azacıq olsa belə, diqqət edərkən bu həqiqət insana aydın olur və onda heç bir qaranlıq yoxdur. Lakin insan bəzən həyatın çətinlikləri ilə o qədər əlbəyaxa olur ki, fikrinin bütün qüvvəsini həyati mübarizələrə həsr etdiyi və bütün vaxtını yaşayışdakı fəaliyyətlərə sərf etdiyi üçün artıq bu cür fikirlər üçün ən az olsa belə vaxtı qalmır. Nəticədə bu həqiqətdən qafil

---

[80] İlk dəfə İbni Sina tərəfindən ortaya atılan bu məsələ adətən fəlsəfi kitablarda bu şəkildə ifadə olunur: "Allahın elmi aktiv və yaradıcı (feli), insanların elmi isə passivdir (infiali)" (tərcüməçi).

olur, yaxud təbiətin aldadıcı zahirinə vurularaq eyş-işrətə başı qarışır. Bu həqiqətə təslim olmaq onun bir çox nəfsani istəklərinə mane olduğu üçün təbii ki, bu həqiqəti və onun bənzərlərini axtarıb araşdırmaqdan imtina edir və ona təslim olur.

Odur ki, Quranda müxtəlif yollarla məxluqların və onlara hakim olan nizam-intizamın yaranması haqqında daha çox söz açılmış və dəlillər gətirilmişdir. Çünki insanların əksəriyyəti, xüsusilə təbiətin aldadıcı zahirinə vurulan və xoşbətliyi eyş-işrətdə görənlər maddi və hissi varlıqlarla ünsiyyət tapdıqları üçün incə əqli nəzərləri təhlil etmək və fəlsəfi təfəkkür qüdrətinə malik deyillər.

Lakin hər halda insan yaradılış aləminin bir komponentidir və aləminin digər komponentlərinə, eləcə də ona hakim olan böyük və kiçik qanunauyğunluqlara hər an ehtiyacı vardır. Odur ki, hər an diqqətini aləmə və ona hakim olan qanunauyğunluqlara yönəldib aləmin yaradanına dəlil tapa bilər. Uca Allah öz kəlamında buyurur:

إِنَّ فِي السَّمَاوَاتِ وَالْأَرْضِ لَآيَاتٍ لِّلْمُؤْمِنِينَ(3) وَفِي خَلْقِكُمْ وَمَا يَبُثُّ مِن دَابَّةٍ
آيَاتٌ لِّقَوْمٍ يُوقِنُونَ(4) وَاخْتِلَافِ اللَّيْلِ وَالنَّهَارِ وَمَا أَنزَلَ اللَّهُ مِنَ السَّمَاءِ مِن رِّزْقٍ
فَأَحْيَا بِهِ الْأَرْضَ بَعْدَ مَوْتِهَا وَتَصْرِيفِ الرِّيَاحِ آيَاتٌ لِّقَوْمٍ يَعْقِلُونَ (5)

***“Həqiqətən, göylərdə və yerdə mö’minlər üçün Allahın nişanələri vardır! Sizin yaradılışınızda və Allahın yer üzünə yayıb səpələdiyi canlılarda tam yəqinliklə inanlar üçün Allahın birliyinə, qüdrət və əzəmətinə, qiyamət gününün haqq olmasına dəlalət edən əlamətlər vardır. Gecə və gündüzün bir-birinin ardınca gəlib-getməsində, Allahın ruzi vermək üçün göydən yağış yağdırmasında, onun vasitəsilə yeri ölümündən (quruduqdan) sonra diriltməsində və küləkləri müxtəlif tərəflərə yönəltməsində ağılla düşünənlər***

***üçün Allahın hər şeyə qadir olmasını sübut edən dəlillər vardır.”***[81]

İzah: Quranda insanı səmanın, günəşin, ayın, ulduzların, yerin, dağların, dənizlərin, bitkilərin, heyvanların və insanların yaradılışda düşünməyə çağıran və bu növlərdən hər birinə hakim olan qəribə qanunauyğunluqları xatırladan bir çox ayələr vardır. Doğrudan da yaradılış mexanizmi, aləmin müxtəlif fəaliyyətlərini yaradılışın hədəflərinə və varlığın ideallarına doğru aparan qanunauyğunluqlar sistemi çox qəribə və heyrətləndiricidir. Yerdən bitib çıxan badam və ya buğda dənəsi sünbülə, yaxud meyvə ağacına çevrilir. Topağa atıldığı, rüşeyminin cücərib bayıra çıxdığı və torpaqda kök saldığı andan öz hədəfinə yetişdiyi zamanadək ağlı heyrətə gətirən çox böyük və geniş təşkilatlar fəaliyyət göstərir. Göydəki ulduzlar, yer, parlaq günəş və ay hər biri öz hərəkətləri ilə, həmçinin kiçik bir buğda dənəsində qoyulan sirli qüvvələr, ilin dörd fəsli, atmosfer şəraiti, bulud, külək, yağış, gündüzlər və gecələr buğda sünbülünün yaranmasında fəaliyyət göstərərirlər və öz qoynunda bəslədikləri bu yeni məxluqu dayə və qulluqçular kimi bir-birinə ötürə-ötürə son təkamül mərhələsinə çatdırırlar.

Həmçinin yaranışı bitkilərdən daha mürəkkəb olan kiçik bir körpənin dünyaya gəlməsi yaradılış mexanizminin milyon, hətta milyard illərlə nizamlı və çox mürəkkəb fəaliyyətinin məhsuludur. Insanın vücudundan kənardakı xarici amillərdən əlavə, daxilindəki qəribə bir qanunauyğunluqlar sisteminin də onun həyatının davam etməsində rol oynaması bir neçə əsrdir ki, dünya alimlərinin diqqətini özünə cəlb etmişdir. Gündən-günə bu məsələnin mürəkkəbliyi daha çox aşkara çıxır və bu barədə alimlər üçün məchul qalan məsələlər onların əldə etdikləri məlumatlardan qat-qat çoxdur.

Həmçinin bədənin quruluşunda adi insan üçün lazım olan bütün şeylər olan şəxs kamil və onlardan hər hansı biri,

---

[81] Casiyə 3-5

məsələn əli, ayağı, yaxud gözü çatışmayan şəxs isə o cəhətdən naqis sayılır.

Deyilənlər əsasında məlum olur ki, kamillik sifəti varlığın müəyyən ehtiyaclarını və nöqsanlarını aradan qaldıran bir xüsusiyyətdir. Məsələn elm cəhl zülmətini aradan qaldırır və məlumu insan üçün aydınlaşdırır və ya qüdrət insana öz hədəflərinə çatmağı mümkün edir. Həyat və digər sifətlər də bu qəbildəndir.

İnsanın şüuru qəti şəkildə hökm edir ki, aləmi yaradan, yəni varlıq aləminin mənbəyi, təsəvvür olun bilən bütün ehtiyacları aradan qaldıran və hər bir neməti, kamilliyi başqalarına verən varlıq bütün kamillik sifətlərinə malik olmalıdır. Çünki məsələyə real şəkildə yanaşdıqda heç vaxt təsəvvür etmək mümkün deyildir ki, özü naqis olan biri başqalarının nöqsanını aradan qaldıra bilsin.

Uca Allah Quranda özünü bütün kamillik sifətləri ilə mədh edir, hər cür eyb və nöqsandan pak olduğunu bildirir:

وَرَبُّكَ الْغَنِيُّ ذُو الرَّحْمَةِ

***“Rəbbin heç bir şeyə möhtac deyildir, mərhəmət sahibidir.”***[82]

Başqa ayədə buyurur:

اللَّهُ لَا إِلَهَ إِلَّا هُوَ لَهُ الْأَسْمَاء الْحُسْنَى

***“Allahdan başqa heç bir tanrı yoxdur. Ən gözəl adlar yalnız Ona məxsusdur!”***[83]

Yəni yaradan, eşidən, görən, diri, ehtiyacsız Odur. Deməli Allah bütün kamillik sifətlərinə malik və bütün nöqsanlardan pakdır. Çünki əgər Onda nöqsan olsaydı, həmin cəhətdən ehtiyaclı olardı və bu surətdə Onun ehtiyaclarını təmin edən daha üstün bir tanrının olması lazım olardı.

---

[82] Ənam 133

[83] Taha 8

## *Allahın elmi və qüdrəti.*

Bu geniş aləmin bir-biri ilə əlaqəli olan ayrı-ayrı hissələrini, onun insanı heyrətə gətirən ümumi hərəkətini, aləmin hər nöqtəsində fəaliyyət göstərən bir-biri ilə bağlı kiçik sistemləri və nəhayət öz hədəflərinə çatmaq üçün son dərəcə nizamla hərəkətdə olan çeşidli varlıqları görən hər bir ağıl sahibinə aydın olur ki, varlıq aləmini həm vücuda gətirən, həm də qorunub saxlayan əbədi bir həqiqət vardır ki, öz sonsuz elmi və qüdrəti ilə aləmdəki mövcudları yaratmış və sonra onları öz qoynunda böyüdərək öz mərhəməti ilə hər birini təkamülə doğru yönəldir. Əbədi varlıq, qadir və hər şeyi bilən Odur.

Allah taala quranda buyurur:

لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ يُحْيِي وَيُمِيتُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ هُوَ الْأَوَّلُ وَالْآخِرُ وَالظَّاهِرُ وَالْبَاطِنُ وَهُوَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ

***“Göylərin və yerin hökmü Onun əlindədir. Dirildən də, öldürən də Odur. O, hər şeyə qadirdir! Əvvəl də, axır da, zahir də, batin də Odur. O, hər şeyi biləndir!”[84]***

Başqa ayədə buyurur:

وَلِلّهِ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ وَمَا بَيْنَهُمَا يَخْلُقُ مَا يَشَاء وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

***“Göylərin, yerlərin və onların arasında olan hər bir şeyin ixtiyarı Allahın əlindədir. O, istədiyini yaradar, Allah hər şeyə qadirdir!”[85]***

Izah: “Filankəs minik maşını almağa qadirdir”- dedikdə həmin şəxsin maşın almaq üçün lazım olan miqdarda pulu olması nəzərdə tutulur. Yaxud “Filankəs 100 kiloqramlıq daşı qaldırmağa qadirdir”- dedikdə həmin şəxsdə 100 kiloqramlıq daşı qaldırmaq gücünün olması nəzərdə tutulur. Ümumi şəkildə hər hansı bir şeyə qadir olmaq həmin işi görmək üçün lazımi

---

[84] Hədid 2-3

[85] Maidə 17

vasitələrə malik olmaq deməkdir. Varlıq aləmində təsəvvür oluna bilən hər bir mövcudun ehtiyaclarını təmin edən Uca Allah olduğu üçün deməli O, hər şeyə qadirdir və varlıq aləminin mənbəyi onun pak vücududur.

Quranda buyurulur:

أَلَا يَعْلَمُ مَنْ خَلَقَ

***"Məgər Yaradan hər şeyi bilməzmi?!"*[86]**

Ayənin mənasına əsasən hər bir məxluq öz yaradılışında Allahın sonsuz varlığına arxalandığı üçün heç vaxt Allahla onlar arasında onları Allahdan gizli saxlayacaq bir maniənin olmasını təsəvvür etmək mümkün deyildir, əksinə hər bir şey Onun üçün aşkardır və O, əşyaların zahirini və batinini əhatə etmişdir.

## Ədalət.

Allah taala adildir, çünki ədalət kamillik sifətlərindən biridir. Hər şeyi bilən Allah bütün kamillik sifətlərinə malikdir. O, öz kəlamı olan Quranda dəfələrlə ədalət sifətini tərifləmiş və zülmü pisləmişdir. Insanları ədalətli olmağa çağırmış və zülmdən çəkindirmişdir. Necə ola bilər ki, Allah bir şeyi pisləsin, lakin özü o işi görsün, yaxud bir şeyi tərifləsin, lakin özündə o xüsusiyyət olmasın. Quranda buyurulur:

إِنَّ اللّهَ لاَ يَظْلِمُ مِثْقَالَ ذَرَّةٍ

***"Həqiqətən, Allah heç kəsə zərrə qədər zülm etməz."*[87]**

Həmçinin buyurulur:

وَلَا يَظْلِمُ رَبُّكَ أَحَدًا

***"Rəbbin heç kəsə haqsızlıq etməz!"*[88]**

Başqa bir yerdə buyurulur:

---

[86] Mülk 14

[87] Nisa 40

[88] Kəhf 44

وَمَا اللَّهُ يُرِيدُ ظُلْمًا لِّلْعِبَادِ

***"Allah Öz bəndələrinə əsla zülm etmək istəməz!"***[89]

Nisa surəsinin 79-cu ayəsində deyilir:

مَا أَصَابَكَ مِنْ حَسَنَةٍ فَمِنَ اللّهِ وَمَا أَصَابَكَ مِن سَيِّئَةٍ فَمِن نَّفْسِكَ

Sənə yetişən hər bir yaxşılıq Allahdandır, sənə üz verən hər bir pislik isə özündəndir.

Səcdə surəsinin 7-ci ayəsində deyilir:

الَّذِي أَحْسَنَ كُلَّ شَيْءٍ خَلَقَهُ

***"O, yaratdığı hər şeyi gözəl yaratdı".***

Bu əsasda demək olar ki, hər bir varlıq özü-özlüyündə ən yaxşı formada yaradılıb, bəzi varlıqlarda gördüyümüz çirkinlik, eyb və nöqsanlar isə, nisbidir və bir-biri ilə müqayisə zamanı çirkin və ya naqis hesab olunurlar. Məsələn, ilan və əqrəb insan üçün pisdir və tikan gül ilə müqayisə olunanda pis sayılır. Özü-özlüyündə isə gözəldir.

Şübhəsiz ki, Allah taala insanın ixtiyarlı işlərinin bir hissəsini şəriət baxımından pis adandırmış və onlardan çəkinməyə əmr etmişdir. Bunlar şirk, valideynlərə qarşı çıxmaq, günahsız şəxsi öldürmək, şərab içmək, qumar oynamaq kimi dini mükəlləfiyyətlərlə ziddiyyəti olan günahlardan ibarətdir. Günah adlanan bu işlər dini vəzifələrə itaətsizlik cəhətindən (yoxluq cəhətinə görə) pis sayılır və Allaha nisbət verilmir. Ixtiyar mükəlləfdən baş verdiyi üçün isə bu işlər mükəlləfə nisbət verilir, buna görə də mükəlləf məsuliyyət daşıyır və bu işlərin cəzası vardır.

## *Mərhəmət*

Zəif və ehtiyaclı birini görərkən bacardığımız qədər onun ehtiyacını təmin edirik, yazıq insanlara kömək edirik, kor

[89] Mumin 31

insanın əlindən tutub onu istədiyi yerə çatdırırıq. Bu cür işləri mərhəmət adlandırır və onları bəyənilmiş işlər hesab edirik.

Ehtiyacsız Allahın gördüyü işlər yalnız mərhəmət üzündəndir, çünki saysız-hesabsız nemətlər verməklə hamını bəhrələndirir, özü başqalarına etiyaclı olmadan onların etiyaclarını aradan qaldırır. Ayədə buyurulduğu kimi:

وَإِن تَعُدُّواْ نِعْمَتَ اللّهِ لاَ تُحْصُوهَا

***"Əgər Allahın ne'mətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz".*** [90]

وَرَحْمَتِي وَسِعَتْ كُلَّ شَيْءٍ

Mərhəmətim hər şeyi əhatə etmişdir.[91]

**Digər kamillik sifətləri**

وَرَبُّكَ الْغَنِيُّ ذُو الرَّحْمَةِ

***"Rəbbin heç bir şeyə möhtac deyildir, mərhəmət sahibidir".*** [92]

Izah: Dünyada olan hər bir yaxşılıq və gözəllik və təsəvvür oluna bilən hər bir kamillik sifəti Allahın öz məxluqlarına bəxş etdiyi və onun vasitəsilə məxluqların ehtiyacını təmin etdiyi nemətlərdir. Sözsüz ki, bu kamillik əgər Onun özündə olmasaydı, başqalarına da verə bilməzdi və özü də başqaları ilə ehtiyacda şərik olardı. Deməli Allah kamillik sifətlərini başqalarından almadan özü elm, qüdrət, həyat və s. kimi kamillik sifətləri ilə xarakterizə olunur. Acizlik, cahillik, ölüm və s. kimi nöqsan və ehtiyaca səbəb olan sifətlər onda yoxdur.

---

[90] İbrahim 34
[91] Əraf 156
[92] Ənam 133

## XII fəsil.

## *Quranda təvil, möhkəm və mütəşabih ayələr.*

هُوَ الَّذِي أَنزَلَ عَلَيْكَ الْكِتَابَ مِنْهُ آيَاتٌ مُّحْكَمَاتٌ هُنَّ أُمُّ الْكِتَابِ وَأُخَرُ مُتَشَابِهَاتٌ فَأَمَّا الَّذِينَ فِي قُلُوبِهِمْ زَيْغٌ فَيَتَّبِعُونَ مَا تَشَابَهَ مِنْهُ ابْتِغَاءَ الْفِتْنَةِ وَابْتِغَاءَ تَأْوِيلِهِ وَمَا يَعْلَمُ تَأْوِيلَهُ إِلاَّ اللّهُ وَالرَّاسِخُونَ فِي الْعِلْمِ يَقُولُونَ آمَنَّا بِهِ كُلٌّ مِّنْ عِندِ رَبِّنَا وَمَا يَذَّكَّرُ إِلاَّ أُوْلُوا الأَلْبَابِ

***Sənə Kitabı nazil edən Odur. Onun bir hissəsi möhkəm ayələrdir ki, bunlar ummul-Kitab adlanır, digər qismi isə mütəşabih (dəqiq mə'nası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərində əyrilik olanlar fitnə-fəsad salmaq və istədikləri kimi mə'na vermək məqsədilə mütəşabih ayələrə tabe olarlar. Halbuki onların yozumunu Allahdan başqa heç kəs bilməz. Dərin elmli şəxslər isə: "Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır", - deyərlər. Bunları ancaq ağıl sahibləri dərk edərlər.***[93]

**Yuxarıdakı sözlərin mənası.**

Leksikoloji baxımdan ***"möhkəm"*** sözünün kökü olan ***"həkəmə"***nin mənası bir şeyin elə şəkildə olmasıdır ki, başqa bir şey nüfuz edib onu parçalaya və aradan apara bilməsin. Bu kökdən alınan ***"ihkam"***, ***"təhkim"***, məhkəmədə hakimin verdiyi ***"hökm"***, idrak mənasına olan ***"hikmət"***, və s. sözlərin hamısında nüfuzolunmazlıq mənası özünü göstərir.

***"Mütəşabih"*** sözü bir-birinə oxşayan müxtəlif şeylərə deyilir. ***"Təvil"*** sözü isə bir şeyin başqa bir şeyə qayıtması mənasınadır.

---

93 Ali İmran 7

## *Quranda möhkəm və mütəşabih teminlərinin mənası.*

Bəzi ayələr bütün Quranı möhkəm, bəzi başqa ayələr isə onu bütövlükdə mütəşabih adlandırmışdır. Ali İmran surəsinin 7-ci ayəsində isə, Quranın bir hissəsi möhkəm, başqa bir hissəsi isə mütəşabih adlandırılmış və möhkəm ayələr ummul-Kitab (Quranın əsası) hesab olunmuşdur.

Lakin bilmək lazımdır ki, bütün Quranın möhkəm olması nazil olmamışdan əvvəlki mərhələyə aiddir. Həmçinin bütün kitabın mütəşabih olmasından danışılarkən bütün ayələrin yeknəsəq, bir-birinə oxşar, cazibədar, möhkəm üslubda olması, həqiqətləri yeknəsəq şəkildə ifadə etməsi və xalqı haqqa tərəf yönəltməsi nəzərdə tutulur. Möhkəm və mütəşabih sözlərinin bu mənasına görə bütün Quran bir cəhətdən tamamilə möhkəm, digər cəhətdən isə tamamilə mütəşabih olduğu halda, Ali İmran surəsinin 7-ci ayəsində işlənən mənada Quranın bir hissəsi möhkəm, başqa bir hissəsi isə mütəşabih hesab olunur. Deməli bu terminlərdən hər biri iki müxtəlif məna daşıyır. Etimologiya baxımından "umm" sözünün əsl mənasının "dönüş yeri və sığınacaq" olduğunu nəzərə alarkən aydın olur ki, möhkəm ayələr mütəşabih ayələrin dönüş yeri və onların mənalarının açıqlanma yeri olduğu üçün ummul-Kitab adlanmışdır. Bu ayədə möhkəm və mütəşabih terminləri bir-biri ilə zidd mənada işlənmiş, sonra isə, haqqın yolundan azıb mütəşabih ayələrə uyan şəxslərdən söz açılmışdır. Ayədə onların fitnə və "təvil" axtardıqlarını nəzərə alaraq demək olar ki, "mütəşabih ayələr" o ayələrdir ki, diləyici onu eşidən kimi dərhal mənasını başa düşmür və Quranın iki mənadan hansı birini nəzərdə tutmasında tərəddüddə qalır. Nəhayət "möhkəm ayələrə" müraciət olunduqdan sonra mənası aydınlaşır. Beləliklə "möhkəm ayələrin" vasitəsilə "mütəşabih ayələr" də "möhkəm" olur, ancaq "möhkəm ayələr" isə özü-özlüyündə "möhkəmdir".

Məsələn, Taha surəsinin 5-ci ayəsində buyurulur:

الرَّحْمَنُ عَلَى الْعَرْشِ اسْتَوَى

***5. Rəhman ərşin üzərindədir.***

Bu ayəni eşidən şəxs ilk dəfə heç nə başa düşmür, lakin Şura surəsinin 11-ci ayəsinə:-

لَيْسَ كَمِثْلِهِ شَيْءٌ وَهُوَ السَّمِيعُ البَصِيرُ

***"Ona bənzər heç bir şey yoxdur."***

müraciət edərkən onun zehnində bu məna formalaşır ki, Allahın ərşin üzərində olması deyildikdə hansısa bir məkanda olması leyil, onun öz mülkünə hakim olması və məxluqları əhatə etməsi nəzərdə tutulur. Çünki əks təqdirdə Allahın cism olardı və Allahın cism olması isə qeyri-mümkündür.

Başqa bir misal: Qiyamət surəsinin 23-cü ayəsində buyurulur:

إِلَى رَبِّهَا نَاظِرَةٌ

***"Öz Rəbbinə baxacaqdır."***

Ənam surəsinin 103-cü ayəsində buyurulur:

لاَّ تُدْرِكُهُ الأَبْصَارُ وَهُوَ يُدْرِكُ الأَبْصَارَ وَهُوَ اللَّطِيفُ الْخَبِيرُ

***"Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər."***

Birinci ayəni ikinci ayəyə qaytarırıq və başa düşürük ki, birinci ayədə baxmaq deyildikdə hissi baxış nəzərdə tutulmur.

Nəsx edən və nəsx olan ayələr barəsində də məsələ belədir. Nəsx olan ayəni nəsx edən ayə ilə tutuşdurduqda görürük ki, nəsx olan ayədə olan hökmün müddəti nəsx edən ayə gələnə qədər imiş.

## Mütəşabih ayələr məna çatdırır.

Quranı əvvəldən axıra qədər diqqətlə oxuyan şəxs müəyyən məna və fikir ifadə etməyən heç bir ayə tapa bilməz. Lakin möhkəm ayələr yalnız bir məna ifadə edir və ərəb dili ilə tanışlığı olan heç kəs o mənada şəkk etmir. Mütəşabih ayələr

isə bir neçə məna ifadə edir və bu halda Quranın bu mənalardan hansını nəzərdə tutduğu dinləyici üçün qaranlıq qalır. Ümumi şəkildə bilirik ki, bu mənalardan hansısa biri düzdür. Əks təqdirdə heç bir məna bildirməzdi.

Mütəşabih ayələrin ifadə etdiyi həqiqi mənalar Yaradanın varlığı, tövhid, peyğəmbərlik, şəriət hömləri, məad və s. kimi Quranın əsas prinsipləri ilə nəinki zidd deyil, əksinə tam şəkildə onlarla uyğundur və bu əsas prinsiplərdən nəticə olaraq çıxır. Başqa sözlə, mütəşabih ayələrin ifadə etdiyi mənalardan hansını nəzərdə tutulduğunu bu əsas prinsiplər müəyyənləşdirir. Möhkəm ayələr mütəşabih ayələri izah edir. Möhkəm ayələr mütəşabih ayələrin bünövrəsini və altqurumunu təşkil edir. Məsələyə diqqətlə yanaşan və Ali Imran surəsinin 7-ci ayəsini araşdıran şəxs qəti şəkildə görər ki, möhkəm ayələr deyildikdə Quranın əsas prinsiplərini ehtiva edən ayələr, mütəşabih deyildikdə isə bu prinsiplərin vasitəsilə aydınlaşan ayələr nəzərdə tutulur

## *Nə üçün bəzi Quran ayələri mütəşabihdir.*

Bəlkə də kimsə deyə bilər ki, üstqurumu altquruma əsaslandırmaq və onu altqurumdan nəticə olaraq almaq düzgün bir işdir, lakin bu yalnız Qurana məxsus deyildir və heç bir mütəşabihliyə də səbəb olmur. Buna cavab olaraq deyirik ki, Quranda mütəşabihliyin səbəbi iki şeydən biridir. Aşağıda görəcəyiniz kimi Quranın öyrətdiyi təlimlər iki cürdür:

1-ci qisim hissdən və maddədən kənar olan yüksək təlimlərdir. Lakin adi insanların dərki burada qəti qərara gələ bilmir ki, görəsən hissi və cismani məna nəzərdə tutulur ya yox? Məsələn Fəcr surəsində buyurulur:

إِنَّ رَبَّكَ لَبِالْمِرْصَادِ

***“Rəbbin pusqudadır”.***

Həmin surənin 22-ci ayəsində deyilir:

وَجَاء رَبُّكَ

***“Rəbbin gəldi”.***

Bu iki ayədən maddi və hissi varlıqlarla ünsiyyətdə olan şəxsin zehninə fiziki xassələri özündə əks etdirən mənalar gəlir. Lakin mütəşabih ayələrin altqurumunu təşkil edən möhkəm ayələrə müraciət edərkən görürük ki, bu cür yerlərdə maddənin xassələrindən söhbət gedə bilməz, odur ki, bu ayələrdən ilk baxışda başa düşülən məna da aradan gedir. Bu söz bütün qeyri-hissi məsələlərdə belədir və yalnız Qurana məxsus deyildir. Hətta digər səmavi kitabların təhrif olunmamış təlimlərinə və fəlsəfənin ilahiyyat bölməsinə də aiddir. Bu məsələyə Quran başqa bir dillə işarə etmişdir:

أَنزَلَ مِنَ السَّمَاءِ مَاءً فَسَالَتْ أَوْدِيَةٌ بِقَدَرِهَا

***“Allah göydən su endirdi və hər bir çuxur öz həcmi qədər su götürdü”.*** [94]

Həmçinin buyurur:

إِنَّا جَعَلْنَاهُ قُرْآنًا عَرَبِيًّا لَّعَلَّكُمْ تَعْقِلُونَ وَإِنَّهُ فِي أُمِّ الْكِتَابِ لَدَيْنَا لَعَلِيٌّ حَكِيمٌ

***“Biz Quranı sizin başa düşməyiniz üçün ərəbcə kitab şəklinə saldıq. Bizim yanımızdakı Ummul-kitabda isə O, ucaməqamlı və möhkəmdir”.*** [95]

Gördüyümüz kimi bu iki ayə bildirir ki, Quranın təlimləri çox yüksək məna daşıyır, lakin hər kəs öz istedadına görə ondan müəyyən qədər başa düşüb bəhrələnir. Quranın mütəşabih ayələri belədir. Əgər bir şəxs Quranın hansısa bir ayəsini olduğu şəkildə başa düşmürsə, nöqsan Allahın kəlamında yox, həmin şəxsdədir.

2-ci qisim isə ictimai qanunlarla və şəriət hökmləri ilə bağlı məsələlərdir. Quran təlimlərinin bu qismi nəsx edən və nəsx olan ayələrə şamildir. Bəzi ayələrin nəsx olmasının səbəbi həqiqətdə məsləhətlərin dəyişməsidir və bu qanunvericiliyin

---

[94] Rəd 17

[95] Zuxruf 2-3

tələbindən doğur. Digər tərəfdən isə Quran tədriclə nazil olmuşdur. Bu iki səbəb, yəni həm Quranda nəsx edən və nəsx olan ayələrin olması, həm də Quranın tədriclə nazil olması mütəşabih ayələrin yaranmasına səbəb olmuşdur. Lakin mütəşabih ayələri möhkəm ayələrlə və nəsx olan ayələri nəsx edən ayələrlə təfsir etdikdə məsələ həll olur.

## *Mütəşabih ayələrə tabe olmaq.*

Allah taala buyurur:

فَأَمَّا الَّذِينَ فِي قُلُوبِهِمْ زَيْغٌ فَيَتَّبِعُونَ مَا تَشَابَهَ مِنْهُ

***"Ürəklərində əyrilik olanlar isə mütəşabih ayələrə tabe olarlar."***[96]

Izah üçün deyə bilərik ki, bu ayə Quranı necə anlamaq cəhətindən insanları iki qrupa bölür: bir qrup fitnə axtaran, xalqı azdırmaq istəyən, Quranı təvil etmək istəyən və mütəşabih ayələrə tabe olan azğın şəxslər, digər qrup isə dərin elmli, sabit ürəkli və mütəşabih ayələrə tabe olmayanlardır. Bu izahla aydın olur ki, mütəşabih ayələrə tabe olmaq dedikdə imani cəhətdən tabe olmaq yox, əməli cəhətdən tabe olmaq nəzərdə tutulur. Bu ayə mütəşabih ayələrə iman gətirməyi yox, mütəşabih ayələrdən istifadə edərək fitnə yaratmağı, xalqı azdırmağı və Quranı təvil etməyi pisləyir. Aydındır ki, qeyd olunan ayə mütəşabih ayələrə onları möhkəm ayələrin əsasında təfsir etmədən tabe olan şəxsləri pisləyir. Möhkəm ayələr əsasında mütəşabih ayələrin mənasını başa düşən və onları tabe olan şəxslər isə mütəşabih ayələrə yox, əslində möhkəm ayələrə tabe olmuş sayılır.

---

[96] Ali-İmran 7

## *Təvil nədir?*

Təvil sözünün leksik mənası ***“qayıtmaq”*** deməkdir. Buna görə də, “mütəşabih ayələrin təvili” dedikdə onların qaytarılıb yönəldildiyi yer nəzərdə tutulur. Deməli, Quranın təvili onun təlimlərinin əsl mənbəyindən ibarətdir. Məsələnin aydınllaşması üçün əvvəlcə bilməliyik ki, təfsirçilər ***“təvil”*** sözü üçün bir çox təriflər vermişlər. Onlardan ən çox yayılanı budur: ***“təvil, sözün zahiri mənası ilə zidd olan mənaya deyilir”.*** Bu tərif son alimlər arasında o qədər yayılmışdır ki, təvil sözünün leksik mənasının ***“qayıtmaq”*** olmasına baxmayaraq, artıq özünə ikinci bir həqiqi (məcazi olmayan) məna, yəni sözün zahiri mənası ilə zidd olmaq mənasını kəsb etmişdir. Lakin təvil sözünə verilən bu tərif düzgün deyildir. Çünki:

1) Təvil sözünün, bu mənada (cümlənin zahiri ilə zidd olmaq mənasında) işlənməsi Quran nazil olandan sonra yaranan bir termindir və Quranda 16 dəfə işlənən təvil sözündən bu mənanın nəzərdə tutulmasına heç bir dəlil yoxdur. Əksinə Quranda bu sözün işlənəndiyi yerləri diqqətlə araşdırdıqda görə bilərik ki, təfsirçilərin verdiyi təriflərin bəziləri müəyyən qədər düzgün olsa da, onların heç biri tam şəkildə dəqiq deyildir.

2) Təvil sözünə verilən bu tərifin (cümlənin zahiri ilə zidd olmaq) mənası budur ki, Quranda, ayələrin zahirinin ziddinə olan bir sıra mənalar vardır və bu zahiri mənalar möhkəm ayələrlə ziddiyyət təşkil etdiyi üçün dində fitnə-fəsada və xalqın azmasına səbəb olur. Bu sözün isə nəticəsi budur ki, Quran ayələri arasında ixtilaf vardır və bu ixtilafı yalnız bəzi ayələri öz zahiri mənasından çıxararaq onları ümumi insanların dərk edə bilmədiyi bir sıra mənalara yönəltməklə aradan qaldırmaq olar. Əgər biz bu nəticəni qəbul etsək, Quranın Nisa surəsinin 82-ci ayəsində buyurduğu bu dəlil:

أَفَلاَ يَتَدَبَّرُونَ الْقُرْآنَ وَلَوْ كَانَ مِنْ عِندِ غَيْرِ اللّهِ لَوَجَدُواْ فِيهِ اخْتِلاَفًا كَثِيرًا

***“Nə üçün Quranda fikirləşmirsiniz? Əgər O, Allahdan başqası tərəfindən gəlmiş olsaydı, Onda çoxlu ixtilaflar görərdiniz”.***
puç bir dəlil olacaq.

Məsələnin yaxşı aydın olması üçün deyirik: əgər hər hansı bir möhkəm ayə ilə mütəşabih ayənin ixtilafını aradan qaldırmağın yolu, necə deyərlər mütəşabih ayəni təvil etmək və ***“mütəşabih ayənin həqiqi mənası onun zahirindən başa düşülən məna yox, Allahdan başqa heç kəsin başa düşmədiyi bir mənadır”***- deməkdirsə, bu halda həmin ayə olub qalan zahiri mənasını da itirdiyi üçün bütövlükdə etibardan düşəcək, çünki başqalarının sözlərini də bu cür təvil etmək olar. Hətta yalanlığını qəti şəkildə bildiyimiz bir söz barəsində də ***“bu sözü deyən onun zahiri mənasını yox, bizim başa düşmədiyimiz düzgün bir mənanı nəzərdə tutur”*** demək mümkündür. Qısa şəkildə desək, bu qayda ilə Qurandan ixtilafları aradan qaldırmaq metodu Nisa surəsinin 82-ci ayəsi ilə tam ziddiyyət təşkil edir. Çünki bu ayə açıq-aşkar şəkildə bildirir ki, Quran bütün insanlar üçün dərk, düşüncə və müzakirə obyektidir və bütün Quranda müəmmalı, yaxud zahiri mənanın əksinə bir məna daşıyan heç bir ayə yoxdur. Halbuki biz belə bir təvillə bütün bu həqiqətlərə göz yummuş oluruq.

İnandığımız Allah kəlamında heç bir paradoks fikirlər, səhv, nəyisə unutmaq ola bilməz. Kamilliyin ən uca zirvəsindədir və zaman keçdikcə onun təkmilləşməsi mümükün deyildir. Yalan və mənasız sözlər üçün nəzərdə tutmaq mümükün ola təvilin bənzərlərini bu müqəddəs kəlamda icra etmək olmaz.

Biz əvvəlcə burada təvil haqqında öz fikrimizi bildiririk, sonra isə öz təfsiri metodumuza əsasən Quran ayələrindən dəlil gətirəcəyik.

**Təvil:** hikmət, öyüd-nəsihət, yaxud hökm olmasından asılı olmayaraq Quranın bütün kəlamlarının istinad edildiyi gerçək obyektiv həqiqətə deyilir. Bu həqiqət möhkəm və ya mütəşabih olmasından asılı olmayaraq Quranın bütün ayələrində

mövcuddur. Hər hansı bir ayənin təvilinin olması ilə onun mütəşabih olub möhkəm ayəyə qaytarılması arasında heç bir əlaqə yoxdur. Təvil yalnız mütəşabih ayələrə məxsus deyildir. Quranın həm mütəşabih, həm də möhkəm ayələrində təvil vardır. Təvil əslində sözün ifadə etdiyi məna, anlayış və məfhum kateqoriyasından olan bir şey deyildir. Əksinə o, sözün əhatə edə bilmədiyi ülvi obyektiv həqiqətlərdən ibarətdir. Allah taala həmin ülvi kerçək həqiqətləri bizim zehnimizə yaxınlaşdırmaq üçün onları söz formasına salmışdır. Bu sözlər, hansısa bir fikri dinləyiciyə izah etmək üçün onun elmi səviyyəsinə uyğun olaraq çəkilən misallara bənzəyir. Quran buyurur:

وَالْكِتَابِ الْمُبِينِ(2) إِنَّا جَعَلْنَاهُ قُرْآنًا عَرَبِيًّا لَّعَلَّكُمْ تَعْقِلُونَ(3) وَإِنَّهُ فِي أُمِّ الْكِتَابِ لَدَيْنَا لَعَلِيٌّ حَكِيمٌ(4)

***“And olsun açıq-aşkar olan Kitaba ki, Biz Quranı sizin başa düşməyiniz üçün ərəbcə kitab şəklinə saldıq. Bizim yanımızdakı Ummul-kitabda isə O, ucaməqamlı və möhkəmdir”***

Bu mənanı aydın şəkildə çatdıran bu və digər ayələrin məzmununa diqqət etməklə məlum olur ki, Quranın ümumi insanların dərkindən yüksək olan ülvi aləmdə uca bir məqamı vardır və insanların dərk etməsi üçün Allah onu bu cür söz formasına salmışdır. Ümumi insanların dərkindən yüksək olan ülvi aləmdəki həmin həqiqət “təvil” adlanır. Bu isə möhkəm və ya mütəşabih olmasından asılı olmayaraq Quranın bütün ayələrində vardır.

## *Qurandan dəlillər.*

### 1) Xızır peyğəmbərin işlərinin təvili.

Musa (ə) ilə və Xızırın (ə) əhvalatında təvil sözü işlənmişdir. Xızır peyğəmbər Musa peyğəmbərə deyir:

***“Səbr edib dözə bilmədiyin şeylərin təvilini tezliklə sənə xəbər verəcəyəm.”***[97]

Əhvalatında sonunda isə deyir:

***“Bu, səbr edib dözə bilmədiyin şeylərin təvilidir.”***[98]

Indi isə təvil sözünün mənasını başa düşmək üçün bu əhvalata nəzər salaq. Üç yerdə Xızır peyğəmbər elə işlər görmüşdü ki, Musa peyğəmbərin fikrincə bu işlər öz mahiyyət və formasına görə düzgün sayılmırdı, buna görə də onun etirazına səbəb oldu.

A) ***“Gəmiyə mindikləri zaman Xızır (ə) gəmini deşdi.”***[99]

B) ***“Bir oğlanla qarşılılaşdıqları zaman Xızır (ə) onu öldürdü.”***[100]

V) ***“Bir kəndə gəlib onun sakinlərindən yeməyə bir şey istədilər, lakin kənd camaatı onları qonaq etməkdən imtina etdilər. Sonra aşmaq üzrə olan bir divarla qarşılaşdılar Xızır (ə) divarı düzəldib aşmağa qoymadı.”***[101]

Bütün bunlar Xızırın (ə) gördüyü işlər idi və Musa peyğəmbər onların hər birinə öz etirazını bildirdi. Başqa sözlə, Musa peyğəmbərin bu işlərin mahiyyəti haqqınada təsəvvürü bu idi:

A) ***“Gəmidəkilərin boğulması üçünmü gəmini deşdin? Həqiqətən çox nalayiq bir iş gördün”***[102]

B) ***“Nə üçün qisas üçün olmadığı halda (günahsız) bir şəxsi öldürdün”***[103]

V) ***“Istəsəydin, divarı düzəltdiyin üçün muzd ala bilərdin”.***[104]

---

[97] Kəhf 78
[98] Kəhf 82
[99] Kəhf 71
[100] Kəhf 74
[101] Kəhf 77
[102] Kəhf 71
[103] Kəhf 74
[104] Kəhf 77

Göründüyü kimi Musa peyğəmbərin Xızırın (ə) işlərinə olan etirazının səbəbi onları mahiyyət və formasına görə yaxşı iş hesab etməməsidir. Indi isə Xızırın (ə) etdiyi təvilə, yəni bu işlərin əsl mahiyyətinə və düzgün tərəfinə nəzər salaq.

A) ***“Gəmi dənizdə işləyən bir dəstə yazıq insanların idi. Qarşıdakı bütün gəmiləri tutub zorla alan şahın bu gəmini də qəsb etməməsi üçün mən onu zədələmək istədim.”***[105]

B) ***“Oğlana gəldikdə isə, onun ata-anası mömin idilər. Onları küfrə və tüğyana düçar etməsindən qorxdum. Buna görə də Pərvərdigarın o oğlanın əvəzində valideyinlərinə daha yaxşı və daha mehriban bir uşaq verməsini istədim.”***[106]

B) ***“Divar isə şəhərdəki iki yetim oğlanın idi. Onların divarın altında xəzinələri var idi. Ataları da əməlisaleh insan idi. Rəbbin istədi ki, onlar böyüsünlər və öz xəzinələrini oradan çıxarsınlar.”***[107]

Xızır (ə) Musanın (ə) iradlarının hər birinə ayrı-ayrılıqda cavab verdikdən sonra onlara ümumi bir cavab da verdi:

***“Mən bu işləri özbaşına görmədim.”***[108]

Gördüyünüz kimi bu ayələrdə təvil deyildikdə hər bir şeyin öz həqiqi mahiyyətinə və formasına qayıtması nəzərdə tutulur. Məsələn, ata öz övladını tərbiyələndirmək üçün vurarkən bu işin zahiri mahiyyəti “vurmaq” sayılsa da, onun həqiqi mahiyyəti “tərbiyələndirmək”dən ibarətdir. Təvil sözü leksik baxımdan ***“qayıtmaq”*** mənasına olub hər cür qayıdışa və dönüşə aid olmasına baxmayaraq, terminoloji baxımdan nümunəsini ayələrdə gördüyümüz xüsusi növ qayıdış və dönüşü çatdırır. Məsələn, “Həsən gəldi” cümləsinin qayıdış yeri Həsənin obyektiv və gerçək aləmdə gəlməsindən ibarətdir.

---

[105] Kəhf 79
[106] Kəhf 80-81
[107] Kəhf 82
[108] Kəhf 82

Lakin təvil sözünün terminoloji mənası bu cur yerlərə aid olmur.

**2) Yusifin (ə) əhvalatında təvil.**

Yusifin (ə) əhvalatında təvil sözü bir neçə dəfə işlənmişdir. Məsələn, 100-cü ayədə buyurulur:

***“Ata-anasını taxtın üzərinə apardı və onlar Yusifin qarşısıda səcdəyə düşdülər. Yusif dedi: - Ey ata. Bu, mənim əvvəlki yuxumun təvilidir ki, Allah onu gerçəkləşdirdi.”***

Yusifin (ə) əvvəlki yuxusu bu idi:

***“Ey ata. Yuxuda gördüm ki, 11 ulduz, günəş və ay mənə səcdə edir.”***[109]

Həmçinin padşahın yuxusu haqqındakı ayələrdə yuxuyozanlar belə deyirlər:

***“Biz qat-qarışıq yuxuları təvil edə bilmirik.”***[110]

Nəhayət Yusifin (ə) zindan yoldaşı onun yanına gəlir və padşahın yuxusunun təvilini ondan eşidir. Eləcə də, Yusifin (ə) iki zindan yoldaşı ona deyirlər:

***“Bizim yuxumuzun təvilini de.”***[111]

Allahın Yusifə (ə) yuxu yozmasını öyrətməsi haqqındakı ayələrdə də təvil sözü işlənmişdir.[112]

Bütün bu yerlərdə təvil sözü yuxunun həqiqəti olan hadisələr haqqında işlənmişdir. Yuxu gələcək hadisələrin və obyektiv həqiqətlərin müəyyən bir formada insana görünməsidir.

Nəticə etibarilə demək olar ki, təvil olunan şey (məsələn yuxu, yaxud Quran ayələri) ilə onun təvili arasındakı əlaqə forma-məzmun əlaqəsindən ibarətdir. Hər bir forma müəyyən bir məzmunun təzahürü olduğu kimi, yuxu da bir sıra real həqiqətlərin müəyyən formada təzahürüdür və həmin real

---

[109] Yusif 4
[110] Yusif 47-48
[111] Yusif 36
[112] Yusif 21, 101

həqiqətlər yuxunun təvili sayılır[113]. Eləcə də, ayələr və surələr Quranın mücərrəd aləmdəki əsl həqiqətinin maddi aləmdəki təzahürüdür. Beləliklə Quranın təvili dedikdə onun mücərrəd aləmdəki əsl həqiqəti nəzərdə tutulur.

Diqqətlə nəzər saldıqda aydın olur ki, həm Yusifin (ə), həm də Xızırla (ə) Musanın (ə) əhvalatındakı təvil sözü bir-birinə yaxın, hətta demək olar ki eyni mənada işlənmişdir.

**3) Qiyamət ayələrində təvil.**

Qiyamətlə bağlı olan ayələrdə də bəzən təvil sözü nəzərə çarpır. Məsələn, Əraf surəsinin 53-ci ayəsində deyilir:

***“Onun təvilindən başqa bir şeymi gözləyirlər? O gün ki, onun təvili gələcək...”***

Qaf surəsinin 22-ci ayəsində

***“Sən bu həqiqətlərdən qafil idin, lakin Biz pərdələri gözündən götürdük və bu gün (qiyamət günü) gözün iti görür.”***

buyurulduğunu nəzərə alarkən aydın olur ki, qiyamət günündə hakim olan sistem və o gündə baş verən hadisələr ünsiyyət bağladığımız bu dünyanın sistemindən və hadisələrindən fərqli olduğu kimi, o gündə baş verən hadisələri müşahidə etməklə dünya həyatındakı hissi müşahidə arasında da fərq vardır.

Şübhəsiz ki, bu barədə geniş müzakirə etmək olar, lakin bizim burada toxunmaq istəyidiyimiz məsələ yalnız bundan ibarətdir ki, Quranda, eləcə də peyğəmbərlər tərəfindən gəlib çatan xəbərlərin qiyamət günündə təzahür edəcəyi məzmunlarına dönüşü (təvili) ilə, gələcək hadisələr barəsidə verilən xəbərlərin öz məzmunlarına dönüşü arasında fərq vardır.

[113] Şübhəsiz ki, burada düzgün yuxulardan söhbət gedir.

## *Nəticə.*

Təvil sözünün leksik mənasını (dönüş və qayıdış), təvil sözünün işləndiyi ayələri, eləcə də Quranın Allah yanında sözlərdən uca məqamı olduğunu nəzərə almaqla aydın olur ki, Quranın təvili dedikdə onun adi insanların dərkindən uzaq olan ülvi aləmdəki əsl görünməz həqiqəti nəzərdə tutulur və Quranın Allah yanındakı bu əsl həqiqəti ilə onun sözləri arasındakı əlaqə ruh ilə cism arasındakı əlaqəyə bənzəyir. Məhz buna görə də Allah onu "Kitabi həkim", yəni nazil olan və bizim əlimizdə olan bu Quranın təlimlərinin, məzmununun istinad və dayaq yeri adlandırmışdır. Quranın ülvi aləmdəki əsl həqiqəti söz və ya məna kateqoriyasından olan bir şey deyildir, əksinə o, real və obyektiv bir gerçəklikdir.

# XIII fəsil.

## *Quran və azadlıq.*

Azadlıq sözünün əsasən son əsrlərdə dillərə düşməsinə baxmayaraq insanda azadlıqserərlik duyğusu son əsrlərdə yaranan yeni bir məsələ deyildir. Bu məsələ həmişə insanın diqqətini özünə cəlb etmiş, onun fikrinin dərinliklərində kök salmış və qədim arzularından biri hesab olmuşdur. Insanın digər istəkləri kimi azadlıq istəyi də onun fitrət və yaradılışından qaynaqlanır və onun mənşəyi insanda "iradə"nin olmasıdır. Insan bir sıra həqiqətləri dərk edib müəyyən işlərə iradə edir və bu zaman azad olmaq, özünün bəyəndiyi işləri yerinə yetirmək və bu yolda heç bir maneə görməmək istəyir. Deməli iradə insandan ayrılmadığı üçün azadlıq sevgisi də həmişə onunladır.

Lakin insan ictimai bir varlıq olduğu və fitri olaraq başqa insanlarla əsaslı problemlərin həllində şərik olub öz yaşayışını əməkdaşlıq üzərində qurmaq istədiyi üçün ictimai yaşayışın qanunlarına riayət etməyə, yəni bir sıra qayda-qanunlar təyin

edib öz iradəsini bu qanunların çərçivəsində məhdudlaşdırmağa məcburdur. Çünki əgər bütün insanlar tam sərbəst olsalar, onların iradəsi heç bir qanuna tabe olmasa və hər kəs öz istədiyini etsə, qısı bir müddətdə ictimai yaşayış dağılıb aradan gedər. Odur ki, insan öz mütləq azadlığını məhdudlaşdırmağa məcbur olur. Deyilənlərdən məlum olur ki, heç bir cəmiyyətdə mütləq azadlıq ola bilməz və əsasən cəmiyyət ilə mütləq azadlıq bir yerə sığa bilməz. Odur ki, həmişə azadlıqdan söhbət gedərkən nisbi azadlıq nəzərdə tutulur və müxtəlif xalqlar arasında olan fərq də bu nisbi azadlığın əhatə dairəsindədir.

Burada diqqət olunmalı olan məsələ budur ki, yeni qərb sivilizasiyasında deyilən azadlıq ilə Islamda deyilən azadlıq arasında fərq vardır. Yeni sivilizasiyada hədəf maddi ləzzətlərdən maksimum dərəcədə istifadə etmək olduğu üçün insanlar bütünlüklə dini etiqadlardan, eləcə də əxlaq normalarından azaddırlar və öz qoyduqları ictimai qanunları pozmamaq şərtilə ürəkləri istədikləri hər bir işi yerinə yetirə bilərlər. Sözsüz ki, belə azadlıq insanlıq ruhunu və əxlaqi fəzilətləri məhv edib insanı heyanlıq səviyyəsinə sürükləyir və yaradılış sisteminin insan üçün nəzərdə tutduğu təkamül yolundan saxlayır.

İslam dini isə öz təlimlərini ilk növbədə tövhidə, sonra əxlaqi fəzilətlərə əsaslandırdığı və istisnasız olaraq bütün fərdi, ictimai işlər üçün göstərişlər verib onlara hədd qoyduğu üçün qərb sivilizasiyasında deyilən azadlıqla razılaşmır və özü onun üçün başqa bir hədd-hüdud nəzərdə tutmuşdur. Lakin bunun əvəzində insana elə bir azadlıq vermişdir ki, bu azadlıq onun qarşısında geniş bir dünya açmışdır. Bu, ***“Allahdan başqasına qul olmamaq”*** azadlığıdır. Bu azadlığın bir cümlədə ifadə olunmasına baxmayaraq diqqət etdikdə aydın olur ki, çox geniş mənaya malikdir və bu günkü sivilizasiya dünyasında olan buxovların bir çoxunu insanların ayağından açır, yəni hər bir xalqı başqa millətlərin hər cür əsarətindən, hər bir ictimai sinfi digər siniflərə qul almaqdan azad edir. Buna görə də güclü və

ya zəif olmasından asılı olmayaraq bütün fərdlərə və cəmiyyətlərə, həmçinin müxtəlif millətlərə eyni dərəcədə azadlıq vermişdir. Bu, Islamın bəşəriyyətə verdiyi ən böyük azadlıqdır. Quran buyurur:

قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاءٍ بَيْنَنَا وَبَيْنَكُمْ أَلاَّ نَعْبُدَ إِلاَّ اللّهَ وَلاَ نُشْرِكَ بِهِ شَيْئًا وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَابًا مِن دُونِ اللّهِ

"Ey kitab əhli, hamımızın həmfikir olduğumuz vahid mətləbə gəlin. Gəlin Allahdan başqasına pərəstiş etməyək, heç bir şeyi ona şərik qoşmayaq və bir-birimizi allahlığa seçməyək."[114]

İslam dini hökmlər və göstərişlər baxımından da Allahın halal nemətlərindən istifadə etməkdə mötədil azadlığa yer vermiş, ifrat və təfritdən çəkindirmişdir. Quranda buyurulur:

خَلَقَ لَكُم مَا فِي الأَرْضِ جَمِيعاً

***"Yer üzündə olan hər bir şeyi sizin üçün yaratmışdır."***[115]

Başqa bir ayədə isə təkcə yerdəki varlıqların yox, hətta göydə olanların da insana xidmətçi olduğu bildirilir:

وَسَخَّرَ لَكُم مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ جَمِيعًا[116]

Bütün bu deyilənlər əsasında aydın olur ki, İslamın mütləq şəkildə əqidə azadlığı tərəfdarı olduğunu və hər kəsi istədiyi dini seçməkdə haqlı bildiyini güman edən şəxslər yanılırlar. Islamın bünövrəsi şirki rədd etmək və tövhid olduğu halda necə ola bilər ki, bu din insanları tövhid prinsipinə qarşı çıxmaqda azad qoysun?! Bu açıq-aşkar bir paradoksdur və tamamilə buna bənzəyir ki, insanlar bu günkü dünyada qoyduqları qanunların pozulmasına icazə versinlər. Halbuki bu, həmin qanunların qoyulması ilə heç cür uyğun gəlmir.

Bu nəzəriyyənin tərəfdarları bir sıra ayələri, o cümlədən

---

[114] Ali İmran 64
[115] Bəqərə 29
[116] Casiyə 14

لاَ إِكْرَاهَ فِي الدِّينِ قَد تَبَيَّنَ الرُّشْدُ مِنَ الْغَيِّ

***"Dində məcburiyyət yoxdur. Çünki artıq düz yol batil yoldan seçilib ayrılmışdır."***[117]

ayəsini əldə əsas tutaraq güman edirlər ki, Quran hər bir əqidəni seçməyi azad etmişdir, halbuki ayə onların dediyi mənanı yox, tamamilə başqa bir şeyi nəzərdə tutur.

Qeyd olunan ayə bizə bu həqiqəti öyrədir ki, İslam dininin haqq olması Quran və əziz peyğəmbərimizin (ə) sözləri sayəsində aydın olduğu üçün insanlara İslam dinini məcburi və könülsüz şəkildə qəbul etdirməyə ehtiyac yoxdur. Həmin ayədə لاَ إِكْرَاهَ فِي الدِّينِ ***"Dində məcburiyyət yoxdur."*** cümləsinin ardınca gələn قَد تَبَيَّنَ الرُّشْدُ مِنَ الْغَيِّ ***"Çünki artıq düz yol batil yoldan seçilib ayrılmışdır."*** cümləsi də bu fikri təsdiqləyir.

Bundan əlavə, məcburiyyət yalnız insanın zahiri işlərində və bədən hərəkətlərində təsir qoya bilər, qəlbi etiqadlar isə onun nüfuz dairəsindən xaricdir. Ümumiyyətlə əqidə və etiqad bir sıra idraklar nəticəsində qəlbdə formalaşır və bu idraklar olmadan onun məcburi və könülsüz şəkildə yaranması mümkün deyildir. Əslində ***"Dində məcburiyyət yoxdur."*** cümləsi obyektiv reallığa söykənən şəri bir həqiqətdir və irşadi hökmlərdən sayılır və demək istəyir ki, heç kəsi haqq dini qəbul etməyə məcbur etməyin, çünki məcburiyyət yolu ilə öz məqsədinizə çata bilməzsiniz.

Bütün bunlardan əlavə, bu ayə insanları etiqadi məsələlərdə təqliddən uzaq olmağa və məntiqə əsaslanmağa çağırır, çünki məcburi və könülsüz şəkildə qəbul olanan əqidə həmişə təqlidi xarakter daşıyır. Hər halda, ayədə işarə olunan dində məcburiyyət mövzusunun insanların istədikləri əqidəni seçməkdə azad olmaları məsələsi ilə heç bir bağlılığı yoxdur.

---

[117] Bəqərə 256

## *Belə “bəzəklər” Quranın məqamına layiq deyildir.*

Son zamanlar bəzi nəşriyyatların Quranı tilsimli yazılar və şəkillər, eləcə də “novruznamə”, “məhərrəmnamə” və s. kimi əlavələrlə çap edib yayır, bu tilsimli yazılara və şəkillərə baxmağın çoxlu savabı olduğunu söyləyirlər. Müsəlmanların yeganə dayaq yeri, təhrifdən uzaq olan tək səmavi kitab Quranla belə şeylərin çap olunması bir çox mübahisələrə, xüsusilə bu məsələlərə qarşı həssas olan gənclərimiz arasında söz-söhbətə səbəb olmuşdur. Buna görə də “Islam məktəbi” jurnalının həvəskarlarından biri əllamə Təbatəbaidən bir sıra suallar soruşmuş və o da bu sualları dolğun şəkildə cavablandırmışdır. Bu sual və cavabların ümumi oxucu kütləsi üçün faydalı olduğunu nəzərə alaraq onları çap etmək qərarına gəldik.

Sual. Əksəriyyəti İranda çap olunan bir çox Quranlarda tilsim adlı bir sıra şəkillər Allahın kitabına əlavə olunur, çap olur və satılır. Ümumiyyətlə bu tilsimlər və şəkillərin düzgün sənədi vardırmı?

Cavab. Bu tilsimlər və şəkillərin heç bir düzgün sənədi yoxdur, istər Qurana əlavə olunub çap olunsun ya yox. Dini mənbələrdə onların düzgünlüyünə heç bir dəlil yoxdur.

Sual. Bu tilsimlər və şəkillərin hər biri üçün bir sıra qəribə xüsusiyyətlər yazıb onları əziz Peyğəmbərə (s) və imamlara istinad verirlər. Bu tilsimlərin faydaları və təsirləri haqqında fikriniz nədir?

Cavab: Bu şəkillərə baxmaq haqqında əziz Peyğəmbərdən (s) və imamlardan (ə) nəql olunan faydaların bir hissəsi saxtadır (peyğəmbərlik möhrünə baxmaq kimi), bir hissəsinin isə sənədi yoxdur.

Sual. Əziz Peyğəmbərin (s) və imamların (ə) gündəlik rastlaşdığımız formada şəkillərini, eləcə də yuxarıda qeyd

olunan tilsimləri, məhərrəmnamə və novruznaməni Qurana əlavə etmək şəriət baxımından necə dəyərləndirilir?

Cavab: Peyğəmbərin (s) və imamların (ə) fantastik şəkillərini, eləcə də peyğəmbərlik möhürü adlanan şəklə baxan şəxsə hər biri Peyğəmbərin (s) həccinə bərabər olan minlərlə həccin savabının yazılması, yaxud filan şəklə baxanın bütün günahlarının bağışlanılması haqqındakı bir sıra xurafat dolu hədisləri Qurana əlavə edib çap etmək Quranın hörmətsizliyinə səbəb olur və qəti şəkildə haramdır. Həmçinin tilsim adlı bir sıra şəkillərin Qurana əlavə olunması da yuxarıda deyildiyi kimi heç bir sənədi olmadığı üçün Qurana hörmətsizlik sayılır.

Ümumiyyətlə müsəlmanlar unutmamalıdırlar ki, Allah kəlamı və Quran adlanan bu pak səmavi kitab Islam təlimlərinin elmi bazası, həzrət Məhəmmədin peyğəmbərliyinin canlı dəlili, altı yüz milyon müsəlmanın[118] iftixarı və şərəfidir. Bütün bunları nəzərə almaqla aydın olur ki, heç bir müsəlmanın vicdanı nəinki bu günkü dünyanın istehza ilə yanaşdığı və Quranın məqamına yaraşmayan məhərrəmnamə, novruznamə və xurafat dolu şəkillərin, hətta içərisində bir sıra həqiqətlər olan bir kitabın belə Qurana əlavə olunub onunla bir səviyyədə qoyulmasına və cəmiyyətdə yayılmasına icazə verə bilməz.

Qiraət, təcvid, din rəhbərlərinin həyatı və dini əqidələr kimi bir sıra həqiqətləri Quranın vasitəsilə yaymaq istəyən əziz nəşriyyatçılar onları ayrıca kitab şəklində çap edib Quranla birgə camaata verə bilərlər.

## *Müqəttəə hərfləri nə üçündür?*

***Suriyanın Hələb şəhərindən doktor Əbdürrəman Kiyali əllamə Təbatəbaiyə məktub yazaraq müqəttəə hərfləri barəsində sual soruşmuş, əllamə də ona cavab məktubu***

---

[118] Bu günkü statistikaya əsasən dünyada bir milyard yarıma qədər müsəlman vardır.

***yazmışdır. Əllamə Təbatəbai bizə həmin cavabı dərc etmək icazəsi verdiyi üçün şərəf hissi duyuruq. Burada Əbdürrəman Kiyalinin məktubunun mətnini və əllamənin cavabını oxuculara təqdim edirik.***

***Möhtərəm alim ustad ayətullah əllamə Təbatəbai cənablarına***

Qurani-Kərim Uca Allahın müəyyən müddət ərzində tədricən öz peyğəmbəri Məhəmmədə (s) vəhy etdiyi kitabdır. Quranın ayələrinin sayı Ibni Sirinin fikrincə 6216, Ibni Məsudun fikrincə 6218-dir. Bütün alimlər surələrin sayının 114 olduğunu qəbul edir. Quranın 28 surəsi “əlif lam mim”, “əlif lam ra”, “əlif lam mim sad”, “ha mim”, “ta sin mim”, “ta sin”, “kaf ha ya ayn sad”, “ya sin”, “sad”, “ta ha”, “qaf”, “nun” və s. kimi müqəttəə adlanan hərflərlə başlanır. Bu hərflərin mənası nədir? Nə üçün 3 Mədinə surəsi və 25 Məkkə surəsi bu hərflərlə başlanır? Nə üçün bu hərflər Quranın bütün surələrinin əvvəlində gəlməmişdir? Ərəbcə nazil olan Quranı eşidib əzbərləyən, qeyd edən, vərəqlərini saxlayan səhabələr, bu hərflərin mənasını bilirdilərmi? Tutaq ki, əgər Peyğəmbərin (s) ilk yoldaşları bu hərflərin mənasını bilirdilərsə, bəs nə üçün bu hərflərin təfsirində onlar arasında fikir ayrılığı yaranmışdır. Onlar arasındakı bu fikir ayrılığı təfsir kitablarında qeyd olunmuşdur.

Hər halda bu hərflər əbəs yerə nazil olmamışdır, deməli müəyyən məna daşıyır. Elə isə onların əsl mənası nədir? Bu hərflər simvolik xarakter daşıyırmı? Yoxsa mürəkkəb adlar kimi hansısa sözlərin qısalmış formasıdır? Yaxud kəlamın başladığını bildirmək və dinləyicinin diqqətini cəlb etmək üçündür? Bəlkə də xüsusi terminlərdir.

Hədisləri və səhabələrin sözlərini nə qədər araşdırdımsa da Quranın bu hərflərlə nə demək istədiyi mənim üçün aydın olmadı. Təfsirçilərin sözləri, şərqşünasların təvilləri və sufilərin nəzərləri də bu sirrin açılmasına heç bir kömək etmədi.

Alimlərin bu mövzudakı fikir ayrılığını nəzərə alaraq sizin fikrinizi öyrənmək qərarına gəldim ki, bəlkə sizin cavabınızda şübhələrimi və səhvlərimi aradan qaldıra bilən faydalı bir söz tapıldı.

Bu problemin həllində siz öz lütfünüzlə bizə yol göstərib həqiqəti aydınlaşdırmalı, "Bu hərflər Allahdan başqa heç kəsin bilmədiyi sirlərdir"- deməməlisiniz. Çünki Quranın bütün ayələrini başa düşmək bizim vəzifəmizdir və Allah taala onu insanların hidayəti üçün aydın ərəb dilində nazil etmişdir.

Sonda sizin qənaətbəxş cavabınızı gözləyir, sizin elm dünyasına və müsəlmanlara şərəf olmağınız üçün Allahdan sizə uzun ömr arzu edirəm.

***Doktor Əbdürrəman Kiyali***
***Hələb: 28 səfər 1379/ Sentyabr 1959.***

## Doktor Əbdürrəman Kiyali cənablarına

Sizə ən cözəl salamlarımı çatdırır və cavabın gecikməsinə görə üzr istəyirəm. Sizin məktubunuz Quma gəlib çatarkən mən Dəmavənd dağının ətrafına yaylağa getmişdim. Qumla Dəmavənd arasındakı məsafənin çoxluğu və məktubunuzun əldən-ələ ötürülərək bir müddətdən sonra mənə çatması cavabın yubanmasına səbəb oldu.

Təfsir elmində biz öz metodumuza əsasən ayələrin mənasını başa düşməkdə Qurandan başqa bir şeyə istinad etmirik. Çətin ayələrin mənasını dərk etməkdə yalnız başqa ayələrdən istifadə edirik. Lakin Peyğəmbərdən (s) gələn mütəvatir hədisləri, həmçinin həqiqətlə uyğunluq əlamətləri olan hədisləri də mötəbər hesab edir, təfsirdə onlara istinad edirik. Çünki Quranın açıq göstərişinə əsasən Peyğəmbərin (s) buyurduqları bizim üçün qanundur. Peyğəmbərin (s) ailəsinin hədisləri də höccət və qanun sayıldığı üçün onlara da istinad edirik. Peyğəmbərin (s) ailəsinin hədislərinin höccət olması barədə bizim dəlilimiz mütəvatir şəkildə gəlib çatan "Səqəleyn"

hədisidir. Bundan əlavə başqa hədislər də vardır. Bu məsələyə əl-Mizan təfsirinin birinci cildində toxunmuşuq və üçüncü cilddə “Möhkəm və mütəşabih ayələr” mövzusunda isə geniş şəkildə izah etmişik.

Səhabə, tabein və təfsirçilərdən bizə gəlib çatan mətləblərin isə etibarı yoxdur və onların digər dəlillərlə uyğun gəldikləri hallar istisna olmaqla onlara istinad etmirik. Çünki onların nəzərləri öz ictihadlarından başqa bir şey deyildir. Ictihad isə öz sahibindən başqası üçün mötəbər sayıla bilməz. Bizim fikrimizcə onların ictihadları qeyri-qəti hədislərlə bir səviyyədədir və heç biri elmi dəyərə malik deyildir.

Biz təfsir elmindəki bu metodu Peyğəmbərdən (s) və imamlardan nəql olan hədislərdən götürmüşük. Məsələn, hədislərdə deyilir ki, Quranın bir hissəsi digər hissəsini təsdiq edir və ya Quranın bir hissəsi digər hissəsinin vasitəsilə açıqlanır, yaxud Quranın bir hissəsi digər hissəsinə şahiddir. Bu, hədislərin vasitəsilə bizə qismət olan düzgün və bəyənilmiş bir yoldur. Şübhəsiz ki, Quran ayələri nəzmə və söz üslubuna malikdir, başqa sözlər kimi başa düşülən məna ifadə edir. Lakin öz dərkimizlə ayələrin mənasını başa düşməyimizə baxmayaraq müqəttəə hərfləri adi söz üslubu ilə uyğun olmadığı üçün onların anlaşılmaz qaldığını görürük. Misal olaraq, “əlif lam mim”, “əlif lam ra”, “ya sin”, “ta ha” bizim üçün məchuldur. Buradan nəticə alırıq ki, müqəttəə hərfləri digər ayələr kimi adi ərəb kəlamı üslubu ilə bir sıra mənaları anlatmaq üçün nazil olmuş olmayıb.

Bu hərflərin əbəs və mənasız olduğunu da demək olmaz. Çünki Allahın kəlamı heç vaxt boş və mənasız ola bilməz. Quran özü haqqında deyir:

***“O, haqla batili ayırd edən bir kəlamdır və zarafat deyildir.”***[119]

---

[119] Tariq 13-14

Bütün bu deyilənlərdən aydın olur ki, bəzi Quran surələrinin müqəttəə hərfləri ilə başlanmasının səbəbi vardır və onlar xüsusi məqsədlə nazil olmuşdur. Lakin onların səbəbi haqqında səhabə, tabein və təfsirçilərdən bizə gəlib çatan nəzəriyyələr həqiqət axtarışında olan insanı qane etmir. Buna görə də, biz öz təfsirimzdə bu məsələni təxirə salıb "Şura" surəsinin təfsirində ona toxunmağı qərar almışıq. Ümid edirik ki, əgər əcəl bizə möhlət versə, Allah taala bu sirrin üstünün açılmasında bizə kömək edəcək və qənaətbəxş bir fikrə gələ biləcəyik.

Bu bəhs üçün "Şura" surəsini daha münasib bilməyimizin səbəbi budur ki, bu surədə Allahın necə vəhy və ilham etməsi barəsində söhbət açılmışdır, odur ki bu mövzu ilə daha uyğundur.

İndiyədək bu problemin həllindən yalnız bu qədər mənə aydın olmuşdur ki, hər bir surənin əvvəlində gələn müqəttəə hərfləri ilə həmin surənin məzmunu və hədəfi arasında xüsusi bağlılıq vardır. Məsələn, "əlif lam mim"lə başlayan surələrin bəzisinin Məkkədə, bəzisinin Mədinədə nazil olmasına baxmayaraq onların arasında xüsusi bağlılıq görürük. "Əlif lam ra", "ha mim" və "ta sin"lə başlayan surələr arasında elə xüsusi bağlılıq və uyğunluq vardır ki, digər surələr arasında bağlılıq və uyğunluq görünmür. Həmçinin, "əlif lam mim"lə başlayan iki surədə[120] və "sad"la başlayan surədə[121] gördüymüz hədəf və mənəvi uyğunluğu "əlif lam mim sad"la başlayan Əraf surəsində müşahidə edirik.

Bütün bu deyilənlərdən ümumi şəkildə başa düşülür ki, müqəttəə hərflərinin surələrin hədəfi və mənaları ilə bir növ bağlılığı və uyğunluğu vardır. Amma bu bağlılığın necəliyi, təfərrüatı və izahı hələ də tam şəkildə aydınlaşmamışdır. Lakin ümidvaram ki, Allah taala bu həqiqəti bizim əlimizlə

---

[120] Bəqərə və Ali İmran surəsi
[121] Sad. 38-ci surə

aydınlaşdıracaqdır. Sonda bir daha sizə ən gözəl salamlarımı çatdırır və Allahdan sizə uğurlar diləyirəm.

Məhəmmədhüseyin Təbatəbai

21 rəbiəl-əvvəl 1379.

# MÜNDƏRİCAT

Qurani-kərim .................................................................. 3
Quran möcüzədir ............................................................... 7
Peyğəmbəri (s) ittihamlandırmaq .................................. 10
Ecazkarlıq və möcüzə..................................................... 14
İrad və cavab ................................................................. 21
İrad və cavab ................................................................. 22
Başqa bir irad və cavab ................................................ 23
Möcüzə ........................................................................... 32
Quran prizmasından möcüzə.......................................... 33
Ayın parçalanması hadisəsi. .......................................... 37
Ayın parçalanmasına etiraz edənlərin cavabı. ................ 38
Yuxunun həqiqəti vardırmı?........................................... 40
Quranın yuxu haqqında fikri nədir? ............................... 40
Ruh ilə yuxu arasında rabitə yaranırmı? ........................ 41
İzah ................................................................................ 41
Vəhy və ya gizli idrak .................................................... 44
Etiraz ............................................................................. 57
Qurandan bir dərs ........................................................... 73
Quran prizmasından yaşamaq uğrunda mübarizə və güclülərin seçilməsi qanunu. ............................................... 79
Quran aspektindən din və onun əsl bazisi. ..................... 85
Məad: başqa dinlərdə və Quranda. ................................. 91
Məad və dinlər................................................................ 92
Quranda məad ................................................................ 93
Ölümdən qiyamətədək (ölən ruh yox, bədəndir)............ 94
Bərzəx aləmi.................................................................. 96
Yaradan haqqındakı axtarış fitri istəkdən doğur. ........... 96
Yaradanın isbatı.............................................................. 97
Müxtəlif xalqlarda Allaha etiqad.................................... 98
Bu axtarışın insanın həyatında təsiri .............................. 99
Quranın Allah haqqında təlimləri ................................ 103

Quran və tövhid ........................................................ 104
Uca Allah bütün kamillik sifətlərinə malikdir.............. 106
Nə üçün insan bəzən həqiqəti qəbul etmək istəmir. ..... 106
Allahın elmi və qüdrəti. ............................................... 110
Ədalət. ......................................................................... 111
Mərhəmət .................................................................... 112
Quranda təvil, möhkəm və mütəşabih ayələr. .............. 114
Quranda möhkəm və mütəşabih teminlərinin mənası. . 115
Mütəşabih ayələr məna çatdırır. .................................. 116
Nə üçün bəzi Quran ayələri mütəşabihdir. ................... 117
Mütəşabih ayələrə tabe olmaq. .................................... 119
Təvil nədir? ................................................................. 120
Qurandan dəlillər. ....................................................... 122
Nəticə. ......................................................................... 127
Quran və azadlıq.......................................................... 127
Belə “bəzəklər” Quranın məqamına layiq deyildir. ..... 131
Müqəttəə hərfləri nə üçündür? .................................... 132
Doktor Əbdürrəman Kiyali cənablarına ....................... 134